# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 231 (8547) CÜMƏ, 6 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Ustad və Sərkərdə

## Prezident İlham Əliyev Vətən savaşının ötən 40 günündə Azərbaycan tarixinin ən şərəfli salnaməsini yaratdı

Ustad - bu ifadə Şərqin təhsil sistemində, ümumən Şərq aləmində çox böyük anlamda olan sözdür. Belə bir kəlmə həm sənətdəki mükəmməlliyi, həm bir insanın ən yüksək peşəkarlıq səviyyəsinə çatmasına şərait yaradan ənənələri, həm bu ənənələrin gələcək nəsillərə ötürülməsini, həm də şəxsiyyətə olan böyük sevgi və ehtiramı ehtiva edir.

Qərb dünyasında ustadlara "master" deyirlər və bu da mahiyyətcə eyni məzmun yükünü daşıyan yetərincə tutumlu kəlmədir.

Sənətində kamilliyə yetişmiş peşəkarlar ustad dərsləri - "master-klass"ları zamanı öz təcrübələrini müəyyən bir müddət ərzində ardıcılları ilə bölüşür, yaxud onların qarşısında hansısa məsələyə ən sadə həll taparaq nümunə yaradırlar. Bəzən cəmi bir neçə saatlıq ustad dərsi ondan görüb-götürməyi bacaranlar üçün beş-altı illik universitet təhsili qədər faydalı olur.

### Tarixi dəyişən 40 gün

Ustad dərslərinə bu qədər diqqət yönəltməyim qətiyyən təsadüfi deyil. Rəşadətli ordumuzun işğalçı Ermənistanın təxribatlarına qarşı əks-hücum əməliyyatlarına başlayıb torpaqlarımızı düşməndən təmizlədiyi 27 sentyabr tarixindən etibarən hamımız Azərbaycan Ordusunun şanlı hərbi qələbələrinin şahidləri olduğumuz qədər həm də əsl ustad dərslərinin iştirakçılarıyıq. Bu ustad dərslərini Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevdən alırıq, ondan görüb-götürürük.

Azərbaycan Prezidentinin sərkərdəlik məharəti əslində bizə çoxdan tanışdır. Hələ ölkə rəhbəri kimi 17 il əvvəlki ilk qətiyyətli addımlarından, mətin siyasi iradəsindən, insanları ardınca aparmaq əzmindən, intuisiyasından, yüksək təşkilatçılıq, idarəetmə, detallara diqqət, tələbkarlıq, motivasiya və eləcə də situasiyanı idarəetmə bacarıqlarından bilirdik ki, bu keyfiyyətlər ölkəmizi tarixinin ən böyük sosial-iqtisadi yüksəliş dönəminə yetirdiyi kimi, hərb meydanında da əsl möcüzələr yarada bilər.

Ardı 6-cı səh.

# "Biz güclü ölkəyik və öz torpağımızda döyüşürük"

## Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

**- Sabahınız xeyir, cənab Prezident. Bizimlə söhbət etmək, bizə müsahibə vermək üçün vaxt ayırdığınıza görə təşəkkür edirik.**

- Bu imkana görə təşəkkür edirəm.

**- Hazırda Dağlıq Qarabağdakı müharibənin altıncı həftəsi başlayır. Cəbhədə hazırda vəziyyət necədir?**

- Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan, demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən, demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik.

**- Siz işğal olunmuş 7 rayonun - 5 üstəgəl 2 azad edilməsini istəyirsiniz. Siz onlardan artıq neçəsini azad etmisiniz?**

- Faktiki olaraq, işğal olunmuş rayonlardan 5-dən 4-ü artıq ya tamamilə, ya da qismən azad edilib. Bu gün biz işğal altında olan digər rayonların işğaldan azad edilməsinin aktiv mərhələsindəyik. Qeyd etdiyim kimi, biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik və yeri gəlmişkən, biz artıq əsas prinsiplərin bir hissəsini yerinə yetirmişik. Çünki ATƏT-in Minsk qrupu tərəfindən təklif olunan həll üçün əsas prinsiplər faktiki olaraq Azərbaycanın işğal olunmuş ərazilərinin boşaldılmasını tələb edirdi. Əfsuslar olsun ki, Ermənistan könüllü şəkildə bunu etmək istəmirdi, ona görə də biz onları bunu etməyə məcbur etməli olduq.

**- Hər iki tərəf artıq 3 humanitar atəşkəslə bağlı razılığa gəlib. Lakin onlar heç bir neçə dəqiqə də belə çəkməyib. Nəyə görə müharibəni üç dəfə durdurmaq və danışıqlara başlamaq mümkün olmamışdır?**

- Düşünürəm, bu atəşkəslərin işləməməsinin səbəblərindən biri ondan ibarət idi ki, Ermənistan artıq bizim tərəfimizdən azad edilmiş əraziləri geri almağa cəhd göstərirdi. Başqa sözlə, onları yenidən işğal etmək istədilər. Ona görə də onlar sizin doğru olaraq qeyd etdiyiniz kimi, humanitar məqsədlərlə elan olunmuş bu atəşkəsdən resursları səfərbər etmək və yeni hücuma keçmək üçün istifadə etmək istədilər. Onlar bunu edə bilməyəndə Ermənistan ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raketlə hücum etdilər. Onlar bunu iki dəfə etdilər. Lakin birinci dəfə oktyabrın 10-da, atəşkəs elan olunandan dərhal sonra etdilər və bunun nəticəsində 10 mülki şəxs həlak oldu, onlarca adam yaralandı.

Ardı 2-ci səh.

# Koronavirusla mübarizədə də həmrəy olmalıyıq

Artıq 11-ci aydır ki, dünya gözəgörünməz "taclı" düşmənlə, kiçicik bir virusla ölüm-qalım savaşı aparır. Bu savaşın nə vaxt bitəcəyini hələlik heç kəs bilmir. Virusa yoluxanların, həyatını itirənlərin sayı günbəgün artır, rəqəmlər saatbasaat dəyişir. Hazırda koronavirusa yoluxanların ümumi sayı 48 milyonu ötüb. Son sutka ərzində isə dünyada koronavirusdan ölüm hallarına görə antirekord qeydə alınıb. Belə ki, ötən gün planetin 9763 nəfər sakini virusun qurbanı olub. Bununla da virusdan ölənlərin sayı 1 milyon 231 nəfərə çatıb.

### Dünyanın koronavirus mənzərəsi

Son günlər əksər ölkələrdə yoluxma halları kəskin artıb. Bır sıra Avropa ölkələri sərt karantin rejimlərini bərpa edib. İtaliyada koronavirusa yoluxma hallarının yenidən artması ilə əlaqədar noyabrın 4-dən etibarən ölkə ərazisində komendant saatı tətbiq olunur. Qərara əsasən, saat 22:00-dan 05:00-dək yaşayış yerlərini tərk etmək qadağan olunur.

Ukraynada koronavirusla bağlı vəziyyət pisləşdiyindən karantin müddəti dekabrın 31-dək uzadılıb və qaydalar sərtləşdirilib. Bu ölkədə son sutkada koronavirusa yoluxma hallarında yeni antirekord qeydə alınıb - 9850 nəfər yoluxub, 193 nəfər həyatını itirib.

Ardı 11-ci səh.

# Zəfər yürüşü




Azərbaycan xalqı bu gün özünün ən qürurlu tarixini yaşayır. Çünki 30 illik məğlub xalq sindromundan xilas olmuşuq. Düzdür, biz məğlubiyyətlə heç vaxt barışmamışdıq, içimizdə qələbəyə olan inam da ölməmişdi. Bununla belə bir kədər, nisgil, hərdən də pessimist duyğulardan yaxa qurtara bilmirdik.

Xüsusilə münaqişənin uzanması, "sülh" danışıqlarının nəticəsizliyi, Minsk qrupu həmsədrlərinin məsələyə məsuliyyətsiz yanaşması Azərbaycan cəmiyyətində ağrılı qarşılanırdı. Bu üzdən beynəlxalq təşkilatlara, həmçinin Minsk qrupunun həmsədrlərinə qarşı inamsızlıq vardı. Görünürdü ki, bu iş müharibəsiz həll olunmayacaq. Ermənilər də deyirdi ki, qan töküb aldıqları torpaqları danışıqlar yolu ilə qaytaran deyillər. Həmişə dilində yalan dolaşan ermənilərin bu sözündə həqiqət vardı. Çünki özünü qalib sayan tərəfə məğlubiyyətini göstərmədən onu məqsədindən döndərmək mümkün deyil. Bunun üçün də erməni işğalçılarına layiq olduqları dərs verilməli idi.

Ardı 6-cı səh.

# Separatçılar rəsmən Qarabağı tərk etdilər

Qarabağ müharibəsi işğalçı Ermənistanın böyük zərbələr alması ilə müşayiət olunur. Hərb cəbhəsi ilə yanaşı, diplomatik müstəvidə Ermənistanın dalana dirənməsi ölkədəki siyasi gərginliyi pik həddə çatdırıb. Ermənistanda artıq etiraf edirlər ki, Azərbaycan Dağlıq Qarabağ məsələsində öz şərtlərini rahatlıqla diktə etməkdədir.

### Qondarma rejimin paytaxtı artıq Yerevandır

Ermənistan rəhbərliyi problemin dinc müstəvidə həlli məqsədilə onlara verilən şansı lazımınca dəyərləndirmədi. Bu gün isə əzəli Azərbaycan torpaqlarından qaçmağa məcburdurlar. Artıq Dağlıq Qarabağdakı qondarma "respublikanın" administrasiyası Yerevana köçürülüb. Bu barədə separatçıların lideri Arayik Arutyunyanın "Facebook" səhifəsində məlumat paylaşılıb. Bildirilir ki, onlar "fəaliyyətlərini" Ermənistanda "davam etdirəcəklər".

Beləliklə, Azərbaycan işğal olunmuş ərazilərdə ermənilərin yaratdığı qondarma idarəçiliyə son qoyub. Separatçılar rəsmən Qarabağı tərk etməyə məcbur olublar və qondarma rejimin paytaxtı artıq Yerevandır. Qarabağda isə hazırda bir idarəetmə sistemi var və onu da Azərbaycan Ordusu inamla həyata keçirir.

Ardı 10-cu səh.

**Düşmənin 3 "Su-25" tipli hücum təyyarəsi məhv edilib, 315 tankı - 262-si məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 341 ədəd müxtəlif çaplı toplar - 264-ü məhv edilib, 4 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 102 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 43 "Osa", 1 ədəd "Zastava M-55" tipli zenit qurğusu, 3 ədəd PDM, 2 ədəd "Smerç", 6 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 14 ədəd müxtəlif artilleriya qurğusu, 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd "Elbrus"; yeni istismara verilmiş raket-artilleriya silahları anbarı, 1 ədəd "Toçka-U", P-18 radiolokasiya stansiyası məhv edilib; 2 ədəd "KamAz" maşını, qoşqusunda top olan 3 ədəd "Ural" maşını, 1 ədəd UAZ markalı avtomobili, 441 yük avtomobili - 248-i, onlardan 25-i sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Biz güclü ölkəyik və öz torpağımızda döyüşürük”

## Prezident İlham Əliyev İspaniyanın EFE informasiya agentliyinə müsahibə verib

*Əvvəli 1-ci səh.*



Beləliklə, onlar birinci atəşkəsi kobud şəkildə pozdular. İkinci atəşkəs də elan olunan vaxtdan təxminən 5 dəqiqə sonra onlar tərəfindən pozuldu və üçüncü atəşkəsi onlar dinc şəhər olan Bərdəyə hücum etməklə pozdular. Orada 21 nəfər mülki şəxs qətlə yetirildi, 70 nəfər yaralandı. Beləliklə, hər 3 dəfə bu, Ermənistanın bizə qarşı məqsədli şəkildə təcavüzkar hücumu idi və biz cavab verməli və özümüzü müdafiə etməli olduq.

**- Siz dediniz ki, Ermənistan qoşunlarının çıxarılması ilə bağlı konkret təqvim istəyirsiniz. Ermənistan dedi ki, kompromisə hazırdır, ancaq təslim olmağa, həmin əraziləri təslim etməyə yox. Siz də kompromisə hazırsınız? Bu kompromis necə olacaq?**

- İlk növbədə, bizim mövqeyimiz demək olar ki, bu 40 gün ərzində artıq dəfələrlə bəyan edilib. Mən dəfələrlə demişəm ki, bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünü öz doğma torpaqlarına, onların əsrlərboyu yaşadıqları ərazilərə geri qaytarmaq və bundan sonra həmin ərazidə Azərbaycan əhalisi və erməni icması arasında sülh şəraitində birgəyaşayışı təmin etməkdir. Bizim mövqeyimiz sağlam düşüncəyə, humanitar zəminə əsaslanır və beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir. Beləliklə, bu, çox açıq-aşkardır. Ermənistan kompromisdən danışanda konkret heç nə demir. Onlar yalnız öz müqəddəratını təyinetmədən danışırlar, amma öz müqəddəratını təyinetmə onlar tərəfdən kompromis deyil. Onlar öz mövqelərində daha dəqiq olmalıdırlar, çünki hazırda o, çox qeyri-müəyyəndir. Ona görə də biz Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxması üçün vaxt cədvəli tələb etdik və biz bunu toqquşmaların ilk günündən tələb etdik. Beləliklə, əgər Ermənistan bizə qulaq assaydı və məntiqlə davransaydı, bu gün biz hazırda qarşılaşdığımız vəziyyətdə olmazdıq. Müharibə bəlkə də bir ay əvvəl bitərdi. Ona görə də Ermənistan tərəfdən kompromis çox dəqiq olmalıdır.

Hələ də işğal altında olan Ağdam rayonunun bir hissəsini, Kəlbəcər və Laçını boşaltmaq üçün vaxt cədvəli bizə təqdim edilməlidir, Ermənistanın baş naziri bunu şəxsən bəyan etməlidir. Lakin onlar nəinki bizə vaxt cədvəli vermirlər, onlar həmin əraziləri boşaldacaqlarını demirlər. Sentyabrın 27-dən bu yana bütün bu vaxt ərzində Ermənistanın hərbi-siyasi rəhbərliyi ərazilərin boşaldılacağı barədə heç vaxt heç nə deməyib. Belə olan halda onlar 7 rayonun qaytarılmasını təmin etmək üçün bu prinsipləri işləyib hazırlamış Minsk qrupunun həmsədrlərinə faktiki olaraq hörmətsizlik nümayiş etdirirlər və faktiki olaraq daha çox eskalasiyaya gətirib çıxarırlar. Beləliklə, biz Ermənistanın baş nazirinin Kəlbəcər, Laçın və Ağdamın qalan hissəsini boşaldacaqlarını açıq şəkildə deməyini gözləyirik.

**- Əgər belə olmasa, Sizin üçün yalnız hərbi variant mövcuddur?**

- Başqa yol qalmır, bilirsiniz, başqa variant yoxdur. Biz hərbi əməliyyatları davam etdirmək istəmirik və mən dəfələrlə demişəm və bu gün də təkrar edə bilərəm, əgər Ermənistanın baş naziri şəxsən özü, bu qan tökülməsinə görə məsuliyyət daşıyan şəxs belə bir bəyanat versə, biz dərhal dayanmağa hazırıq, dərhal. Mən sözünə əməl edən insanam və biz bunu edərik. Lakin o, bunu demir. O, vaxt qazanmaq istəyir, daha çox hərbi yardım əldə etmək üçün atəşkəs istəyir, Azərbaycana qarşı yeni hücumlar etmək və bizim azad etdiyimiz əraziləri geri almaq üçün bu atəşkəsdən istifadə etmək istəyir. Onun niyyəti bundan ibarətdir.

**- Siz hazırda cənab Paşinyanla bir masa arxasında oturmağa hazırsınız, yoxsa bunun bir mənası yoxdur?**

- Xeyr, bunun qətiyyən heç bir mənası yoxdur. Son iki il ərzində mənim onunla çoxsaylı görüşlərim olub, lakin onların hamısı tamamilə səmərəsiz və mənasız olub, ilk görüşlər istisna olmaqla. O, mənə söz vermişdi ki, əgər Azərbaycan dırnaqarası “inqilab”dan sonra ona vaxt versə, o, yaxşı hazırlaşacaq, Ermənistanda siyasi cəhətdən öz mövqeyini gücləndirəcək və sonra əsas prinsipləri yerinə yetirmək üçün konstruktiv şəkildə işləməyə hazır olacaq. Bu, onun Ermənistanda rəhbərliyinin ilk aylarında mənə söylədikləri idi. Lakin bir ildən sonra o, tamamilə fərqli sözlər dedi. O dedi ki, Azərbaycana qaytarılası bir santimetr belə torpaq yoxdur. Dedi ki, “Qarabağ Ermənistandır”. Dedi ki, Azərbaycan Dağlıq Qarabağdakı qondarma qurumun dırnaqarası “rəhbərliyi” ilə danışıqlar aparmalıdır. Beləliklə, o, danışıqlar prosesini pozmaq üçün hər şeyi etdi. Ona görə də hazırda mən onunla görüşməkdə bir məna görmürəm. Bu yaxınlarda bizim xarici işlər nazirlərimiz Cenevrədə görüşüblər və mən düşünürəm ki, hazırda bu, təmaslar üçün doğru formatdır.

**- Siz dediniz ki, demək olar 30 il ərzində Minsk qrupu işğal edilmiş ərazilərin qaytarılması üçün heç nə etməmişdir və ya bu istiqamətdə heç bir irəliləyişə nail olmamışdır. Hazırda ABŞ, Rusiya və Fransadan gözləntiniz nədir?**

- Bəli, siz haqlısınız. Mən demişəm ki, Minsk qrupu heç bir nəticə əldə etməyib. Lakin mən eyni zamanda demişəm ki, onların fəaliyyətinə tamamilə göz yuma və onları yalnız tənqid edə bilmərəm. Çünki hazırda masada olan əsas prinsiplər Minsk qrupunun köməyi ilə işlənib hazırlanmış prinsiplərdir. Beləliklə, onlar işlədilər, çalışdılar. Lakin onlar əraziləri boşaltması ilə bağlı Ermənistana təzyiq göstərmək üçün əllərində olan bütün alətlərdən istifadə etmədilər. Bu ölkələrdən hər birinin birtərəfli qaydada Ermənistana təsir etmək üçün kifayət qədər vasitələri var, istər hərbi dəstək olsun, istər siyasi dəstək, iqtisadi dəstək, diaspor dəstəyi və s. Lakin onlar əllərində olan bu alətlərdən istifadə etmədilər, onlar BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq özlərinin qəbul etdikləri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasında israr etmədilər. Ona görə də nəticənin olmaması faktı, əlbəttə ki, onların bacarmadığından çox istəmədiyini nümayiş etdirir. Əgər onlar bacarmadılarsa, kim bacarar? BMT Təhlükəsizlik Şurasının 3 daimi üzvü kiçik, yoxsullaşmış, asılı Ermənistana təsir edə bilmir? Onlar sadəcə olaraq istəmədilər. Onlar vəziyyətin sabit olmasını istəyirdilər, bu, doğrudur. Onlar sülh ssenarisini istəyirdilər. Lakin onlar görəndə ki, demək olar 30 ildir sülh ssenarisi yoxdur və Ermənistanın yeni hökuməti bəyanatlar və əməllərlə prosesi faktiki olaraq məhv edir, düşünürəm ki, onlar hərəkətə keçməli idilər. Mən dəfələrlə onların liderləri, yüksək rütbəli rəsmiləri ilə danışaraq çağırış etmişəm ki, Ermənistana təzyiq göstərin, sanksiya tətbiq edin. Əgər sanksiya tətbiq etmək istəmirsinizsə, ən azı bunu dilə gətirin, elan edin ki, sanksiyalar tətbiq olunacaq, əks halda bu təcavüzkara təzyiq göstərmək üçün başqa heç bir mexanizm olmayacaq. Beləliklə, düşünürəm, bu gün onlar dərk ediblər ki, uzun illər “münaqişənin hərbi həlli yoxdur” deməklə səhv ediblər. Biz bu reallığı dəyişdik. Hərbi həll yolu var. Lakin bizim bu gün danışdığımız ondan ibarətdir ki, gəlin hərbi həllin həmin səhifəsini bağlayaq və siyasi həllə keçək. Beləliklə, hərbi-siyasi həll üstünlük təşkil etməlidir. Əgər Ermənistanın baş naziri mənim artıq ondan tələb etdiyimi desə, biz bu gün dayanmağa hazırıq. İndi sülh prosesi artıq qismən yerinə yetirilmiş əsas prinsiplərin qalan hissəsinin icrasına əsaslanmalıdır. Bizə Kəlbəcər, Laçın və Ağdamın bir hissəsinin boşaldılması ilə bağlı dəqiq vaxt cədvəli lazımdır. Bundan sonra düşünürəm ki, regiona sülh gələcək.

**- Mən Sizdən “Amnesty International”ın faktiki olaraq hər iki tərəfin kasetli bombalardan istifadə etməsinə dair bəyanatları ilə bağlı soruşmaq istəyirəm. Siz də, rəsmi İrəvan da qeyd edirsiniz ki, tərəflər mülki əhaliyə qarşı fosfor tərkibli sursatdan istifadə edir. Siz beynəlxalq konvensiyalarla qadağan edilən silahlardan istifadə edirsiniz?**

- Biz qadağan olunmuş silahlardan istifadə etmirik. Bizim ərazi bütövlüyümüzü bərpa etmək üçün kifayət qədər sursatımız var. Bu, birincisi. İkincisi, biz mülki şəxslərə hücum etmirik. Oktyabrın 10-dan sonra Dağlıq Qarabağdakı şəhərlərə hücum etmirik. Ondan əvvəl, bəli, bunu qəbul edirik. Lakin bu, ona görə oldu ki, Ermənistan ordusunun hərbi hissələrinin və infrastrukturunun çoxu Dağlıq Qarabağın dırnaqarası “paytaxtı” olan Xankəndidə cəmləşmişdi. Ona görə də biz bunu etməli idik. Biz təhlükəsizliyimizi təmin etmək və əməliyyatımızın daha səmərəli olması üçün həmin mühüm hərbi obyektləri vurmalı idik. Lakin humanitar atəşkəs elan olunandan sonra, - bunu dəfələrlə elan etmişik, - biz heç vaxt insanların yaşadığı heç bir şəhəri və ya kəndi vurmamışıq. Buna zidd olaraq ermənilər nə etdi. Onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar və bu, sübuta yetirilib. Baxmayaraq ki, Ermənistanın baş naziri bunu onların etmədiyini dedi. Lakin bu, gülüncdür. Çünki ballistik raketin buraxılışı peyklər vasitəsilə müşahidə olunur. Hər kəs onun haradan buraxıldığını və onun hədəfinin nə olduğunu bilir. Gəncədə mülki şəxslərin yaşadığı əraziləri qəsdən iki dəfə vurdular. Onlar Bərdəyə çox dağıdıcı “Smerç” raketləri ilə iki dəfə zərbə endirdilər və yalnız bir hücum nəticəsində 21 insan öldürülmüş və 70 insan yaralanmışdır. Bir çox hücumlar olmuşdur. Onlar Tərtərdə dəfn mərasiminə zərbə vurdular, bu, tamamilə insan davranışının bütün normalarından kənar bir şeydir. İnsanlar dünyasını dəyişmiş şəxsi dəfn edəndə onlar qəbiristanlığı vurdular və dörd nəfər qətlə yetirildi. Onların kasetli bombalardan istifadə etmələri beynəlxalq media və QHT-lər tərəfindən təsdiq olunmuşdur. Əminəm ki, bu barədə ilk dəfə məlumat verən oranı ziyarət etmiş beynəlxalq media olmuşdur. “Amnesty International” və “Human Rights Watch” təşkilatlarının bu halları təsdiq etməkdən savayı başqa bir seçimi yox idi. Lakin sual orasındadır ki, nə üçün onlar birinci növbədə Azərbaycana gəlmədilər? Nə üçün onlar yalnız Ermənistan tərəfindən işləyirdilər? Yalnız beynəlxalq media, Qərb mediası ermənilərin istifadə etdiyi kasetli bombaları göstərdikdən sonra bu iki QHT bunu təsdiq etdi. Onların bunu təsdiq etməsi yaxşı haldır, lakin səmimi desəm, bunun açıq-aşkar olmasını nəzərə alaraq onların bu məsələni necə təsdiq etməməsini də təsəvvürümə gətirə bilmirəm.

**- Rusiya, Sergey Lavrov dünən dedi ki, Dağlıq Qarabağda təqribən iki min muzdlu döyüşür. Bununla bağlı nə deyərdiniz?**

- Mən bu ittihamlara, bu əsassız ittihamlara dəfələrlə cavab vermişəm. Səmimi desəm, təəssüflənirəm ki, bitərəf olmalı, onlara ATƏT tərəfindən verilmiş mandata əsasən hərəkət etməli olan ölkələrin yüksək səviyyəli rəsmiləri təsdiqini tapmamış bu əsassız dırnaqarası “informasiya”dan və şayiələrdən istifadə edirlər. Bu, birincisi. İkincisi, bizdə heç bir muzdlu yoxdur. Mən bu haqda dəfələrlə demişəm. Bizim onlara ehtiyacımız yoxdur. Bizim 100 min döyüşçüdən ibarət ordumuz var, biz tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox toplaya bilərik. Lakin biz Ermənistandan fərqli olaraq bunu etmirik. Bizim tərəfimizdə hər hansı bir əcnəbi döyüşçünün vuruşması ilə bağlı heç bir sübut yoxdur. Bu bir aydan çox müddət ərzində bizə heç bir sübut, heç bir sənəd, heç bir dəlil təqdim edilməmişdir. Yalnız bəyanatlar. Bəs onda nə üçün onlar Ermənistan tərəfində baş verənləri, Ermənistan tərəfindən neçə muzdlunun döyüşdüyünü görmürlər? Nə üçün bizi ittiham etməyə çalışan nə Rusiya, nə də Fransa bunun haqqında heç nə deməyib? Bizdə artıq əcnəbi pasportları olan zərərsizləşdirilmiş insanların siyahısı var. Amerikalı, fransalı, kanadalı, livanlı, iraqlı, postsovet məkanı ölkələrindən, onlarla Gürcüstandandır. Bəli, onlar o ölkələrdə yaşayan ermənilərdir, lakin bu, heç bir fərq etmir. Əgər onlar başqa ölkələrin vətəndaşlarıdırsa, onların orada olması qanunsuz hesab edilir. Bu vaxtadək bu məsələ barədə heç nə deyilməmişdir, amma bizim sübutlarımız var. Bizim əlimizdə pasportlar var. Bizim sübutumuz var, video var. Bunun haqqında heç nə deyilməyib. Bu, bizim tərəfimizdən qəbul edilə bilməyən selektiv bir yanaşmadır, bu, vasitəçilərin mandatına uyğun deyil. Mən dəfələrlə demişəm, vasitəçilər bitərəf olmalıdırlar. Əgər onlar tərəf tuturlarsa, bu, onların işidir, lakin onda vasitəçilikdən çıxmalıdırlar. Hər bir ölkənin istənilən ölkəyə yaxşı və ya pis münasibəti ola bilər. Biz müəyyən səbəblər üzündən bəzi ölkələr tərəfindən ermənilərə qarşı xüsusi hisslərin olduğunu başa düşürük. Bunu öz ölkələrinin adından deyirlərsə, biz buna etiraz etmirik. Lakin əgər siz vasitəçisinizsə, xahiş edirəm, bitərəf olun və ittihamlardan uzaq durun. Əgər biz bizi muzdlularla bağlı ittiham edənləri dünyanın müxtəlif yerlərində nə etdikləri haqqında ittiham etməyə başlasaq, bu, çox uzun bir məsələ olacaq. Biz bunu etmirik. Buna görə biz tərəfdaşlarımızdan eynisini gözləyirik.

**- Türkiyənin Sizə nəinki siyasi, eyni zamanda hərbi dəstək də göstərdiyini söyləyənlərə nə deyərdiniz?**

- Mən deyərdim ki, bu, növbəti təxribat, növbəti feyk xəbərdir. Türkiyədən heç bir hərbi dəstək yoxdur. Biz Türkiyədən yalnız müasir hərbi avadanlıq alırıq. Bu, həqiqətdir. Bu, dünyada istənilən ordunun paxıllıq edə biləcəyi yeni müasir avadanlıqdır. Türkiyənin hərbi sənaye kompleksi, həqiqətən də, möcüzələr göstərir. Bu avadanlıq bizə döyüş meydanında çox kömək edir. Lakin biz onu alırıq, biz müqavilələr imzalayırıq, hər şey şəffafdır, hər şey qanunidir. Biz başqa ölkələrdən də silah alırıq. Nəyə görə heç kim bizim Rusiyadan nə qədər silah aldığımızdan danışmır? Yalnız Türkiyə. Çünki Türkiyə əfsuslar olsun ki, indi müxtəlif avropalı siyasətçilərin hücumuna məruz qalır. Türkiyəni qaralamaq cəhdləri var. Türkiyəni şantaj etmək, ona təzyiq göstərmək cəhdləri var. Bu, tamamilə qəbuledilməzdir. Bizim əsas silahlarımız Rusiyadan gəlir. Biz başqa ölkələrdən də silah alırıq. Yalnız Türkiyənin adı hallanır. Bu, birincisi. İkincisi, Türkiyənin bizə hərbi dəstək göstərdiyini həmişə deməyə davam edənlər nəyə görə vasitəçi, Minsk qrupunun həmsədri olan Rusiyanın Ermənistana hərbi dəstək göstərdiyini demirlər? Bizim əlimizdə sübutlar var, bu 40 gün ərzində Ermənistanın hansı məbləğdə silahla təchiz edildiyi ilə bağlı məlumatı Rusiya rəsmilərinə təqdim etmişik. Niyə heç kim bu barədə danışmır? Gəlin bunun haqqında danışaq, gəlin ədalətli olaq. Buna görə birincisi, bu, səhv məlumatdır. İkincisi, biz Türkiyə hərbi avadanlığını alırıq və almağa davam edəcəyik. Üçüncüsü, bu məsələ ilə bağlı heç bir ikili standart olmamalıdır. Yeri gəlmişkən, Azərbaycana Türkiyə tərəfindən hərbi dəstək göstərildiyini deyənlər, hesab edirəm, bu absurd ittihamlardan çəkinməlidirlər.

**- Açıq-aydındır ki, Türkiyənin regionda marağı var, necə ki, Rusiyanın və İranın var. Ermənistan Rusiyaya öz təhlükəsizliyinin təmin olunmasının mümkünlüyü barədə müraciət etmişdir. Siz müharibənin beynəlmiləlləşdirilməsindən qorxursunuz?**

- Ermənistan lap əvvəldən elə bunu etmək istəyirdi və biz həmişə buna qarşı idik. Mən dəfələrlə bütün ölkələrə demişəm, bu münaqişədən uzaq durun. Bu, bizim məsələmizdir, bu, ərazi bütövlüyü uğrunda bizim döyüşümüzdür. Münaqişəni beynəlmiləlləşdirmək üçün heç bir cəhd olmamalıdır. Lakin Ermənistan bunun üçün hər şeyi etdi. Ermənistanın baş nazirinin Rusiya Prezidentinə göndərdiyi məktub təkcə onların öz məğlubiyyətini artıq qəbul etdiyini, bizim döyüş meydanında onlara qalib gəldiyimizi göstərmir, eyni zamanda onu göstərir ki, onlar münaqişəni beynəlmiləlləşdirmək istəyirlər, onlar Rusiyanı birbaşa müharibədə iştiraka sürükləmək istəyirlər, bu da tamamilə qəbuledilməzdir. Mənim bildiyimə görə, bu, Rusiya tərəfindən rədd edilmişdir və Rusiyanın xarici işlər naziri bununla bağlı bəyanat vermişdir. Ola bilsin, bunu lap dəqiqliklə ifadə etmirəm, lakin belə bir mesaj var idi ki, döyüş Azərbaycanın ərazisində aparılır. Əgər Azərbaycan, əgər istənilən ölkə Ermənistana hücum etsə, onda Rusiya öhdəliyini yerinə yetirməlidir. Lakin döyüş bizim torpağımızda gedir. Hesab edirəm ki, bu cəhdlər tamamilə faydasızdır. Rusiyanın mövqeyi xarici işlər naziri tərəfindən ifadə olunmuşdur. İranın da mövqeyi ifadə edilmişdir. Yəqin siz ölkələrin ərazi bütövlüyünün təminatına dair İranın münaqişənin həll edilməsi ilə bağlı planını eşitmisiniz. Bu yaxınlarda İranın Ali Rəhbəri Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərini boşaltmalı olduğu ilə bağlı bəyanat vermişdir. Bu, iki qonşu ölkənin reaksiyasıdır. Türkiyənin mövqeyi yaxşı bəllidir. Türkiyə həmişə beynəlxalq hüququ və BMT Təhlükəsizlik Şurasının qətnamələrini dəstəkləyir. Həmçinin Gürcüstan da dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Bu, bizim qonşuların mövqeyidir. Ermənistan təcrid olunub. Onlar münaqişəni beynəlmiləlləşdirmək istəyirlər, onlar dəstək qazanmaq üçün bəzi feyk xəbərlərdən və tarixdən olan bəzi feyk məlumatlardan istifadə etmək istəyirlər. Lakin Ermənistan üçün ən yaxşı hərəkət öz məğlubiyyətini, bizim qələbəmizi qəbul etmək və yerdə qalan torpaqları boşaldacaqlarına dair üzərinə öhdəlik götürməkdən ibarətdir.

**- Əgər onlar Dağlıq Qarabağın müstəqilliyini tanıyarlarsa, Sizin buna reaksiyanız necə olardı?**

- Bilirsiniz, onlar müstəqilliyi tanımaq istəsəydilər, uzun müddət bundan öncə tanıyardılar. Nəyə görə əvvəl tanımadılar? Çünki onlar aydın başa düşürdülər ki, bu, çox məntiqsiz addım nəticəsində danışıqlar tamamilə dayanacaqdır. Odur ki, onlar bunu etsələr, danışılası bir şey qalmayacaq. Sonra nə sülh təşəbbüsü, nə əsas prinsiplər, nə də gələcək tənzimləmə, heç nə masa üzərində olmayacaq. Hesab edirəm ki, onlar bunu başa düşürlər. Onlar həmişə bundan bizi qorxutmaq üçün bir alət kimi istifadə etmək istəyirdilər və deyirdilər Azərbaycan bunu etsə, biz müstəqilliyi tanıyacağıq. Mən bu müharibə günlərində dəfələrlə demişəm və indi də deyirəm, Ermənistanın baş naziri, bu gün Dağlıq Qarabağı tanı, bunu et, cəsarətini göstər, sözünün bir məna daşıdığını göstər, bu gün Dağlıq Qarabağı tanı. Yenə də siz görəcəksiniz ki, onlar bunu etməyəcəklər. Çünki onlar qorxaqdırlar, onlar yalnız dinc vətəndaşlara qarşı vuruşa bilirlər və onlar gücümüzü, birliyimizi görüb qaçırlar.

**- Siz indi regionun muxtariyyətini qəbul etməyə hazırsınız?**

- Bu, əsas prinsiplər üzərində gələcək danışıqların bir hissəsi olmalıdır. Çünki əsas prinsiplərin birinci hissəsində işğal olunmuş ərazilərdən - 5 üstəgəl 2 rayondan vaxt cədvəlinə müvafiq olaraq qoşunların çıxarılması tələb olunurdu. Sonra təhlükəsizlik, sülhməramlı əməliyyatlar, Dağlıq Qarabağın statusu kimi əsas prinsiplərin başqa elementləri də var idi. Biz həmişə bunu müzakirə etməyə çox açıq idik. Biz dəfələrlə onlara müxtəlif yolları təklif etmişdik, lakin onlar bunları rədd etmişlər. Biz onlara Azərbaycan daxilində muxtariyyət təklif etdik, biz onlara mədəni muxtariyyət təklif etdik. Biz dedik ki, dünyada, Avropada, Skandinaviya, Alan Adaları timsalında, İtaliyada Cənubi Tirol timsalında və bir çox başqa yerlərdə yaxşı nümunələr var. Lakin onlar hər şeyi rədd etdilər. Onlar yalnız müstəqillik tələb edirdilər və istəyirdilər ki, biz bu müstəqilliyi tanıyaq. Bunu etməklə onlar, əslində, bizim bunu heç vaxt etməyəcəyimizi bilərək münaqişəni dondurmaq üçün hər şeyi edirdilər. Mən bilirəm, biz birincisi münaqişənin bu qaynar fazasını bitirməliyik, danışıqlar masasına qayıtmalıyıq, Ermənistan mənim artıq dediyim öhdəlikləri üzərinə götürməlidir və sonra biz gələcəkdə nə baş verəcək onun haqqında danışa bilərik. Bu məsələ ilə bağlı indi heç nə deyə bilmərəm.

**- Çox sağ olun, cənab Prezident. Mən bizə vaxt ayırdığınız üçün Sizə minnətdarlığımı bildirirəm.**

- Suallarınıza, Azərbaycana marağınıza görə çox sağ olun.

# Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 838; 2014, № 7, maddələr 766, 787, № 10, maddə 1165; 2015, № 5, maddə 503; 2016, № 11, maddə 1773, № 12, maddə 2010; 2017, № 5, maddə 755, № 6, maddələr 1019, 1043; 2018, № 3, maddə 373, № 5, maddələr 837, 850, № 12 (I kitab), maddə 2535; 2019, № 1, maddə 23, № 3, maddələr 375, 391, № 6, maddə 987; 2020, № 5, maddə 522, № 7, maddələr 832, 843) aşağıdakı dəyişikliklər edilsin:

1. 58.2-ci maddənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Mühəndis-axtarış işlərinin nəticələrinə dair texniki hesabat həmin axtarış işlərini aparan şəxs tərəfindən işlərin başa çatdığı vaxtdan 10 gün müddətində sifarişçiyə və müvafiq icra hakimiyyəti orqanına təqdim edilir.".

2. 75.4-cü maddəyə aşağıdakı məzmunda dördüncü-yeddinci cümlələr əlavə edilsin:

"Bütün natamamlıqlar ərizəçiyə eyni zamanda bildirilməlidir. Ərizəçi sənədlərin tamlığını məlumatı aldığı tarixdən ən geci 10 gün müddətində təmin etməlidir. Bu zaman tikintiyə icazə icraatı üçün nəzərdə tutulmuş müddətin axımı dayandırılır. Sənədlərin tamlığının təmin edilməsi barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

---

# "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 176-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 176-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 58.2-ci maddəsinə uyğun olaraq ona təqdim edilmiş mühəndis-axtarış işlərinin nəticələrinə dair texniki hesabatı təqdim edildiyi gündən, həmin texniki hesabata rəy verilməsi tələb olunan hallarda isə rəyin verildiyi gündən üç iş günü müddətində şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin tərkib hissəsi olan Dövlət məlumat fondunda saxlanılması məqsədilə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 58.2-ci maddəsi və bu Fərmanın 1-ci hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 14 may tarixli 146 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mühəndis-axtarış işlərinin yerinə yetirilməsi Qaydaları"nda müvafiq dəyişikliklər etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 176-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 847; 2014, № 10, maddə 1196; 2015, № 3, maddə 270, № 5, maddə 531, № 9, maddə 1006; 2016, № 6, maddə 1059, № 11, maddə 1824; 2017, № 1, maddə 40, № 5, maddə 825, № 11, maddə 2012; 2018, № 3, maddə 417, № 5, maddə 910, № 8, maddə 1676, № 11, maddə 2289, № 12 (I kitab), maddə 2616; 2019, № 3, maddə 434, № 5, maddə 826, № 10, maddə 1581; 2020, № 5, maddə 559, № 6, maddə 684, № 7, maddə 891) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.6-cı bənddən "58.2-ci maddəsinin ikinci cümləsində," sözləri çıxarılsın;

3.2. 4.10-cu bəndə "54.5-ci maddəsində," sözlərindən sonra "58.2-ci maddəsinin ikinci cümləsində," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 noyabr 2020-ci il*

---

# "Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli 1120 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan İnvestisiya Holdinqinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli 1120 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 8, maddə 1023) aşağıdakı dəyişikliklər edilsin:

1. 3.2-ci bəndə "idarəetməsinə" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin.

2. Həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan İnvestisiya Holdinqinin Nizamnaməsi"nin 4.7.18-ci yarımbəndinə birinci halda "Azərbaycan Respublikasının" sözlərindən əvvəl "Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2020-ci il*

---

# Azərbaycan İnvestisiya Holdinqinin fəaliyyətinin təmin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 7 avqust tarixli 1120 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən siyahıda göstərilmiş dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin (bundan sonra - dövlət müəssisələri) idarə olunması ilə bağlı Azərbaycan İnvestisiya Holdinqinin (bundan sonra - AİH) Nizamnaməsində nəzərdə tutulmuş səlahiyyətlər, Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, həmin dövlət müəssisələri idarəetməyə verildiyi gündən AİH-ə keçir.

2.2. AİH-in fəaliyyətinin təşkili və təmin edilməsi xərcləri aşağıdakı mənbələrdən maliyyələşdirilir:

2.2.1. ilk 3 il ərzində (AİH-in nizamnamə fonduna ayrılmış vəsait nəzərə alınmaqla) dövlət büdcəsinin vəsaiti hesabına;

2.2.2. idarəetməsinə verilmiş dövlət müəssisələrinin illik xalis mənfəətinin 20 faizinin AİH-ə ödənilməsi hesabına;

2.2.3. qanunla qadağan olunmayan digər mənbələrdən.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. bu Fərmanın 2.2.1-ci yarımbəndinə uyğun olaraq maliyyələşməni təmin etsin;

4.2. AİH-in fəaliyyətinin təşkili və təmin edilməsi üçün tələb olunan vəsaiti bu Fərmanın 2.2.1-ci yarımbəndinə uyğun olaraq növbəti illərin dövlət büdcəsi layihələrində nəzərdə tutsun;

4.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən siyahıda göstərilmiş dövlət müəssisələri idarəetməyə verilənədək mütərəqqi korporativ idarəetmə prinsiplərinin tətbiqi və idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflərini iki ay müddətində AİH-ə təqdim etsinlər.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 noyabr 2020-ci il*

---

*Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə veriləcək dövlət şirkətlərinin və müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin siyahısı

1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti
2. "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti
3. "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti
4. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
5. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti
6. "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti
7. "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti
8. "Azərsu" Açıq Səhmdar Cəmiyyəti
9. "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti
10. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti
11. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti
12. "Azərbaycan Beynəlxalq Bankı" Açıq Səhmdar Cəmiyyəti
13. "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyəti
14. "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyəti
15. "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti
16. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki aşağıdakı qurumlar:
    - 16.1. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti
    - 16.2. "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti
    - 16.3. "Azerbaijan International Telecom" (AzInTelecom)" Məhdud Məsuliyyətli Cəmiyyəti
    - 16.4. "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti
    - 16.5. "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
17. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti.

---

**Prezidentə yazırlar**

# "Cənab Prezident, məğrur duruşunuz, qətiyyətli mövqeyiniz, düşmənə tutarlı cavablarınız bizi çox qürurlandırır"

Azərbaycan vətəndaşlarından, xaricdə yaşayan soydaşlarımızdan, eləcə də qardaş Türkiyənin vətəndaşlarından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bəzilərini təqdim edir.



Türkiyənin Alanya şəhərindən **Adəm Şimşək** yazır: "Çox dəyərli cənab Prezident, mediadan gün ərzində baş verən hadisələri izləyirik. Sizin, çox dəyərli Azərbaycan xalqının, qardaşlarımızın hər zaman yanındayıq. Hər kəs bilir ki, Qarabağ Azərbaycandır. Sizin də dediyiniz kimi, Azərbaycanın mülki erməni xalqı ilə heç bir işi yoxdur. Cəza evində olsam da, könüllərimiz birdir və əmr gözləyirəm. Sizi və hörmətli Prezidentimiz Rəcəb Tayyib Ərdoğanı dəstəkləyirəm. İzniniz və əmriniz olarsa, cəbhənin ən ön xəttində və ehtiyac duyulan istənilən yerdə vuruşmağa hazıram. Bu torpaqlarda mənim kimi daha neçə-neçə insan var. Biz bir millət, iki dövlətik, qardaş xalqlarıq. Türkiyə xalqı mənəvi olaraq hər zaman Azərbaycan xalqının yanındadır. Allah şəhidlərimizə rəhmət eləsin, vuruşan əsgərlərimizə kömək olsun. Cənab Prezident, zəfər yürüşünüz mübarək olsun! Allah Sizin və qardaş Azərbaycan xalqının dayağında dursun, zəfərlər Sizin və bizim olsun. Allaha əmanət olasınız, cənab Prezident".

Adana şəhərindən **Tarık Karataş** yazır: "Hörmətli cənab Prezident, Türkiyə Respublikasının 12 il Azərbaycanda yaşamış vətəndaşı kimi hər zaman Sizin həyata keçirdiyiniz uğurlu siyasətin müsbət nəticələrini hər keçən gün yaşayır, görür və qürur duyuruq. Sizdən alacağımız Qələbə xəbərlərini səbirsizliklə gözləyirik. Allah Sizi, Azərbaycan Ordusunun şanlı və şərəfli əsgərlərini, vətənpərvər xalqınızı qorusun. Dualarımız Sizinlədir".

Niderlandın Leuvarden şəhərində yaşayan soydaşımız **Elxan Mirhəşimli:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Sizin rəhbərliyinizlə Azərbaycanın şanlı ordusunun 27 il sonra mənə yaşatdığı sevincin həddi-hüdudu yoxdur. Doğulduğum Qubadlının işğaldan azad olunmasını eşitdikdə sevinc göz yaşlarımı saxlaya bilmədim. Bir anlıq uşaqlıq və gənclik illərim gözlərimin önünə gəldi, bir zamanlar Qubadlıda keçirdiyim xoş günlərimi, dostlarımı, qohumlarımı xatırladım. Qubadlıda ata-baba evimi görmək və ulu babalarımızın məzarını ziyarət etmək artıq xəyal deyil, real oldu. Öz doğma ata-baba evimizə dönməyi həyəcanla gözləyirəm. Mənim övladlarım Qubadlını görməyib. Onlar da ata-baba torpaqlarını görmək ümidi ilə böyüyüblər. Artıq qayıdış günü gəldi, biz evə qayıdırıq. 20 ildir Niderlandda yaşayıram, tezliklə evimə dönmək istəyirəm. Mən Niderlandda Azərbaycan Evi diaspor təşkilatı yaradaraq fəaliyyətimi informasiya müharibəsində hər zaman dövlətimizin mənafeyinin qorunması üzərində quraraq, Qarabağ həqiqətlərini yerli ictimaiyyətə və yerli siyasi partiyalara çatdırır, maarifləndirmə aparıram. Bundan sonra işimi daha da fəal davam etdirəcəyəm. İnanıram ki, Azərbaycanın bütün işğal olunmuş torpaqları azad olunacaq, Azərbaycanın şanlı bayrağı bütün şəhərlərdə, kəndlərdə dalğalanacaq. Azərbaycan Ordusunun əldə etdiyi uğurlar mənə bir daha cəsarət verir ki, dövlətimizin mənafeyini, haqlarını daha əzmlə qorumaqda davam edim. Təşkilatımız adından və Niderlandda yaşayan Azərbaycan icması adından Sizə təşəkkür edirəm. Var olun! Zəfər bizimdir! Qarabağ Azərbaycandır!"

Bakı şəhərindən **Aliyə Təhmasibin** məktubunda deyilir: "Möhtərəm cənab Prezident, Azərbaycan xalqının hər bir nümayəndəsi kimi cəbhədə baş verənləri ürək döyüntüsü və həyəcanla izləyirəm. Yeni qələbə xəbəri doğma səsinizlə bütün ölkəyə yayılarkən hər birimizin ürəyi Sizin qəlbinizlə həmahəng döyünür. Hər birimiz ürəkdən əminik ki, Sizin rəhbərliyiniz və şanlı ordumuzun şücaəti ilə düşmən geri çəkiləcək, müharibə bitəcək. Qələbə bizim olacaq".

Naftalan şəhərindən **İbrahim Tağıyev:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, mən bir təqaüdçü olaraq Sizə dərin təşəkkürümü, ərazi bütövlüyümüzün bərpa edilməsi üçün göstərdiyiniz qətiyyətə və mərdliyə görə dərin minnətdarlığımı bildirirəm. Allah Sizi və müzəffər ordumuzu qorusun. Bütün Azərbaycan, o cümlədən bütün qardaş türk dövlətləri Sizdən şad xəbər gözləyir. İnşallah, ordumuz Azərbaycanın işğal altında olan bütün torpaqlarını geri qaytaracaq. Allah mənfur düşmənlərimizi məhv etsin! Allah Azərbaycan xalqını qorusun! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!"

Lerikdən **Zabil Bağırov:** "Müzəffər Ali Baş Komandan, biz Azərbaycan vətəndaşları olaraq Sizin siyasi və hərbi gedişlərinizi müntəzəm olaraq izləyirik. Həqiqətən də Siz Azərbaycan tarixinin dövlətçilik səhifəsində böyük bir tarix yaradırsınız, düşmənlərə və onların havadarlarına tarixi dərs verirsiniz. Bəli, Siz neft kapitalını artıq insan kapitalına çevirmisiniz. Bu gün cəbhədəki böyük uğurlarımız məhz Sizin yüksək intellektə əsaslanan əməyinizin nəticəsidir. Xalq Sizinlədir, cənab Prezident. Dediyiniz kimi, Qarabağ Azərbaycandır!"

Cəbrayıl sakini **Yunis Yusifli:** "Hörmətli cənab Prezident, mən Sizə böyük təşəkkürümü bildirirəm. Siz mənim üçün yalnız xəyalımda canlandırdığım günləri yaşatdırdınız. Məni doğma Vətənimə, Cəbrayıla qovuşdurdunuz. Allah Sizə güc, qüvvət versin. Rəbbim hədəflərinizi daim kəskin, zəfərlərinizi daim bol etsin. İnşallah, Cəbrayılda görüşmək arzusu ilə..."

Cəlilabaddan **Vidadi Nuriyev:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" şüarı Sizin düşünülmüş, uzaqgörən siyasətinizin, vətənə olan sevginizin bariz göstəricisidir. Bu şüar böyükdən kiçiyədək hamının dilində əzbərə çevrilərək xalqımızın ayağa qalxıb bir yumruq kimi Sizin ətrafınızda birləşməsinə təkan verdi və bundan sonra da əsas şüarımız olacaqdır. Sizin məqsədyönlü siyasətiniz nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində apardığınız uğurlu mübarizədə biz də ailəlikcə Sizi dəstəkləyir və dəstəkləməkdə davam edəcəyik. Uca Tanrı Sizin və Mehriban xanımın ömrünə bir ömür də qatsın, 100 yaşayasınız! Azərbaycan xalqını həmişə zirvələrə aparasınız!"

Laçın rayonunun sakini **Tofiq Şükürov:** "Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, mənfur qonşularımız tərəfindən 30 ildən artıq vətənimizin sinəsinə vurulmuş Qarabağ adlı yara hər bir azərbaycanlının köksünü sızladırdı. Tarixən xalqımızın yetişdirdiyi böyük sərkərdələr vətənimizi bu cür ağır günlərində öz gücü ilə yaşatmışdılar. Belə sərkərdələrdən biri və birincisi də Sizsiniz. Ona görə ki, XIX əsrin əvvəllərindən XX əsrin sonlarınadək itirdiyimiz torpaqları yalnız Sizin sərkərdəlik qabiliyyətiniz sayəsində geri qaytarılmasının şahidi oluruq. Bu gün hər birimiz Sizinlə eyni bir dövrdə yaşadığımız üçün fəxr edir və qürur hissi keçiririk. Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, bu müqəddəs yolda uğurlar diləyirəm".

Füzuli sakini **Elgün Eyvazov:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, 27 ildən sonra bizə yaşatdığınız sevinc hissinə görə Sizə minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı Sizi sevir və yürütdüyünüz siyasətin daim arxasındadır. Allah Sizi Azərbaycan xalqına çox görməsin. Biz əminik ki, Qarabağın azad ediləcəyi gün elə də uzaq deyil. Allah Sizi və Ordumuzu qorusun! Qarabağ Azərbaycandır! Yaşasın Ali Baş Komandan!

Gəncə şəhərindən **Səbuhi Hüseynov:** "Müzəffər Ali Baş Komandan, ölkəmizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizədə Sizə güvənir, bütün torpaqlarımızın tezliklə azad olunacağı günü səbirsizliklə gözləyirik. Gözəl Qarabağımızın azadlığı üçün çox ciddi bir əməyin olduğu göz önündədir. Xalq olaraq bu günlərdəki məğrur duruşunuz, qətiyyətli mövqeyiniz, düşmənə tutarlı cavablarınız bizi çox sevindirir və qürurlandırır. Mən əminəm ki, bu haqq mübarizəsində xalqımızın hər bir layiqli vətəndaşı Sizi dəstəkləyir və böyük qələbə xəbərini tezliklə eşitməyi arzulayır. Sizdən Şuşa, Laçın, Xankəndi, Kəlbəcər və digər bölgələrimizin azad olunması xəbərlərini tez bir zamanda eşitmək arzusu ilə...".

Ağsu rayonundan **Xalid Osmanov:** "Müzəffər Ali Baş Komandan, Sizin qətiyyətli addımlarınızı tək mən yox, bütün Ağsu rayonu dəstəkləyir. Siz bu qətiyyətinizlə bütün dünyadakı Azərbaycan türklərinin ürəklərində geniş bir nüfuza sahib oldunuz. Nə yaxşı ki, varsınız. Allah Sizi qorusun! Biz, ailədə on bir övlad olmuşuq. Hamımızın oğulları hazırda ön cəbhədə Sizin əmrinizlə döyüşür, bununla fəxr edirlər. Mən özüm 1-ci qrup əlil olsam da, döyüşlərə qatılmaq üçün alışıb-yanıram. Sevincimdən xəstəliyim də yadımdan çıxıb. 1999-cu ildə xüsusi təyinatlı qrupda xidmət keçmişəm, əlim-ayağım yerindədir. Könüllü ordu sıralarına yazılmaq, düşmənlə üz-üzə döyüşmək arzusundayam. İstərdim ki, bayrağımızın o torpaqlarda ucalmasında yaxından iştirak edim. Dəfələrlə müraciət etməyimə baxmayaraq, ehtiyac olmadığını bildirirlər. Cənab Prezident, arzum budur ki, Xankəndi şəhərində tezliklə üçrəngli bayrağımız dalğalansın və bu şəhər İlhamabad adlandırılsın. Məncə, buna bütün Azərbaycan xalqı sevinər. Müzəffər Ali Baş Komandan, bu haqq yolunda Sizə uğurlar arzulayıram. Allah Ulu Öndərimiz Heydər Əliyevə rəhmət eləsin, onun layiqli davamçısı Sizə isə cansağlığı versin. Şəhidlərimizə rəhmət, yaralılarımıza Allahdan şəfa diləyirəm. Allah müzəffər ordumuza qüvvət versin, Siz isə bizim əbədi Prezidentimiz olasınız. Yaşasın Azərbaycan xalqını sevən igid, qəhrəman İlham Əliyev! Qarabağ Azərbaycandır!"

Tovuz rayonundan **Zaur Tağıyev:** "Müzəffər Ali Baş Komandan, Sizin uzaqgörən və müdrik siyasətiniz nəticəsində 30 illik həsrətimizə son qoyulur. Siz həmişə işğal altındakı ərazilərimizin müharibə yolu ilə yox, sülh yolu ilə qaytarılmasına çalışırdınız. Lakin qaniçən düşmənlər sülhə razı olmadılar. Biz isə daha 30 il gözləyə bilməzdik. Biz haqq yolundayıq, işimiz haqq işidir. İnanıram ki, tezliklə zəfər çalacaq, üçrəngli bayrağımızı bütün Vətən torpaqlarında dalğalandıracağıq. Allah bu çətin və şərəfli işinizdə Sizə kömək olsun. Biz həmişə Sizinləyik. Tezliklə doğma Qarabağımızda, Ağdamda görüşmək arzusu ilə... Qarabağ Azərbaycandır!"

Naxçıvandan **Elnur Novruzov:** "Hörmətli cənab Prezident, Azərbaycan xalqının Sizə olan minnətdarlığı sonsuzdur. Siz güləndə bütün Azərbaycan Sizinlə birgə gülür. Bütün xalqımızın qəlbi hər an Sizinlə bir döyünür. Budur əsl sevgi, budur əsl milli birlik! Cənab Prezident, torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına apardığınız siyasətə görə Sizə necə minnətdarlıq edəcəyimi bilmirəm. Əziz və səmimi Prezidentim, Sizin hər çıxışınıza coşqu ilə baxır, hər bir kəlmənizi sevinc göz yaşları ilə izləyirəm. Uca tanrı Sizi Azərbaycan xalqına və türk dünyasına çox görməsin!"

# Latviya Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verir



Noyabrın 5-də Milli Məclisin Sədri Sahibə Qafarova Latviyanın ölkəmizdəki səfiri Daynis Qarançs ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, parlamentin sədri Azərbaycan dövlətinin dost və tərəfdaş Latviya ilə həyatın müxtəlif sahələrində əlaqələrin inkişafına böyük önəm verdiyini deyib. Qeyd edilib ki, ölkələrimiz dövlət müstəqilliklərini bərpa etdikdən sonra ikitərəfli münasibətlərimizin tarixində yeni dövr başlayıb, siyasi, iqtisadi və humanitar sahələrdə əməkdaşlığımız uğurlu inkişafı yoluna qədəm qoyub.

Əlaqələrimizin inkişafında dövlət başçılarının rolundan danışan spiker ölkə liderlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini xüsusi qeyd edib. Bildirilib ki, münasibətlərimiz qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərinə söykənir. İkitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələr ölkələrimizin maraqlarına cavab verir. Azərbaycan ilə Latviya arasında Avropa strukturları, Şərq Tərəfdaşlığı və digər beynəlxalq platformalarda da sıx əməkdaşlıq mövcuddur.

Görüşdə dövlətlərarası münasibətlər sistemində parlamentlərin rolundan danışan Sahibə Qafarova hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsinin əhəmiyyətini vurğulayıb, deputatların qarşılıqlı səfərlərinin pandemiyadan sonra da davam etdirilməsinin təcrübə və informasiya mübadiləsi baxımından vacibliyini bildirib.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunan Milli Məclisin Sədri cəbhə bölgəsindəki vəziyyətdən danışıb, erməni tərəfinin təxribatları barədə geniş məlumat verib.

Görüşdə COVID-19 pandemiyasına qarşı mübarizədə Azərbaycanda və Latviyada həyata keçirilən tədbirlərlə bağlı da fikir mübadiləsi aparılıb, bu sahədə beynəlxalq əməkdaşlığın rolu qeyd olunub.

Səmimi qəbula görə minnətdarlığını ifadə edən səfir Dainis Qarançs ölkəsinin Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. Diplomat ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib, dövlətlərarası münasibətlərdə parlament diplomatiyasının rolunu yüksək qiymətləndirib.

Səfir qeyd edib ki, Cənubi Qafqazda baş verən proseslər onların da diqqət mərkəzindədir. O, regional münaqişələrin həllində beynəlxalq hüququn norma və prinsiplərinə əməl olunması barədə dövlətinin mövqeyini bir daha səsləndirib.

Həmçinin parlamentlərarası əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri, ikitərəfli və beynəlxalq platformalarda əməkdaşlığın müxtəlif aspektləri, tərəfləri maraqlandıran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Qazaxıstan Dağlıq Qarabağ münaqişəsinin həllində dost və qardaş Azərbaycanın mövqeyini müdafiə edir



Noyabrın 5-də Milli Məclis Sədrinin müavini Adil Əliyev Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkərimovla görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Qazaxıstan arasında münasibətlərin tarixindən danışan Adil Əliyev bu əlaqələrin hazırda da yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. Vitse-spiker ölkələrimiz arasında münasibətlərin inkişafında Ümummilli Lider Heydər Əliyevin və Qazaxıstanın ilk Prezidenti-Elbası Nursultan Nazarbayevin rolunu xüsusi vurğulayıb. O, dostluq və əməkdaşlıq ənənələrinin hazırda hər iki ölkənin rəhbərliyi tərəfindən uğurla davam etdirildiyini deyib.

Ali qanunvericilik orqanları arasında xoş münasibətlərin qurulmasında parlamentlərarası dostluq qruplarının fəaliyyətinin önəmli yer tutduğunu diqqətə çatdıran Adil Əliyev Milli Məclisin Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri olaraq görülən işlərdən danışıb, qarşılıqlı fəaliyyətin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb. Vitse-spiker ikitərəfli müstəvidə uğurla inkişaf etməkdə olan dostluq münasibətlərimizlə yanaşı, nüfuzlu parlament təşkilatları çərçivəsində uğurlu əməkdaşlığımızdan söhbət açıb.

Milli Məclis Sədrinin müavini Ermənistanın ölkəmizə qarşı törətdiyi təxribatlar barədə də səfirə geniş məlumat verib. Bildirilib ki, döyüş meydanında müzəffər ordumuzla bacara bilməyən erməni silahlı qüvvələri Azərbaycanın mülki əhalisini hədəfə alıb, sentyabrın 27-dən bugünədək 91 nəfər mülki vətəndaşımız həlak olub, 400-dən çox vətəndaşımız xəsarət alıb.

Adil Əliyev həmçinin dağıdılan infrastruktur, yandırılan mülki obyektlər və fərdi yaşayış evləri, ölkəmizin flora və faunasına dəyən külli miqdarda ziyan barədə danışıb. Sədr müavini diqqəti xüsusilə ölən və yaralananların içərisində çox sayda uşaq, qoca və qadının olmasına, raket zərbələrinin cəbhə xəttindən kilometrlərlə kənarda yerləşən yaşayış məntəqələrinə endirilməsinə çəkib. Diqqətə çatdırılıb ki, hücumlar zamanı Ermənistan qadağan olunmuş silahlardan istifadə edir və bununla Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozub.

Səmimi görüşə görə minnətdarlığını bildirən səfir Serjan Abdıkərimov iki qardaş ölkə arasında uzun illərdir davam edən dostluq münasibətlərinin hər keçən gün daha da dərinləşdiyini bildirib. Bu dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafında parlamentlərarası əməkdaşlığın önəmli yeri olduğunu deyib. Qonaq Qazaxıstanın Dağlıq Qarabağ münaqişəsinin həllində dost və qardaş Azərbaycanın mövqeyini müdafiə etdiyini, ölkəmizin ərazi bütövlüyünü tam dəstəklədiyini bəyan edib. Səfir bu yaxınlarda Bərdə şəhərinə səfəri zamanı Ermənistanın mülki əhaliyə qarşı törətdiyi vəhşiliyi öz gözləri ilə gördüyünü, bundan təsirləndiyini, dinc əhaliyə qarşı bu münasibətin qəbuledilməz olduğunu vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Müdafiə Nazirliyi xəbər verir

## *Anar EYVAZOV:* “Azərbaycan Ordusu yaşayış məntəqələrini atəşə tutmur, yalnız legitim hərbi hədəfləri məhv edir”

Ötən sutka ərzində Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində və cəbhənin müxtəlif istiqamətlərində yerləşən mövqelərimizi, həmçinin Goranboy, Tərtər, Ağdam və Ağcabədi daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub. Düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülüb.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 5-də Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Mətbuat katibi qeyd edib ki, əsasən Ağdərə və Xocavənd istiqamətlərində davam edən döyüşlərdə düşmənin hücumlarının, Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu hissəsində isə diversiya cəhdlərinin qarşısı qətiyyətlə alınıb. Tərtər istiqamətində endirilən artilleriya zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu darmadağın edilib.

Anar Eyvazov deyib ki, Ali Baş Komandanın rəhbərliyi ilə aparılan əks-hücum əməliyyatı nəticəsində məğlubiyyətə məhkum edilmiş Ermənistan çıxış yolunu yenə də yanlış olaraq dezinformasiya və feyk məlumatlar yaymaqda görür. Ermənistandan fərqli olaraq, biz Azərbaycan xalqına və dünya ictimaiyyətinə ordumuzun uğurları barədə döyüş meydanında müasir avadanlıqlarla çəkilmiş foto və videogörüntülər əsasında məlumat çatdırırıq. Bu video təsvirlərdə aydın şəkildə görünür ki, Azərbaycan Ordusu yaşayış məntəqələri və




mülki infrastrukturu atəşə tutmur, dəqiq zərbələrlə yalnız legitim hərbi hədəfləri məhv edir.

“Hazırda qoşunlarımız əməliyyat şəraitinə tam nəzarət edir. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

* * *

Azərbaycan Ordusunun bölmələri tərəfindən cəbhənin Ağdərə istiqamətində həyata keçirilən xüsusi əməliyyat nəticəsində Ermənistanın silahlı qüvvələrinə məxsus hərbi kolon pusquya salınaraq məhv edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ağdərə-Papravənd marşrutu ilə hərəkət edən 1 komandir, 1 rabitə avtomobili, şəxsi heyət və sursatla dolu 2 ədəd “KamAz” maşını və qoşqusunda top olan 3 ədəd “Ural” maşını tamamilə məhv edilib.

* * *

Cəbhənin Tərtər istiqamətində Azərbaycan Ordusunun bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin hərbi infrastrukturuna ciddi ziyan vurulub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənə endirilən artilleriya zərbələri ilə Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tonaşen kəndində yerləşən 7-ci dağatıcı alayının qərargahı, əsgər kazarmaları, sursatla dolu avtomobil texnikaları və digər hərbi infrastrukturu dağıdılıb.

* * *

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin döyüş meydanında atıb qaçdığı və qənimət olaraq bölmələrimizin ələ keçirdiyi hərbi texnikaların görüntülərini yayıb.

* * *

Cəbhənin Ağdam istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri tərəfindən Ermənistan silahlı qüvvələrinin 41-ci artilleriya alayının batareyalarına atəşlə zərər vurulub. Nəticədə şəxsi heyət arasında ölən və yaralananlar var.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, atəş zərbəsi ilə düşmənin xeyli sayda sursatı partladılıb, artilleriya qurğuları tam sıradan çıxarılıb.





# Ermənistanın müharibə cinayətləri:

## *Ağdam rayonunda məcburi köçkün qəsəbələri hədəfə alınır*

Ermənistan silahlı bölmələri cəbhəyanı yaşayış məntəqələrində dinc əhalini, çoxsaylı ev və mülki obyektləri, sosial təyinatlı binaları hədəfə almaqda davam edir.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, düşmən rayonun cəbhəyanı kəndləri ilə yanaşı, məcburi köçkünlər üçün salınmış qəsəbələri də artilleriya atəşinə tutur. Erməni hərbçilərinin genişmiqyaslı təxribatları nəticəsində təkcə Birinci Baharlı qəsəbəsində sentyabrın 27-dən indiyədək 13 ev, məktəb və uşaq bağçası dağılıb, 2 ev yanıb, 50-dən artıq evə, 3 mağazaya ziyan dəyib, 3 nəfər mülki şəxs yaralanıb, 9 baş mal-qara tələf olub.

Müxbirimiz Birinci Baharlı qəsəbəsinə gedərək erməni vəhşiliyinin izlərini lentə alıb, sakinlərlə həmsöhbət olub. Qəsəbənin mütəmadi olaraq atəşə tutulmasına, çoxsaylı dağıntılara baxmayaraq, sakinlərin əhvali-ruhiyyəsi yüksəkdir. Hər kəs ordumuza güvənir, qələbənin yaxında olacağına inanır.











Qəsəbə sakini Heydər Mirzəliyev deyib: “Sentyabrın 27-dən başlayaraq ermənilərin təxribatları, artilleriya atəşləri nəticəsində qəsəbəmizə ciddi ziyan dəyib. Sakinlərin yaşadığı evlər, həmçinin məktəb və uşaq bağçası hədəfə alınıb. Bütün bunlar erməni terrorunun, vandallığın göstəricisidir. Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar isə ermənilərin bu vəhşiliyinə susur. Lakin ordumuz cəbhədə düşmənə lazımi cavabı verir. İşğalçı erməni ordusuna sarsıdıcı zərbələr vuraraq torpaqlarımızı azad edir. Ordumuzla qürur duyuruq. İnşallah, tezliklə qələbə sevincini yaşayacağımıza əminik”.

8-ci sinif şagirdi Şamil Məmmədovla düşmənin artilleriya atəşi nəticəsində dağılmış məktəbin qarşısında söhbət etdik. “Görürsünüz, məktəbimiz necə dağılıb. Partalar, kitablar... hər şey məhv olub. Təsəllimiz odur ki, düşmən vəhşiliklərinin cəzasını alır. Ordumuz onları məğlub edir, torpaqlarımızdan qovub çıxarır”, - deyə Ş.Məmmədov bildirib.

# Qubadlının gəzməli-görməli yerləri haqqında videoçarx hazırlanıb

Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş Qubadlının gəzməli-görməli yerləri haqqında tanıtım videoçarxı hazırlanıb.

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev rəsmi “Twitter” səhifəsində paylaşım edib.

“30 il ərzində erməni vandalizmi nəticəsində bir çox turistik məkanlarımız viran edilib. Qələbədən sonra Qarabağın turizm potensialı inkişaf etdiriləcək”, - deyə Fuad Nağıyev qeyd edib.

Çarxda Qubadlının gəzməli-görməli yerləri, o cümlədən XIX əsrə aid olan məşhur “Hacı Bədəl körpüsü”, 1867-ci ildə Bərgüşad çayının üzərində altı oval, üstü düz bir formada inşa edilən Laləzar körpüsü, XVIII əsrə aid edilən Məmər kəndindəki tarixi məscid, Azərbaycanın səkkizguşəli türbələri arasında unikal formaya malik “Gürcülü türbəsi”, Sarıbulaq, Paşa bulağı, Şirin bulaq, Məşhədi Allahverdi bulağı kimi müalicəvi bulaqlar, VI və VII əsrlərə aid alban abidələri, Qubadlının simvolu hesab edilən özünəməxsus qoç heykəllər və qoç qəbir daşları, V əsrə aid Göy Qala, Qalalı kimi qədim qalalar haqqında məlumatlar təqdim olunur.












# Hikmət Hacıyev "Sərhədsiz reportyorlar"ın 80 jurnalistin Xankəndidən təhlükəsiz çıxa bilməməsinə dair açıqlamasına münasibət bildirib



"Sərhədsiz reportyorlar" təşkilatının 80 nəfər yerli və xarici jurnalistin Xankəndidən təhlükəsiz çıxa bilməməsinə dair açıqlaması ilə əlaqədar bildiririk ki, Laçın dəhlizi vasitəsilə Xankəndi ilə Ermənistan arasında yolu bağlayan məhz Ermənistandır. Dünən Ermənistan tərəfi açıqlama verərək yolu bağladığını bildirmişdi.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bildirib.

Prezidentin köməkçisi deyib ki, ümumiyyətlə, Xankəndidən Ermənistana iki yol var. Biri Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ərazisindən keçərək Ermənistanın Vardenis rayonuna doğru gedir. Digər yol isə Laçın dəhlizi vasitəsilədir. Bugünə olan məlumata görə, hər iki yol Ermənistan silahlı qüvvələrinin nəzarətindədir.

* * *

Hazırda İtaliyanın "La Repubblica" qəzetinin jurnalisti Peitro Del Re erməni lobbisinin təhqiramiz hücumuna məruz qalır.

AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabında yazıb.

Prezidentin köməkçisi bildirib ki, erməni lobbisi tərəfindən jurnalistlərin təhdid edilməsini, azad mediaya, ifadə azadlığına qarşı bu cür hücumları şiddətlə qınayırıq.

"Biz "Sərhədsiz Reportyorlar"a, ATƏT-in media azadlığı üzrə nümayəndəsinə çağırış edirik ki, Ermənistan-Azərbaycan münaqişəsinin obyektiv reallıqlarını işıqlandıran peşəkar jurnalistlərə və mediaya qarşı fiziki, mənəvi təhdidləri, təhqiramiz şəxsi hücumları qınasınlar. İfadə azadlığına hörmət edilməlidir", - deyə Hikmət Hacıyev vurğulayıb.

# Alban-udi xristian dini icması Azərbaycanın ərazi bütövlüyünün bərpasını dəstəklədiyi barədə bəyanat yayıb

Azərbaycan Alban-udi xristian dini icması Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində həyata keçirilən bütün fəaliyyəti dəstəklədiyi və bu prosesdə yaxından iştirak etdiyi barədə bəyanat yayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Alban-udi xristian dini icmasının sədri Robert Mobilinin imzaladığı bəyanatda deyilir:

"Biz - Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi xristian dini icması Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində həyata keçirilən bütün fəaliyyəti dəstəkləyir və bu prosesdə yaxından iştirak etdiyimizi bildiririk. Eyni zamanda, bəyan edirik ki, sıralarında udi gənclərinin də olduğu Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın işğal etdiyi şəhər və kəndlərimizi bir-bir azad etməsi bizi ürəkdən sevindirir və ölkəmizin ərazi bütövlüyünün yaxın zamanlarda tam təmin olunmasına inamımızı daha da artırır.

Alban Kilsəsi Qafqazın ilk apostol kilsəsi kimi uzun tarixi yol keçmiş, təkcə Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuşdur. Təəssüf ki, müxtəlif təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilmiş, onun maddi və mənəvi irsinin bir qisminə erməni-qriqoryan kilsəsi sahib çıxmağa çalışmışdır. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi alban məbədlərinin böyük bir qismi qriqoryanlaşdırılmış, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər ya məhv edilmiş, ya da saxtalaşdırılmışdır. Alban irsinin, o cümlədən yaşı yüz illərlə, hətta min illərlə ölçülən Alban məbədlərinin qriqoryanlaşdırılması son 100 ildə Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın işğal edilmiş torpaqlarında bir dənə də olsun Alban məbədi saxlanılmamışdır. Ermənistan Alban məbədlərinin ya arxitekturasını dəyişdirərək qriqoryanlaşdırmış, ya da arxitekturasını dəyişdirə bilmədiyi məbədləri dağıtmışdır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən və ölkəmizdə vicdan azadlığına tam zəmin formalaşdıqdan sonra Alban Apostol Kilsəsinin statusunun bərpası və üzləşdiyimiz ədalətsizliyin aradan qaldırılması üçün tarixi fürsət yaranmışdır. Odur ki, biz udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri kimi bu gün Qəbələ və Oğuzdakı alban məbədlərində ibadət etdiyimiz kimi, işğal altındakı Alban kilsələrində, o cümlədən Laçındakı Ağoğlan, Kəlbəcərdəki Gəncəsər, Ağdərədəki Müqəddəs Yelisey və onlarca digər məbəddə ibadət edəcəyimiz günləri səbirsizliklə gözləyirik. İnanırıq ki, bütün dinlərin nümayəndələrinə, o cümlədən erməni-qriqoryan kilsəsinin mənsublarına humanist münasibət göstərən Azərbaycan dövləti işğal altındakı bütün ərazilərini tezliklə azad edəcək, həmin şəhər və kəndlərdəki alban məbədlərində alban-udi icmasının üzvlərinə ibadət üçün şərait yaranacaq və bununla da tarixi ədalətsizlik aradan qalxacaqdır.

Eyni zamanda, əsrlərboyu erməni qriqoryan kilsəsinin təsir və təzyiqlərinə, mənimsəmə və saxtalaşdırmaqla Alban irsinə böyük zərbə vurmasına baxmayaraq, sülh və insanlıq naminə biz erməni qriqoryan kilsəsi ilə əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazır olduğumuzu bəyan edirik".

# Azərbaycan Alban-udi xristian dini icması Dünya Kilsələr Birliyinə müraciət ünvanlayıb

Azərbaycan Alban-udi xristian dini icması son yüz ildə Alban məbədlərinin qriqoryanlaşdırılmasının Ermənistanın dövlət siyasətinə çevrilməsi ilə bağlı Dünya Kilsələr Birliyinə müraciət ünvanlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Alban-udi xristian dini icmasının sədri Robert Mobilinin müraciətində deyilir:

"Biz - Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icması Azərbaycanın haqlı mövqeyini daim müdafiə edir, beynəlxalq hüquqla təsbit olunmuş ərazi bütövlüyünün bərpa edilməsi istiqamətində atdığı addımları dəstəkləyir və bu prosesdə yaxından iştirak etdiyimizi bildiririk. Eyni zamanda, Azərbaycan Silahlı Qüvvələrinin Ermənistanın işğal etdiyi şəhər və kəndlərimizi azad etməsi ölkəmizin ərazi bütövlüyünün yaxın zamanlarda tam təmin olunmasına inamımızı daha da artırır".

Müraciətdə qeyd olunur ki, Qafqazda xristianlığın rəsmi din kimi strukturlaşmasının tarixi Alban kilsəsindən başlayır. Qədim qaynaqlar təkcə Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuş Alban kilsəsi xristian dünyasında ən qədim kilsələrdən biri olduğunu sübut edir. Alban kilsəsinin qədimliyini təkcə tarixi faktlar yox, həm də mövcudluğunu dövrümüzə qədər qoruyub saxlamış qədim alban məbədləri təsdiqləyir.

"Təəssüf ki, müxtəlif təzyiq və təsirlərdən sonra 1836-cı ildə Alban Apostol Kilsəsi ləğv edilmiş, onun maddi və mənəvi irsinin bir qisminə erməni qriqoryan kilsəsi sahib çıxmağa çalışmışdır. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi alban məbədlərinin böyük bir qismi qriqoryanlaşdırılmış, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər saxtalaşdırılmışdır. Alban irsinin, o cümlədən yaşı yüz illərlə, hətta min illərlə ölçülən Alban məbədlərinin qriqoryanlaşdırılması son yüz ildə Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın işğal edilmiş torpaqlarında heç bir alban məbədi saxlanılmamışdır. Ermənistan ya Alban məbədlərinin arxitekturasını dəyişdirərək qriqoryanlaşdırmış, ya da arxitekturasını dəyişdirə bilmədiyi məbədləri dağıtmışdır", - deyə müraciətdə vurğulanır.

Bildirilir ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən və ölkəmizdə vicdan azadlığı tam təmin olunduqdan sonra Alban Apostol Kilsəsinin statusunun bərpası və üzləşdiyimiz ədalətsizliyin aradan qaldırılması üçün tarixi fürsət yaranıb. Udi ziyalılarının təşəbbüsü ilə 2003-cü ildə Alban-udi xristian icması yaradılmış və dövlət qeydiyyatından keçib. İcmanın qeydiyyatı Alban apostol avtokefal kilsəsinin dirçəldilməsi yolunda ilk addımdır.

Müraciətdə daha sonra deyilir: "Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi bərpa edilmiş, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki "Çotari" Alban-udi kilsəsinin rəsmi açılışı olmuşdur. Təbii ki, Alban-udi xristian icmasının dirçəldilməsi və alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, ölkəmizdəki tolerantlıq mühitinin qorunub saxlanılması baxımından təkcə Azərbaycan deyil, həm də bütün xristian dünyası üçün mühüm əhəmiyyət kəsb edir.

Biz udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq bu gün Qəbələ və Oğuzdakı alban məbədlərində ibadət etdiyimiz kimi, işğal altındakı Alban kilsələrində, o cümlədən Laçındakı Ağoğlan, Kəlbəcərdəki Gəncəsər, Ağdərədəki Müqəddəs Yelisey və onlarla digər məbədlərdə ibadət edəcəyimiz günləri səbirsizliklə gözləyirik. İnanırıq ki, Azərbaycan dövləti işğal altındakı bütün ərazilərini tezliklə azad edəcək, həmin şəhər və kəndlərdəki alban məbədlərində Alban-udi icmasının üzvlərinə ibadət üçün şərait yaranacaq və bununla da tarixi ədalətsizlik aradan qalxacaqdır.

Eyni zamanda, Azərbaycan xalqının tolerantlığı, Azərbaycan dövlətinin bütün dinlərin nümayəndələrinə olan qayğısı və dəstəyi onu deməyə əsas verir ki, erməni qriqoryan kilsəsinin mənsublarına da humanist münasibət göstəriləcəkdir. Bu hörmətin bariz nümunəsi Bakı şəhərinin mərkəzində yerləşən Azərbaycan hökuməti tərəfindən qorunub-saxlanılmış, restavrasiya olunmuş "Müqəddəs Qriqori" erməni kilsəsidir. Əsrlərboyu erməni qriqoryan kilsəsi təsir və təzyiqlərinə, mənimsəmə və saxtalaşdırmaqla Alban irsinə böyük zərbə vurmasına baxmayaraq, sülh və insanlıq naminə biz də erməni qriqoryan kilsəsi ilə əməkdaşlığa, işğaldan azad edilmiş ərazilərdə birgə yaşamağa hazır olduğumuzu bildiririk".

# Ermənistanın dövlət təbliğatı ənənəvi olaraq saxta xəbərlərin hazırlanması və yayılması ilə fəal şəkildə məşğul olur

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafında vəziyyəti yanlış təqdim etmək məqsədilə Ermənistanın dövlət təbliğatı ənənəvi olaraq saxta xəbərlərin hazırlanması və yayılması ilə fəal şəkildə məşğul olur. Bu qarayaxma kampaniyasının əsas məqsədi beynəlxalq ictimaiyyəti aldatmaq və beynəlxalq hüququn norma və prinsiplərinə, habelə BMT-nin Təhlükəsizlik Şurası daxil olmaqla, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq çoxsaylı qərarlara əsaslanan Azərbaycanın ədalətli mövqeyinə xələl gətirməkdən ibarətdir.

Bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: "Bununla əlaqədar xatırladırıq ki, 30 ilə yaxın bir müddətdə Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququ, o cümlədən beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq Azərbaycana qarşı silahlı təcavüz həyata keçirir. Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin işğalı doğma yurdundan qovulmuş 1 milyona yaxın azərbaycanlının etnik təmizlənməsi, işğal olunmuş ərazilərdə özəl və dövlət əmlakının mənimsənilməsi, bu ərazilərdə Azərbaycanın tarixi və mədəni irsinin məhv edilməsi, ələ keçirilmiş torpaqlarda təbii sərvətlərin və iqtisadi potensialın qeyri-qanuni istismarı və talan edilməsi, etnik ermənilərin bu ərazilərə qeyri-qanuni məskunlaşdırılması və qanunsuz infrastruktur dəyişikliklər ilə müşayiət olunur.

Otuz ilə yaxın siyasi həll prosesi, habelə Azərbaycanın bu prosesə sadiqliyindən sui-istifadə edən Ermənistan bu torpaqların ilhaq edilməsi məqsədilə Azərbaycan ərazilərinin işğalı nəticələrini möhkəmləndirmək üçün ardıcıl addımlar atıb.

Qeyri-qanuni güc tətbiqi nəticəsində yaranmış status-kvonu rədd edən siyasi həllin əleyhinə olan, bu prosesə xələl gətirən təxribat xarakterli bəyanat və hərəkətlərə əl atan Ermənistan, Azərbaycanın bütün cəbhəboyu əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və hərbi mövqelərini atəşə tutmaqla 2020-ci il sentyabrın 27-də Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı. Azərbaycan Respublikasının Silahlı Qüvvələri əks-hücum əməliyyatı keçirməyə məcbur edildi.

Bu xüsusda bir daha aşağıdakıları bildiririk:

Azərbaycan Respublikasının Silahlı Qüvvələri Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qorumaq, habelə öz vətəndaşlarının mühafizəsini və təhlükəsizliyini təmin etmək məqsədilə fəaliyyətini özünümüdafiə çərçivəsində və Azərbaycanın suveren ərazisində aparır;

Azərbaycan Silahlı Qüvvələrinin əks-həmlə əməliyyatı yalnız beynəlxalq humanitar hüquq çərçivəsində aparılır, eyni zamanda, Beynəlxalq Qızıl Xaç Komitəsi ilə sıx əməkdaşlıq həyata keçirilərək beynəlxalq humanitar hüquq üzrə bütün öhdəliklərə ciddi riayət olunur;

Azərbaycan Respublikasının Silahlı Qüvvələri mülki şəxslərə, o cümlədən erməni əsilli Azərbaycan vətəndaşlarına qarşı mübarizə aparmır və işğal altındakı ərazilərdə mülki əhalini və mülki infrastrukturu hədəfə almır;

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində qadağan edilmiş heç bir silah və sursatın olmadığı üçün ondan istifadə edilə bilməz.

Vurğulayırıq ki, Ermənistan Azərbaycan ərazilərini işğal edərək beynəlxalq ictimaiyyətin tələblərini, ilk növbədə isə BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli dörd qətnaməsini (822, 853, 874 və 884) pozaraq bu ərazilərdən çıxmaqdan imtina edir. Döyüş meydanında Azərbaycan Silahlı Qüvvələri tərəfindən aldığı ağır məğlubiyyətin əvəzini çıxmaq məqsədilə Azərbaycanın böyük mülki yaşayış məntəqələrini, o cümlədən cəbhə xəttindən çox uzaqda yerləşən Gəncə, Bərdə və Tərtər kimi şəhərlərini ballistik və kasetli sursatlar da daxil olmaqla, ağır artilleriya və raketlərlə qəsdən hədəfə alaraq amansız terror taktikasına əl atıb. Nəticədə aralarında 10 uşaq və 27 qadın olmaqla 92 mülki şəxs həlak olub, həmçinin uşaqlar, qadınlar və qocalar da daxil olmaqla 404 mülki şəxs ağır yaralanıb. Tibbi və təhsil müəssisələri də daxil olmaqla mülki infrastruktura, həmçinin vacib dövlət infrastrukturuna və xüsusi mülkiyyətə ciddi ziyan vurulub. Üç dəfə humanitar atəşkəsin elan edilməsi də Ermənistanın mülki şəxslərə qarşı terror hücumlarını dayandırmayıb.

Ermənistanın mülki əhaliyə və mülki infrastruktura qarşı hərbi cinayətlərə və insanlığa qarşı cinayətlərə bərabər olan bu qəddar hücumlarına dair faktlar Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Beynəlxalq Qırmızı Xaç Komitəsi, "Human Rights Watch", "Amnesty International" kimi beynəlxalq qurumlar və strukturlar və xarici media nümayəndələri vasitəsilə də daxil olmaqla, beynəlxalq ictimaiyyətə təqdim edilib.

Xatırladırıq ki, yüksəksəviyyəli Ermənistan rəsmilərinin açıq bəyanatlarına əsasən, hərbi əməliyyatlar başlayandan bəri Azərbaycanın işğal olunmuş ərazilərində yaşayan ermənilərin əksəriyyəti bu əraziləri tərk edərək Ermənistana köçüblər. Azərbaycan tərəfi dəfələrlə ərazidə qalanlara hərbi obyektlərdən uzaq durmağa və hərbi əməliyyatlarda iştirak etməkdən çəkinməyə çağırışlar edib, çünki bu, onların mülki statusuna xələl gətirərək onları döyüşçü statusuna çevirə bilər. Bundan əlavə qeyd etmək lazımdır ki, Ermənistanın Azərbaycan Silahlı Qüvvələrinə qarşı apardığı hərbi əməliyyatlarda muzdlulardan və xarici terrorçu döyüşçülərdən istifadə etdiyi, o cümlədən müxtəlif beynəlxalq media mənbələri tərəfindən geniş sənədləşdirilib.

Ermənistan hərbi cinayətləri və insanlığa qarşı cinayətləri meydana gətirən yuxarıda qeyd olunan qanunsuz əməlləri ört-basdır etmək üçün beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədilə həyasızcasına Azərbaycanı eyni ittihamla günahlandırır və bu məqsədlə kütləvi saxta xəbər kampaniyasını aparır. Ermənistanın öz iddialarını əsaslandırmaq üçün təqdim etdiyi video və foto materiallarının peşəkar təhlili bunların hamısının əvvəlcədən hazırlanmış saxtalaşdırmalardan başqa bir şey olmadığını sübut edir.

Azərbaycan tərəfi Ermənistanın bu əsassız ittihamlarını bir daha qətiyyətlə rədd edir və beynəlxalq ictimaiyyətə müraciət edərək Ermənistanın Azərbaycana qarşı qarayaxma kampaniyası ilə cinayətlərini ört-basdır etmək cəhdlərinə qarşı diqqətli olmalarını xahiş edir.

Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Azərbaycan Respublikasının mövqeyi hər zaman ardıcıl olub və beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsaslanır. Azərbaycan həmişə onların həyata keçirilməsi üçün ATƏT-in Minsk qrupu formatında danışıqlara hazır olduğunu bildirib.

# Terroru dövlət səviyyəsində dəstəkləyən Ermənistanın işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi üçün Baş Prokurorluq zəruri tədbirlər görür

Dövlət səviyyəsində terroru dəstəkləyərək terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən bu tədbirlərin davamı kimi, "Krım könüllüləri birləşməsi" adlı qrupun rəhbəri olan Martoyan Armen Hamletoviç (Samvel) və digərlərinin Azərbaycan Respublikasına qarşı törətdiyi cinayət əməllərinə dair Azərbaycan Respublikası Baş Prokurorluğunda toplanmış material üzrə araşdırma aparılıb.

Araşdırmalarla qeyd olunan "Krım könüllüləri birləşməsi" adlı qrupun rəhbəri olan Rusiya Federasiyasının vətəndaşı Martoyan Armen Hamletoviç (Samvel ləqəbli) və həmin qruplaşmanın digər üzvlərinin 2020-ci ilin oktyabrında Ermənistanda və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan şəxslərlə, həmçinin qondarma "Dağlıq Qarabağ" rejiminin rəhbər şəxsləri ilə görüşüb döyüş əməliyyatlarında iştiraklarına dair müzakirələr aparmaqla cinayət əlaqəsinə girmələri, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhəri və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın rəhbərliyi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyənləşdirilib.

Bundan başqa, cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, döyüş əməliyyatlarında iştirak etməyən dinc sakinlərinə qarşı çoxsaylı cinayət əməllərinə yol vermələri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilib.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.

Hazırda qeyd edilən cinayət işi ilə əlaqədar Baş Prokurorluq tərəfindən Rusiya Federasiyasının aidiyyəti dövlət qurumlarına hüquqi yardımın göstərilməsi haqqında vəsatət hazırlanır.

Baş Prokurorluq bəyan edir ki, qeyd edilən və bu kimi digər cinayət faktlarına görə təqsirkar şəxslərin beynəlxalq hüquq normalarına əsasən məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlər görülməklə beynəlxalq təşkilatlara müraciət olunması təmin ediləcək.

# *Baş Prokurorluq:* "Ermənistanın təxribatları nəticəsində 2971 ev, 100 yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb"

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 5-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2971 ev, 100 çoxmənzilli yaşayış binası və 502 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

# Ermənistan silahlı qüvvələrinin Bərdəni raket atəşinə tutması nəticəsində xəsarət almış şəxslərdən biri vəfat edib

Xəbər verildiyi kimi, sentyabrın 27-dən bugünə kimi Ermənistan silahlı qüvvələri tərəfindən dinc əhalinin ağır artilleriyadan atəşə tutulması nəticəsində 405 mülki şəxs yaralanıb, onlardan 43 nəfər ağır vəziyyətdə reanimasiyada stasionar müalicə olunur.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, oktyabrın 28-də Bərdə şəhərinin mərkəzi hissəsinin düşmən tərəfindən raket atəşinə tutulması nəticəsində ağır dərəcəli bədən xəsarətləri almış 1995-ci il təvəllüdlü Paşayev Niftalı Səlim oğlu göstərilmiş tibbi yardımlara baxmayaraq, noyabrın 5-də stasionar qaydada müalicə olunduğu xəstəxanada vəfat edib.

# Fövqəladə Hallar Nazirliyi Ermənistan tərəfindən atəşə tutulan yaşayış məntəqələrində maarifləndirmə tədbirlərini davam etdirir

Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs rejimini kobudcasına pozaraq dinc əhalinin sıx yaşadığı ərazilərimizi, o cümlədən döyüş meydanından kənarda yerləşən yaşayış məntəqələrini ağır artilleriya qurğularından və raketlərdən atəşə tutması halları davam edir.

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, təcavüzkar Ermənistan tərəfi dinc sakinləri hədəfə almaqda davam etdiyindən əhalinin təhlükəsizliyinin təmin olunması məqsədilə müxtəlif maarifləndirmə tədbirləri də həyata keçirilir.

Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi də həmin tədbirlər çərçivəsində dinc sakinlər arasında maarifləndirmə işinin genişləndirilməsi üçün çap materialları (maarifləndirici vərəq və plakatlar, broşürlər, istiqamətverici plakatlar) dərc edib. Müxtəlif məzmunlu maarifləndirici çap materialları cəbhəyanı ərazilərdə və düşmən tərəfinin hədəfinə çevrilmiş digər yaşayış məntəqələrinin əhalisi arasında paylanılır və müvafiq maarifləndirmə işləri aparılır.

# Ermənilərin atdığı raketlər Tərtər Rayon Tarix Diyarşünaslıq Muzeyində nümayiş olunacaq







Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər rayonu ərazisinə atılan 10-a yaxın raketin qalığı toplanaraq Tarix Diyarşünaslıq Muzeyinə gətirilib.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, raket qalıqları muzeydə sərgilənəcək. Məqsəd ermənilərin dinc əhaliyə qarşı törətdiyi vəhşilikləri gələcəkdə rayona gələn qonaqlara göstərməkdir.

# Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir



# Ustad və Sərkərdə

## Prezident İlham Əliyev Vətən savaşının ötən 40 günündə Azərbaycan tarixinin ən şərəfli salnaməsini yaratdı

*Əvvəli 1-ci səh.*

Azərbaycan Ordusunun 2016-cı ilin Aprel döyüşləri zamanı işğalçılara verdiyi sarsıdıcı dərs təsəvvürlərimizdə əsla yanılmadığımızı göstərdi.

Ona görə də İkinci Qarabağ müharibəsi zamanı cənab İlham Əliyevin müasir dünyamızın ən parlaq sərkərdələrindən biri olaraq yaratdığı örnək çoxumuza təəccüblü deyil. Eynən bu şəkildə, bu səviyyədə də gözləyirdik, Ali Baş Komandan sadəcə olaraq təsəvvürlərimizdəki əsl Sərkərdə obrazını reallığa çevirir.

Üstəlik, müharibə dövrünün beynəlxalq konvensiyalarda müəyyən edilmiş qayda-qanunlarına tam riayət edilməsi, yeri gələndə düşmənə qarşı comərd davranışları ilə əsl Azərbaycan kişisinə, bu xalqın cəngavər igidlərinə xas cizgiləri bu obrazda daha da möhkəmləndirir. Ermənilərin faşist xislətinə rəğmən humanist tərzini yenə də qoruyur, yağını məğlub etmək üçün gərəkən hər cür qətiyyətli addımları bir an yubanmadan atmaqla bərabər, ümumbəşəri dəyərlərin, insanlığın da unudulmasına imkan vermir.

Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı - bu xalqın Sərkərdəsi məhz belə olmalıdır!

İlham Əliyev 27 sentyabrdan keçən müddətlə 200 illik tarixi, müasir dövrün reallıqlarını dəyişir...

Bu tarixdə dəyişməyənsə milli kimliyimizdir, bizi biz edən dəyərlərimizdir, bu dəyərlərə sədaqətimizdir...

### Heyrət anı

Bu günlərdə bizi yaxşı mənada heyrətləndirənsə Azərbaycan Prezidentinin diplomatiya sahəsində, dünyanın müxtəlif ölkələrinin kütləvi informasiya vasitələrinə müsahibələrində verdiyi ustad dərsləridir.

Əlbəttə, cənab İlham Əliyevin indiyə qədər də ayrı-ayrı media qurumlarına müsahibələri olub. Müxtəlif məsələlərə münasibət bildirib. Bu 17 il ərzində Azərbaycan dövlətini, xalqını çoxsaylı beynəlxalq tədbirlərdə, danışıqlarda təmsil edib. Onların hər birində təcrübəli siyasət adamı kimi böyük səriştə göstərib.

Amma indiki reallıq bundan ibarətdir ki, biz Azərbaycan Prezidentini belə bir tarixi şəraitdə, Vətən müharibəsinin qaynar fazasında, hərbi əməliyyatları anbaan idarə etməklə yanaşı, eyni zamanda ən müxtəlif məzmunlu informasiyaların, rəylərin, cavabı birmənalı olmayan sualların aramsız axınında, burasını da etiraf edək, işğalçı Ermənistana zaman-zaman havadarlıq edənlərin yeni təzyiq və təhdidləri qarşısında ilk dəfədir ki, görürük. Bütün bunlar indiyə qədər də olub, çoxunun təfərrüatlarını bəlkə də tam izləyə bilməmişik, bir qismindən xəbərsiz qalmışıq, amma indi proseslər açıq müstəvidə, davamlı gedir, hadisələr göz önündə baş verir və bir çox məsələlər indi eyni anda, bir aradadır.

Və İlham Əliyev bu vəziyyətlərin hər birində yaratdığı mükəmməllik nümunəsi ilə sözün əsl mənasında heyrətləndirir. Bir Sərkərdənin, siyasətçi və diplomatın, dövlət adamının gəlib çata biləcəyi ən yüksək kamillik səviyyəsindən bütün dünyaya ustad dərsi keçir.

Azərbaycan Prezidentinin hərbi əməliyyatların ilk günündən verdiyi müsahibələrə diqqət yetirək. Nə vaxtsa bu müsahibələr tarix kitablarına, dərsliklərə salınacaq, Cənubi Qafqazın ən yeni tarixini tədqiq edən alimlər, regionun gələcəyi barədə aydın təsəvvür formalaşdırmağa çalışan mütəxəssislər, özünü gələcəyin diplomatı, siyasətçisi, dövlət xadimi kimi yetişdirmək istəyən gənclər ən gözəl mənbə olaraq bu müsahibələrdən faydalanacaqlar...

### Ədalətin bərpası

Azərbaycan Prezidentinin müsahibələri ilə verdiyi ustad dərsləri xüsusunda belə bir yazı qələmə almaq düşüncəsi əslində hərbi əməliyyatlardan sonrakı dövrün ilk müsahibəsi ilə tanışlıq anından yaranmışdı. Yazını yazdıran, bu qeydlərə vəsilə olansa cənab İlham Əliyevin elə bu günlərdə Almaniyanın ARD televiziya kanalına müsahibəsində əksini tapmış maraqlı bir məqam oldu. Telekanalın əməkdaşı soruşur:

" - Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?"

İndi Azərbaycan Prezidentinin suala verdiyi cavaba diqqət yetirək:

" - Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".

Əlavə şərhə ehtiyac varmı? Əlbəttə, maraqlı müsahibənin alınması üçün jurnalistin müəyyən mənada intriqa yaradan yönəldici suallar qoyması normal təcrübədir. Amma bu sualın məzmunu Qərb dünyasının Dağlıq Qarabağ münaqişəsinə münasibətini, bu məsələyə ikili standartlarla baxışını, bəzi məqamlarda isə münaqişənin mahiyyətini həqiqətən tam anlaya bilmədiyini simvolik şəkildə əks etdirdiyindən xüsusi maraq doğurur.

İlham Əliyev isə həmin suala yığcam, lakonik, tutarlı cavabı ilə sadə bir həqiqəti bütün dünyaya anladır: erməni işğalçıları dünyanın ən ali dəyərlərindən olan ədaləti pozublar. Azərbaycan torpaqlarının iş-



ğalının, bir milyona yaxın məcburi köçkünümüzün öz evlərindən qovulmasının və təxminən 30 ilə yaxın dövr ərzində min əziyyətlərə düçar olmasının sadə adı ədalətsizlikdir. Azərbaycan da məhz ədalətsizliyə qarşı mübarizə aparır. Ona görə də bu davamız haqq davasıdır.

### Fakt qarşısında

Azərbaycan Prezidentinin müsahibələrində xüsusilə diqqəti çəkən məqamlardan biri Ermənistanın işğalçı mövqeyini, sülh danışıqlarından yayınaraq mövcud status-kvonu qorumaq cəhdlərini, ölkəmizə qarşı törətdiyi təxribatları faktların dili ilə yığcam şəkildə çatdırma bacarığıdır. O, münaqişənin yaranma səbəblərinə qısa tarixi ekskursları ilə mövcud vəziyyətə məharətli keçidlər edir. Cəmi bir neçə dəqiqə içində müsahibində də, istənilən dinləyici və oxucuda da bu münaqişədə kimin nə istədiyi, indiki aktiv hərbi əməliyyatlar mərhələsinin kimin günahı üzündən yaranması barədə geniş təsəvvür yarada və insanları Azərbaycanın haqlı mövqeyinə inandıra bilir.

Dağlıq Qarabağ münaqişəsi kifayət qədər mürəkkəb problemdir, daha doğrusu, Azərbaycanı labirintə salmaq istəyənlər bu problemi mümkün qədər qəlizləşdiriblər və istəklərinə də müəyyən qədər nail olublar. Ona görə də cəmi bir neçə cümlə ilə bu münaqişə barədə tam təsəvvür yarada bilmək o qədər asan görünməsin. Əlbəttə, hər kəs öz məlumatlılıq səviyyəsindən asılı olaraq bu barədə nələrsə danışa, izahlar verə bilər. Amma bütün bunları İlham Əliyevin nəql etdiyi tərzdə sistemli, yerli-yerində olan dəlil və arqumentlərlə, həm tarix, həm də müasir normalar işığında inandırıcı şəkildə söyləmək tamam başqa səviyyədir, əsl ustadlıq məharətidir.

Azərbaycan Prezidentinə və onun şəxsində dövlətimizə qarşı təzyiq elementləri bəzən ayrı-ayrı müsahibələrin sualları şəklində ifadəsini tapır. Ondan bu münaqişədə Azərbaycan tərəfindən döyüşmək üçün guya hansısa muzdluların cəlb edilməsi, eləcə də Türkiyənin hərbi dəstəyi barədə soruşurlar. Bu sual İtaliya, Fransa, Amerika, Yaponiya, Rusiya və başqa ölkələrə aid media qurumlarına müsahibələr zamanı təkrar-təkrar səsləndirilib. Cənab İlham Əliyev isə jurnalistlərin dili ilə bu suala cavab istəyənləri hər dəfə əlahəzrət fakt qarşısında qoyur. Onlardan irəli sürdükləri iddiaların sübutu üçün fakt istəyir.

İttiham irəli sürən tərəflərin bu tələb qarşısındakı susqunluğu ilə növbəti müsahibələrində onların əsassız mövqeyini, qeyri-obyektivliyini ifşa edir. Eyni zamanda göstərir ki, həmsədr kimi bu münaqişənin ədalətli həllinə görə məsuliyyət daşımasına rəğmən münaqişə tərəflərindən birinə qahmar çıxan, qərəzli mövqeyini gizlədə bilməyən və öz qərəzini bu cür suallar şəklində ifadə edən ölkələrdən münaqişə həll edən olmaz: "Bizə heç nə təqdim edilməyib. Ona görə bütün bunlar insunasiyadır. Bütün bunlar Azərbaycana qara yaxmaq cəhdidir. Mən təəssüflənirəm ki, bu cür əsassız ittihamlar həmsədr ölkələrdən daxil olur. Onlar obyektiv olmalıdırlar".

### Cəsarət və məharət

Əsl diplomata, liderə xas yüksək təmkinə, emosional zəkaya, hissləri idarəetmə bacarığına malik olan Azərbaycan Prezidentinin bu keyfiyyətlərini müsahibələrinin hər birində görürük. Hansısa köndələn suallarla onu çətinə salmaq, dilindən sensasiya doğura biləcək ehtiyatsız kəlmələr qoparmaq, dolaşdırmaq, bir-birini təkzib edən fikirlərin müəllifinə çevirmək əsla mümkün deyil. Bunu cənab İlham Əliyevə suallar ünvanlayan jurnalistlər də ilk dəqiqələrdən duyur, necə usta bir həmsöhbətlə üz-üzə əyləşdiklərinin dərhal fərqində olurlar.

Azərbaycan Prezidentinin müsahibələri siyasi-diplomatik cəhətdən mükəmməl şəkildə korrekt olduğu qədər, eyni zamanda əsl qətiyyət nümunəsidir. Belə bir kəlam var ki, hansısa sözü açıq şəkildə demək cəsarətdirsə, onu necə tərzdə söyləmək də məharətdir. Cənab İlham Əliyevin müsahibələri məhz cəsarətlə məharətin vəhdətidir. Bu müsahibələr eyni zamanda regionun gələcəyini canlandıran aynadır.

"Mən nəyi, necə, nə zaman etmək lazımdır yaxşı bilirəm" deyən Liderin gələcəyə aydın baxışıdır, münaqişənin həllindən sonra yaranan yeni reallıqları, bu reallıqlar üçün uyğun həlləri düşüncələrində dəqiqliklə şəkilləndirməsidir.

Münaqişə ədalətli şəkildə həllini tapandan sonra Azərbaycan regionda böyük təsir imkanlarına, sosial-iqtisadi, geopolitik maraqlara malik tərəfdaşları ilə qarşılıqlı anlaşma şəraitində, hər kəs üçün böyük faydalar yaradacaq şəkildə Cənubi Qafqaz regionunu dünyanın inkişaf mərkəzinə, sülh və hüzur məkanına çevirəcək. Azərbaycan Prezidenti öz müsahibələri ilə bunun ismarıcını verir, ilkin xəyali mənzərəsini yaradır.

Təşəbbüskarı olduğumuz qlobal layihələrin uğurları ilə, xalqımızın tarixən malik olduğu tolerantlıq ənənələri ilə, fərqli mədəniyyətlərə hörmət ruhu ilə, insanlara verilən dəyərlə biz buna qabilik. Azərbaycan Prezidenti də müsahibələrində bütün dünyaya bunu çatdırır, dostlarımızı bu ali məqsədə yetişməkdə bizə dəstək olmağa, bizi istəməyən qərəzli tərəfləri isə işimizə mane olmamağa çağırır.

Və yenə comərdlik göstərir, reallıq hissini unutmur, emosiyalara qapılmır, Azərbaycanın dövlətçilik dəyərlərinə, ərazi bütövlüyünə hörmətlə yanaşan erməniləri də bu işıqlı gələcəkdən kənarda tutmur.

### Sözü də imzası qədər keçərli

Azərbaycan Prezidentinin İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsindən bir cümlə: "Mən dediyim sözlərə cavabdehəm, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq". Azərbaycan Prezidentinin verdiyi bəyanatlarla real əməllərini diqqətlə izləyən hər kəs üçün bu cümlə çox şeyləri ifadə edir. Cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi bu 17 ildə yerinə yetirə bilməyəcəyi heç bir vədi dilə gətirməyib. Amma səsləndirdiyi bütün sözlərin də hamısını tutub, yerinə yetirib, Azərbaycan xalqının dünyagörüşündə böyük anlam daşıyan kişi sözünə sadiqlik göstərib.

Ona görə Azərbaycanın Dağlıq Qarabağdakı erməni vətəndaşları da multikultural mühitə malik ölkəmizdə yaşayan digər xalqların nümayəndələri kimi gələcəkləri barədə tam rahat ola bilərlər. Azərbaycan dövləti, dövlət rəhbərimiz torpaqlarımızı işğaldan azad etdiyi kimi, onları da Dağlıq Qarabağdakı hərbi xunta rejiminin əlindən qurtaracaq. Bu zavallıların ləyaqətli həyatını təmin edəcək, yetər ki, onlar özləri də buna qeyrət göstərsinlər. Cəbhədə verdikləri itkilərin hesabını Ermənistan rəhbərliyindən, Dağlıq Qarabağdakı kriminal qrupdan soruşsunlar, övladlarını Azərbaycan əsgərinin qarşısına - labüd ölümə göndərənlərə "dur" desinlər.

Onsuz biz istəsək də, kinli olmağı, illərlə bizə acı çəkdirənlərə nifrət bəsləməyi yenə bacarmayacağıq. Olub-keçənləri unudacağıq demirəm, amma yaralarımızı sarıyıb, keçmişə deyil, gələcəyə doğru addımlayacağıq, bütün insanlara sevgimizi, humanizmimizi, bəşəri dəyərlərə sadiqliyimizi qoruyacağıq.

Bizimlə mehriban yaşayışa, sülhə, regionun inkişafı üçün çalışmağa hazır olan hər kəslə birgəliyin mümkünlüyünü bütün dünyaya göstərəcəyik.

*Azərbaycan Prezidenti müsahibələrində bu xüsusda verdiyi bütün sözləri tutacaq və biz də öz liderimizə dəstək olacağıq...*

*Çünki onun sözü də, imzası da bizim üçün özü qədər keçərli, dəyərli və etibarlıdır!..*

*Qarabağ Azərbaycandır!..*

***Hüseynbala MİRƏLƏMOV,***
***Yeni Azərbaycan Partiyası Xətai Rayon Təşkilatının sədri***

# Zəfər yürüşü

*Əvvəli 1-ci səh.*

Minsk qrupu həmsədrlərinin tərəfkeşliyi, beynəlxalq təşkilatların laqeydliyi erməniləri sözün həqiqi mənasında azğınlaşdırmışdı. Prezident İlham Əliyev həmsədr ölkələrə, beynəlxalq təşkilatlara müraciətlərində dəfələrlə bildirmişdi ki, məsələnin sülh yolu ilə həlli üçün Ermənistana sanksiyalar tətbiq olunmalıdır. Lakin Azərbaycanın dövlət başçısının bu ədalətli tələbinə müsbət reaksiya verilmirdi. Elə bunun nəticəsi idi ki, cari ilin iyul ayında Dağlıq Qarabağdan uzaqda yerləşən Tovuz rayonunun Ermənistanla sərhədində hərbi münaqişə başladı. Bu münaqişə də Ermənistan tərəfindən törədildi. Nəticədə rayonun infrastrukturuna, mülki əhaliyə külli miqdarda ziyan dəydi. Hərbçilərimiz və mülki əhali arasında şəhidlər və yaralananlar oldu. Sözsüz ki, ermənilərin bu təcavüzü cəzasızlıqdan doğan nəticə idi.

Azərbaycan Ordusu Ermənistanın bu azğınlığının da qarşısını aldı. Düşmənə elə ağır zərbə endirdi ki, atəşkəs barədə müraciət etməyə məcbur oldular. Lakin bu acı məğlubiyyət də onlara dərs olmadı. Sentyabrın 27-də daha böyük qüvvə ilə Azərbaycanın Ordusuna və mülki əhalisinə növbəti dəfə atəş açdı. Artıq illərdir davam edən erməni təcavüzünə "dur" demək vaxtı gəlmişdi.

Azərbaycan tərəfindən başlanan əks-hücum əməliyyatı qısa bir müddətdə dünyanı heyrətə gətirdi. Bunun əks-hücum əməliyyatı adlandırılması isə siyasi-hərbi cəhətdən dünyaya bir mesaj idi. Bu o demək idi ki, Azərbaycana hücum olub və ordumuz əks-hücum əməliyyatı keçirir. Elə döyüşlərin ilk anında "məğlubedilməz erməni ordusu"nun ön cəbhəsi yarıldı və işğal altında olan torpaqlarımız ardıcıl şəkildə azad olunmağa başladı.

Bu gün Azərbaycan XXI əsrdə dünya hərb tarixinə yeni səhifə yazır. Ordumuzun apardığı döyüş əməliyyatları dünyanın bütün qabaqcıl hərbi mərkəzləri tərəfindən diqqətlə izlənilir. Yəqin ki, bundan sonra bir çox ölkələrin hərbi məktəblərində ordumuzun həyata keçirdiyi qeyri-adi döyüş taktikası tədris olunacaq. Artıq ABŞ başda olmaqla bir çox ölkələrin hərbi rəhbərliyi ordularında Qarabağ döyüşlərindən nəticə çıxararaq yenidənqurma həyata keçirəcəklərini bəyan edirlər.

Bu döyüşlərdə həmçinin iki xalqın, iki ordunun mənəvi keyfiyyətləri üzə çıxdı. Azərbaycanlıların bəşəri dəyərlərə söykənən, ermənilərin isə insanlığa yaraşmayan keyfiyyətləri...

Erməni vandalları yaşayış məntəqələrimizi qadağan olunmuş silahlardan atəşə tutaraq 91 Azərbaycan vətəndaşını qətlə yetirib, 405 nəfəri isə yaralayıblar. Onlar gecənin bir aləmində Gəncə və digər yaşayış məntəqələrimizə raket atmaqla uşaq, qadın, qoca demədən insanlarımızın canına qəsd ediblər və bu cəlladlıqlarından bütün beynəlxalq təpkilərə baxmayaraq, indiyəcən əl çəkmirlər. Ancaq ordumuzun arsenalında daha güclü, dağıdıcı silahlar olmasına baxmayaraq, onları dinc əhaliyə və mülki obyektlərə yönəltmirik. Əksinə, döyüş sahəsindəköməksiz vəziyyətdə qalan xəstə və yaşlı ermənilərə tibbi yardım göstərir, əsir düşənlərə qarşı isə Cenevrə Konvensiyasına uyğun davranırıq. Budur, azərbaycanlıların mənəviyyatı və milli dəyərləri! Azərbaycan Ordusu əli silahlı düşmənə qarşı yalnız döyüş meydanında amansızdır. Son iş-



ğalçı torpaqlarımızdan çıxana qədər onlara qarşı qəhrəmanlıqla vuruşacağıq.

İndi dostlarımız da, düşmənlərimiz də düşünür ki, Azərbaycan belə qüdrətli ordunu necə yaradıb? Bunun cavabı çox sadədir. Prezident, Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə vaxt edəcəyini yaxşı bilirdi. Anlayırdı ki, Ermənistan sarsıdıcı hərbi zərbə almasa, öz xoşu ilə torpaqlarımızdan çıxmayacaq. Bunun üçün güclü ordu lazımdır. Güclü ordu qurmaq üçün isə inkişaf etmiş iqtisadiyyatın olması başlıca şərtdir. Bu səbəbdən dövlət başçısının apardığı uğurlu iqtisadi islahatlar sayəsində karbohidrogen ehtiyatlarının hasilatı və ixracı istiqamətində mühüm addımlar atıldı, Azərbaycanın siyasi və iqtisadi maraqları dünyada söz sahibi olan ölkələrlə uzlaşdırıldı.

Prezident İlham Əliyev ölkədə milli həmrəylik, xalq-iqtidar birliyi yaratmaq üçün ciddi kadr islahatı apardı. Cəmiyyətdə sosial ədaləti təmin etmək üçün bir sıra sosial-iqtisadi islahatlar həyata keçirildi. Bütün bunlar insanların dövlətə olan inamını daha da artırdı.

Ordu quruculuğu istiqamətində görülən ciddi tədbirlər isə bu gün döyüş meydanında özünü təsdiq edir. Qeyd edək ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusundan biridir. Son bir neçə ilin statistikasına əsasən, ölkəmiz müasir silahlanmaya görə Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub. Sözsüz ki, bütün bu uğurlar Prezident İlham Əliyevin vaxtında həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub.

Bu gün Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün BMT Təhlükəsizlik Şurasının kağız üzərində qalan 4 qətnaməsini təkbaşına icra edir. Daha heç kim "5 rayonu qaytaraq, sonrasına da baxarıq" kimi qəbuledilməz təkliflə çıxış edə bilməz. Reallıq budur ki, müzəffər Azərbaycan Ordusu işğal altında olan bütün torpaqlarımızı azad etməkdə qərarlıdır. Bizə vasitəçilərin minnəti deyil, sadəcə olaraq mane olmaması lazımdır.

Prezident İlham Əliyev adını Azərbaycan tarixinə müdrik dövlət başçısı, müzəffər Ali Baş Komandan kimi yazdı. Çünki uzun illər tarixi torpaqlarını itirməyə məhkum olmuş Azərbaycan xalqının milli mənliyini, gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Bundan sonra torpaqlarımıza əl uzatmaq istəyən hər kəs Qarabağ savaşını göz altına almalı olacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Bakı Metropoliteni – 53








# Yeraltı şəhərin tarixində mühüm mərhələ

## İnkişafın keşməkeşli yolları ilə yüksəlişə doğru

Bakı Metropoliteninin istismara verilməsinin 53-cü ili tamam olur. 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə hər il 8 Noyabr tarixi Bakı Metropoliteni İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.









Bakıda yeraltı nəqliyyatın işə başlaması şəhər sərnişindaşımalarındakı gərginliyi aradan qaldırdı, insanların şəhərdaxili hərəkətlərə sərf etdikləri vaxt itkisini nəzərəçarpacaq dərəcədə azaltdı. Şəhərin mərkəzindən aralı rayonları bir-biri ilə, eləcə də mərkəzin özü ilə yaxınlaşdırdı. O vaxt 10 km-ə yaxın yol və 6 stansiya ilə istifadəyə verilən metronun bu illər ərzində xətlərinin uzunluğu 3 dəfədən, stansiyaların sayı isə 4 dəfədən çox artdı.

Hazırda Bakı metrosu dünyanın yeraltı nəqliyyat sistemində özünəməxsus yeri olan mükəmməl texniki təchizata, ən müasir texnologiyalarla təmin olunmuş vaqon parkına, yol şəbəkəsinə, enerji təchizatı, işarəvermə və rabitə, tunel avadanlığı və ventilyasiya qurğularına, hər bir sahədə güclü maddi-texniki bazaya və yüksək xidmət mədəniyyətinə malik müəssisədir. Yarım əsrdən artıq olan bu inkişaf yolu illərin keşməkeşindən, məhrumiyyətindən, siyasi-iqtisadi böhranların burulğanından keçib. Amma hər bir dövrün bütün çətinliklərinə mətanətlə sinə gərib, ölkənin ən ağır günlərində belə xalqa gərəkli olan xidmətindən əl çəkməyib, işini dayandırmayıb.

2020-ci il bütün dünya üçün yeni növ (COVID-19) pandemiyanın yaratdığı gərgin il kimi yadda qalacaq və dünya hələ də bəşəri bəlaya çevrilmiş bu virusla mübarizə yollarını arayır. Onun təsirləri, təbii ki, Azərbaycandan da yan ötməyib. Lakin bu virusla mübarizədə ən ali beynəlxalq qurumların da etiraf etdiyi kimi, sistemli və uğurlu mübarizə aparan Azərbaycan Respublikası üçün 2020-ci il həm də 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində həlledici dönüş ili kimi daha çox xatırlanacaq. Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu sentyabr ayının 27-də düşmənin dinc sakinləri də hədəfə almaqla cəbhə boyu hücuma keçərək, mənfur Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına cavab kimi əks-həmlə ilə torpaqlarımızın azad edilməsi uğrunda mübarizəsinə başladı. Şanlı ordumuz tərəfindən Azərbaycan Respublikasının beynəlxalq hüquq normaları çərçivəsində tanınmış torpaqlarının azad edilməsi "Bakı Metropoliteni" QSC-nin də çoxminlik kollektivində böyük ruh yüksəkliyi ilə qarşılanıb. Hər zaman olduğu kimi, metropolitençilər bütün xalqın ən ümdə arzusu olan torpaqlarımızın işğaldan azad və ərazi bütövlüyümüzün təmin edilməsində dövlət başçısına dəstəyini birmənalı şəkildə ifadə edir.

Əlbəttə, bununla əlaqədar cənab Prezident İlham Əliyevin çağırışına məmnuniyyətlə hazır olan və qələbəmiz naminə qüvvəsini əsirgəməyəcəyini bəyan edən metropoliten kollektivi koronavirus pandemiyasının diktə etdiyi şərtlərə və çətinliklərə rəğmən bu əhəmiyyətli günlərdə də öz sahəsində xüsusi ovqatla çalışır və 2020-ci ildə də qarşıda duran vəzifələri layiqincə yerinə yetirəcək.

Virusun xüsusiyyətləri və yayılma arealına görə xüsusi risk qrupunda olaraq zərbə alan sahələr sırasında nəqliyyat, xüsusən yeraltı qapalı məkan olan Bakı metropoliteni də var. Virusun yayılmasını minimuma endirmək üçün Bakı Metropoliteni yanvar ayının son günlərindən başlayaraq, işçiləri və sərnişinləri arasında xüsusi təbliğat, geniş maarifləndirmə şəbəkəsi qurdu. Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın fəaliyyətə başlaması ilə bu məsələ ölkənin bütün digər sahələri ilə vahid mərkəzdən idarə olunur. Fevral ayının son dekadasından stansiyalarda, qatarlarda və müəssisənin digər obyektlərində qabaqlayıcı tədbir kimi geniş spektrli dezinfeksiya işlərinə başlanıldı. Stansiyalarda gün ərzində bir neçə dəfə olmaqla əllə təmas olunan bütün səthlərin dezinfeksiyaedici vasitələrlə təmizlənməsinə, gün ərzində depoya daxil olan qatarların elektrik deposu şəraitində sanitar-gigiyenik normaların tələblərinə uyğun gücləndirilmiş qulluğu təmin edildi. Bu tədbirlər mərhələlərlə gücləndirilsə də, mart ayının 29-31-i tarixlərində səhər 2, axşam isə 3 saat olmaqla, metropolitendə sərnişindaşıma fəaliyyəti məhdudlaşdırıldı. Aprel ayının 1-dən isə bu fəaliyyət tamamilə dayandırıldı. May ayının 9-da fəaliyyətini bərpa edən metropolitendə sərnişinlər ictimai nəqliyyatda müvafiq metodiki göstərişə uyğun olaraq, məcburi qaydada tibbi qoruyucu vasitələri taxmalı, sosial məsafənin qorunmasına riayət etməli oldular. Sonrakı dövrlərdə virus təhlükəsinin genişlənməsi nəticəsində metropoliten iyul ayının 4-dən sentyabr ayının 14-nə kimi sərnişinlərini qəbul etmədi. Oktyabr ayının 19-da sərnişindaşıma fəaliyyəti bir daha dayandırıldı. Beləliklə, **142 gün (2 noyabr tarixinə)** sərnişinlərinə daşıma xidməti göstərməyən Bakı Metropoliteni tarixində ilk dəfə bu qədər müddətə bağlı qaldı. Lakin bu müddət heç də səmərəsiz ötüşmədi. Metropoliten Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarlara, müəyyən etdiyi məhdudlaşdırıcı tövsiyələrə, eləcə də sanitar-gigiyenik tələblər və metodiki göstərişlərin tələblərinə uyğun olaraq, sərnişinsiz qaldığı gecə növbələrində apardığı bir sıra yeniləşmə, sağlamlaşdırma tədbirlərini davamlı şəkildə apardı, belə bir şəraitdə infrastrukturun, tunel geyimi və avadanlıqlarının qorunması, eləcə də tikinti sahələrində optimal iş şəraitini qura bildi.

Metropolitendə ötən müddətdə görülən işlərdən bəhs edərkən yeraltı yolların inkişaf tarixini 3 mərhələyə bölmək mümkündür: Sovet dövrü (1967-1991-ci illər), müstəqilliyin ilk illəri (1991-2014-cü illər) və "Bakı Metropoliteni" QSC-nin yaranmasından sonrakı dövr. Sovet dövründə metronun tikintisi və inkişafı sovetlər ittifaqı miqyasında mərkəzləşmiş idarəetmə şəklində həyata keçirilirdi. İlk illər şəhər hakimiyyəti orqanlarının idarəçiliyinə verilən metro əslində mərkəzdən maliyyələşdirildiyi üçün 1975-ci ildən SSRİ-nin bütün şəhərlərində olduğu kimi, SSRİ Yollar Nazirliyinin Baş Metropolitenlər İdarəsinə tabe edildi. Bu da maddi-texniki təchizat, planlaşdırma, yeni xətlərin layihələndirilməsi və tikintisindəki çətinlikləri xeyli dərəcədə aradan qaldırdı. Amma elə o vaxtlarda istər tikintidə, istərsə də istismarda problemlərin yaşanmadığını söyləmək olmaz. Bu illər ərzində Bakıda 19 stansiya istifadəyə verildi ki, bu da indiki nisbətlə götürdükdə 76 faizə bərabərdir. Bütün bu işlərin əsas hissəsi 1969-cu ilin iyul ayından sonra, Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə birinci katib seçiləndən sonra həyata keçirilib. Ulu Öndər Bakı metrosunun fəaliyyətinə, yeni xətlərin tikintisinə xüsusi bir diqqətlə yanaşırdı. O, şəhərin inkişafında metronun rolunu çox yüksək qiymətləndirirdi. İstər həmin illərdə, istərsə də ondan sonrakı müstəqillik dövründə yeraltı yolların davamiyyətli inkişafı Ümummilli Liderin və onun siyasi varisi, müasir Azərbaycanın quruculuğunda Ulu Öndərin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin daimi qayğısı və diqqəti altında olub.

Müstəqilliyin ilk illərində Azərbaycan iqtisadiyyatındakı dərin böhran bir çox müəssisələri iflic vəziyyətinə saldı. Onların əksəriyyəti çətinliklərə dözməyərək, yeni iqtisadi münasibətlərin tələblərinə cavab vermək iqtidarında olmadıqlarına görə fəaliyyətlərini davam etdirə bilmədilər. Şəhər sərnişindaşıma sisteminin mühüm sahəsi olan yerüstü elektrik nəqliyyatı da böhran dalğasının zərbələrinə davam gətirmədi.

Metroda ötən əsrin 90-cı illərində, 2000-ci illərin əvvəllərində vəziyyətin son dərəcə çətinliyinə baxmayaraq, bakılılar işində fasilə verməyən stansiyaların qapılarını bağlı görmədilər.

Ən böyük çətinliklər yerli istehsalda olmayan spesifik avadanlıqlara, metro vaqonları hissələrinə, elektrik materiallarına, yolun üst quruluşu elementlərinə, işarəvermə və rabitə vasitələrinə, müxtəlif təyinatlı mühərrik və nasos avadanlıqlarına və yüzlərlə profil üzrə hissə və detallara olan ehtiyacla bağlı idi. İttifaq miqyasında iqtisadi əlaqələrin tamam kəsildiyi bir şəraitdə, ölkə xaricindəki müəssisələrlə lazımi münasibətlərin hələ qurulmadığı bir dövrdə bu materialları əldə etmək olduqca çətin idi. Amma rəsmi əlaqələr pozulsa da, postsovet dövrünün metropolitenləri, xüsusən də Moskva, Xarkov, Sankt-Peterburq metropolitenləri, Mıtişşi, Sankt-Peterburqun Yeqorov adına Vaqonqayırma zavodları ilə dostluq münasibətləri saxlanılırdı. Elə bunun nəticəsi idi ki, Moskva metropolitençiləri bakılı həmkarlarını çətinlikdə qoymadılar. Moskva-Bakı sərnişin qatarının tərkibində Moskvaya gələn Bakı metrosunun poçt dəmiryolu vaqonu bir neçə dəfə ehtiyat hissələri ilə doldurulub, yola salındı. Əksər hallarda moskvalılar əvvəlcədən ödəniş də tələb etmir, bakılı həmkarlarının sadəcə vədlərinə etimad edirdilər. Xarkovun, Sankt-Peterburqun vaqon təmirçiləri əsaslı təmir müddəti yetişmiş qatarlarımızın təmirini öz üzərlərinə götürdülər.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycanda hakimiyyət sükanına yenidən keçdikdən sonra, ilk növbədə, diqqət mərkəzindəki müəssisələrdən biri də metropoliten oldu. Keçmiş ittifaqın metropolitenləri ilə əlaqələrin saxlanılması da Heydər Əliyevin sovet iqtisadiyyatına rəhbərlik edən orqanda yüksək vəzifədə çalışması bu sahədə göstərdiyi bacarığa, onun yüksək idarəçilik məharətinə olan rəğbətin nəticəsi idi. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində olduğu illərdə dəmir yolu və metropolitenlər onun idarəçiliyinə verilmişdi. Onun SSRİ dəmir yolları və bu sahəyə aid müəssisələrin təkmilləşdirilməsi, inkişafı sahəsində gördüyü işlər bu gün də unudulmayıb. Bunu Mıtişşi vaqonqayırma zavodu bir daha əməldə sübut etdi. 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində zavod 136 vaqonu dünya bazar qiymətlərindən çox ucuz qiymətə Bakı Metropoliteninə satdı. Ulu Öndərin şəxsiyyətinə hörmət əlaməti olan bu addım vaqon parkımızın möhkəmlənməsində əvəzsiz rol oynadı.

Yeni əsrin ilk onilliyinin ikinci yarısından ölkə iqtisadiyyatının sürətli inkişaf dövrünə qədəm qoyması yeni istehsalat sahələrinin, ölkədə iqtisadi sabitliyin yaranması, işsizlik faizinin aşağı salınması, ümumdaxili məhsulun həcminin artması, nəqliyyat sektorunun yenidən qurulmasına və inkişafına zəmin yaratdı. İlk növbədə, metronun Şimal sahəsinin tikintisində 1980-ci illərin sonundan yarımçıq qalmış işlər bərpa edildi. Orada 3 stansiya və bir deponun tikintisində sürətli işlər başlandı. 2011-ci ilin ortalarına kimi "Nəsimi", "Azadlıq prospekti", "Dərnəgül" stansiyaları və "28 May" stansiyasının ikinci çıxışı istifadəyə verildi. Bununla da şəhərin yeraltı yollarının uzunluğu 34,63 km-ə çatdı.

Bakının yeraltı yollarının perspektiv inkişafı üzrə 2008-ci ildə təsdiq edilmiş dövlət proqramının yerinə yetirilməsi üzrə başlanan işlərin sürəti bundan sonra daha da artırıldı. Proqrama görə paytaxtımızın yeraltı yollarının ümumi uzunluğu 119,1 km, stansiyalarının sayı isə 76-ya çatacaq.

(Ardı var)

**Bəxtiyar ƏZİZLİ,**
**"Azərbaycan"**



# Arxa cəbhə



## Azərbaycan məhsulları beynəlxalq sərgidə nümayiş olunur

Dünən Çin Xalq Respublikasının Şanxay şəhərində 3-cü Çin Beynəlxalq İdxal Sərgisi açılıb.




Sərgidə İqtisadiyyat Nazirliyi yanında Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AzPROMO) təşkilatçılığı ilə 20-dən çox Azərbaycan şirkətinin məhsulları - nar şirəsi, fındıq, şərab və digər spirtli içkilər, meyvə distilyatları, mineral sular, un və qənnadı məmulatları, çay, mürəbbə, kompot, limonad, meyvə quruları və s. nümayiş olunur.

Noyabrın 10-dək davam edəcək sərgi çərçivəsində Azərbaycan məhsullarının ixracının artırılmasına dair müzakirələr aparılacaq, potensial müştərilərlə görüşlər keçiriləcək.

## Taxıl bitkilərinin tirə əkin üsulu ilə yetişdirilməsi ilə bağlı nümayiş əkini həyata keçirilib

Ənənəvi səpin üsulundan fərqlənən tirə əkin üsulundan bir sıra ölkələrdə tərəvəz, taxıl, meyvə və paxlalı bitkilərin yetişdirilməsində geniş istifadə olunur.



Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda bildirilir ki, ilk dəfə Meksikada tətbiq olunan və Azərbaycana introduksiya olunan bu texnologiya Aqrar Elm və İnnovasiya Mərkəzi tərəfindən müxtəlif layihələr çərçivəsində sınaqdan keçirilib və özünü doğruldub. Taxıl bitkilərinin tirəyə səpin üsulu ilə əkin texnologiyasının fermerlər arasında yayılmasını təşviq etmək məqsədilə mərkəz tərəfindən ardıcıl tədbirlər həyata keçirilir.

Tədbirlər çərçivəsində 30 oktyabr 2020-ci il tarixdə Salyan rayonu Quyucu kənd sakini, özəl toxumçu Cəlilov Arif İnşallah oğluna məxsus Seyidsadıqlı kəndində yerləşən 4 ha əkin sahəsində buğdanın tirəyə səpin üsulu ilə nümayiş əkini həyata keçirilib. Lazer mala ilə hamarlanmış əkin sahəsində bir gedişlə səthin eni 45 sm və hündürlüyü 30 sm olan tirələr açılıb. Tirələrə 150 kq/ha toxum norması ilə "Tale 38" buğda sortunun R1 reproduksiyalı toxumu səpilib və 100 kq/ha norma ilə ammofos gübrəsi verilib. Tətbiq edilən toxum norması ənənəvi əkində tətbiq edilən toxum normasından 75-95 kq az olub ki, bu da 35-45% qənaət deməkdir. Bildirilib ki, tirəyə əkin metodu mineral gübrələrin istifadə səmərəliliyini artırır, alaqlara qarşı mexaniki mübarizəyə imkan yaradaraq pestisidlərdən isifadəni azaldır, bitkinin daha yaxşı kollanmasına imkan yaradaraq məhsuldarlığı artırır, torpağın aqrofiziki vəziyyətini yaxşılaşdırır və bitkilərin yatmaya meyilliyini azaldır.

Tədbirdə Aqrar Elm və İnnovasiya Mərkəzinin direktoru İmran Cümşüdov, Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin mütəxəssisləri və ətraf kəndləri təmsil edən fermerler iştirak ediblər.

## Tovuzda COVID-19-a qarşı "ikinci cəbhə" açılıb

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qətiyyəti və iradəsi ilə Azərbaycanın suverenliyinin, ərazi bütövlüyünün bərpası uğrunda aparılan Vətən müharibəsində müzəffər ordumuz yeni qələbələr qazanır. İşğaldan azad edilən yaşayış məntəqələrimizdə müqəddəs Azərbaycan bayrağının dalğalanması hər birimizə sonsuz qürur və böyük ruh yüksəkliyi bəxş edir.



Xalqla dövlətin, millətlə ordunun sıx birliyi və cəmiyyətimizdəki həmrəylik qələbəmizi anbaan yaxınlaşdırır. Arxa cəbhə ilə ön cəbhənin vəhdəti, güclü və rəşadətli ordumuza sonsuz inam böyük qələbəni təmin edir. Məhz bu baxımdan ölkəmizin bütün potensialı son qələbənin qazanılmasına yönəldilir.

Təəssüflər olsun ki, indi yaşadığımız bu şərəfli günlərdə ikinci bir "düşmən"lə də üz-üzə qalmışıq. Bütün bəşəriyyəti çənginə alan koronavirusun ikinci dalğası ən qüdrətli dövlətləri belə diz çökdürür. Görülən qabaqlayıcı tədbirlərə və tibbi profilaktikaya baxmayaraq, Azərbaycanın şəhər və rayonlarında da bu virusa yoluxma halları artmaqda davam edir. Əhalinin virusdan qorunması istiqamətində dövlət səviyyəsində həyata keçirilən tədbirlər gündən-günə gücləndirilsə də, ayrı-ayrı vətəndaşların biganəliyi və məsuliyyətsizliyi nəticəsində infeksiyanın yayılmasının qarşısını istənilən səviyyədə almaq mümkün olmur.

Halbuki cəmiyyətimizin Vətən uğrunda yumruq kimi birləşdiyi bir dövrdə pandemiyaya qarşı da hər birimiz fəal olmalı, şəxsi nümunə göstərməliyik. Dərk etməliyik ki, belə bir zamanda ikiqat məsuliyyətli olmalı, dövlətin əsas diqqətinin ön cəbhədən yayınmasına imkan verməməliyik.

Ermənistanla sərhəd olan Tovuzda COVID-19-la mübarizəyə məhz bu cür yanaşılır. Rayon ərazisində gediş-gəlişin intensiv olduğu ərazilərdə, park və digər ictimai yerlərdə dezinfeksiya işlərinin həyata keçirilməsi diqqətdə saxlanılır. Eyni zamanda əhali arasında sosial məsafənin gözlənilməsi, tibbi maskalardan istifadə edilməsi, şəxsi gigiyena qaydalarına əməl olunması üçün gündəlik reydlər keçirilir, əhali arasında maarifləndirmə və təbliğat işləri aparılır. Bir sözlə, "Hər birimizin sağlamlığı Vətən müharibəsində qələbəmizin rəhnidir" çağırışını rayon sakinləri məsuliyyət və anlamla qarşılayırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## 5 rayonda 20 şəhid ailəsi və Qarabağ müharibəsi əlilinə evlər verilib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən mənzillə təminat proqramının davamı olaraq Quba, Balakən, Naftalan, Xızı, Kürdəmir rayonlarında yeni inşa olunmuş 20 fərdi yaşayış evi şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.





Qubada evlərin təqdim edilməsi tədbirində nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov, Quba Rayon İcra Hakimiyyəti başçısı Ziyəddin Əliyev iştirak ediblər.

Vurğulanıb ki, uğurlu daxili və xarici siyasəti ilə ölkəmizi daim nailiyyətlərə, zəfərlərə doğru aparan Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu bu gün yeni qəhrəmanlıq salnaməsi yazır. Təcavüzkar Ermənistanın işğalından azad edilən kənd və qəsəbələrimizin, şəhərlərimizin sırası daim genişlənir və əldə olunan möhtəşəm qələbələr hər birimizdə sonsuz iftixar hissləri yaradır. Şanlı tarix yazıldığı bu günlərdə şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə dövlətin qayğısı, bu kateqoriyadan olan vətəndaşların mənzil və fərdi evlə təminat proqramı da davam edir.

2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub. İndi 5 rayonda təqdim edilən 20 fərdi ev (o cümlədən Qubada 9, Naftalanda 6, Balakəndə 3, Xızıda 1, Kürdəmirdə 1) də daxil olmaqla, onlardan artıq böyük əksəriyyəti verilib və bu proses qarşıdakı günlərdə də davam edəcək. Ümumilikdə, ötən dövrdə 8318 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara verilib.

Şəhid ailələri və müharibə əlilləri çıxış edərək torpaqlarımızı işğaldan azad edən, düşmənə sarsıdıcı zərbələr vuran ordumuzla, onun gücü, hünər və rəşadəti ilə fəxr etdiklərini bildirib, şəhidlərimizin qanının yerdə qalmadığını, azad olunan Vətən torpaqlarına görə şəhidlərimizin ruhunun da sevindiyini vurğulayıblar. Onlar yüksək qayğı ilə əhatə olunduqlarından razılıqla bəhs edib, bu qayğıya, fərdi evlərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

## KOBİA beynəlxalq tədbirdə iştirak edib

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) nümayəndələri İstanbul Dövlət və Özəl Sektor Tərəfdaşlığı üzrə Kamillik Mərkəzinin təşkilatçılığı və Türkiyənin Xarici İqtisadi Əlaqələr Təşkilatının (DEİK) dəstəyi ilə noyabrın 2-5-də keçirilmiş "5-ci İstanbul Dövlət-Özəl Tərəfdaşlığı Həftəsi - 2020" beynəlxalq tədbirində iştirak ediblər.

Onlayn formatda "Dövlət-Özəl Tərəfdaşlığının (DÖST) birlikdə yenidən formalaşdırılması" mövzusunda təşkil olunmuş builki tədbirə 40-dan çox ölkənin infrastrukturun inkişafı üzrə və DÖST sahəsində fəaliyyət göstərən dövlət qurumlarının və beynəlxalq təşkilatların nümayəndələri, eləcə də müvafiq sektor üzrə peşəkar mütəxəssislər, akademik dairələrin təmsilçiləri qatılıb. Tədbir çərçivəsində KOBİA-nın DÖST İnkişafı Mərkəzi tərəfindən ölkə təqdimatı keçirilib, Azərbaycanda aparılmış islahatlar çərçivəsində yaradılmış güclü iqtisadi potensial, əlverişli biznes və investisiya mühiti, həyata keçirilmiş infrastruktur layihələri və DÖST mühitinin inkişafı istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Həmçinin tədbirdə Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təxribatına cavab olaraq ordumuzun uğurlu əks-hücum əməliyyatları nəticəsində işğaldan azad edilmiş rayonlarda dağıdılmış ictimai infrastrukturun yenidən qurulması üçün DÖST modelindən istifadənin mümkünlüyü diqqətə çatdırılıb.

## Qobustan taxılçıları payızlıq əkini başa çatdırıblar

Torpaqlarımızın azad olunması uğrunda aparılan Vətən müharibəsi şəraitində arxa cəbhədə fədakarlıqla çalışan Qobustan taxılçıları payızlıq əkin kampaniyasını müvəffəqiyyətlə başa çatdırıblar.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a verilən məlumatda bildirilib ki, taxılçılar gələn ilin məhsulu üçün 29 min hektarda səpin aparıblar. Bu göstərici proqnozlaşdırılan həcmdədir. Əkin sahələrinin 19 min hektarı buğda, 10 min hektarı isə arpadır. Səpində yerli şərait üçün daha çox sərfəli olan "Qobustan", "Bezosiya" buğda, "Cəlilabad", "Dəyanətli" arpa sortlarından istifadə olunub. Rayonun əksər ərazilərində, xüsusilə daha çox taxıl əkilən Xilmilli, Qurbancı, Ərəbşahverdi, Təklə, Sündü kənd, Qobustan şəhər icra nümayəndəliklərində bu mühüm kampaniya daha mütəşəkkil aparılıb.

Əkin sahələrinin 70 faizində, xüsusilə daha tez səpin aparılan ərazilərdə normal çıxış alınıb.

# 2050-ci ilə qədər qlobal enerji sektorunda hansı dəyişikliklər baş verə bilər

### Neftə tələbatın azalacağı, elektrik enerjisindən istifadənin artacağı, bərpaolunan enerji mənbələrinin sürətli inkişafı gözlənilir

Dünya karbon emissiyalarının azaldılması istiqamətində irəlilədikcə qlobal enerji sistemi əsaslı şəkildə yenidən qurulur, müştərilərin ehtiyacları əsasında daha da şaxələnir və yanacaq növləri arasında rəqabətin artmasına səbəb olur. Enerji istehlakında yanar faydalı qazıntılardan istifadə tədricən azalır və dünyanın elektrikləşdirilməsi davam etdikcə bərpaolunan enerji mənbələri sürətlə artır. Enerji mənbələrindən istifadə nəticəsində formalaşan emissiyaların davamlı şəkildə azaldılmasını təmin etmək üçün karbon qiymətlərinin əhəmiyyətli dərəcədə artırılması kimi qəti siyasi tədbirlərin görülməsinə ehtiyac yaranır.



BP-nin Enerji Proqnozunun 2020-ci il buraxılışında məhz qlobal enerji sektorunda 2050-ci ilə qədər baş verə biləcək dəyişikliklərdən bəhs olunur. Yeni hesabatda qlobal miqyasda müasir enerji təchizatı metodlarına keçid üçün mümkün yollar, növbəti 30 il ərzində qlobal enerji bazarlarının necə inkişaf edə biləcəyi və onları formalaşdıra biləcək əsas qeyri-müəyyənlik amilləri araşdırılır. Bu hesabatda əvvəlki buraxılışlarla müqayisədə daha 10 il artıq müddət əhatə edilir.

Nəzərdən keçirilən əsas ssenarilərdə qlobal miqyasda enerji tələbatı 2050-ci ilədək olan dövrün ən azı müəyyən hissəsi ərzində artmağa davam edəcək. Bununla belə həmin müddətdə enerji tələbatının strukturu əsaslı şəkildə dəyişəcək: yanar faydalı qazıntıların rolunun azalması bərpaolunan enerji mənbələrinin payının və elektrik enerjisinin əhəmiyyətinin artması ilə kompensasiya edilir.

2020-ci ilin proqnozunda üç əsas ssenaridən istifadə edilərək 2050-ci ilədək müasir enerji təchizatı metodlarına keçid imkanları tədqiq olunur. Əslində, bunlar proqnoz deyil, amma siyasət və ictimaiyyətin üstünlük verdiyi məsələlər barədə alternativ fərziyyələrə əsaslanaraq növbəti 30 il ərzində mümkün nəticələri araşdırmağa kömək etmək məqsədi daşıyır.

Sürət (Rapid) dedikdə karbon tullantılarının qiymətlərində əhəmiyyətli artımından irəli gələn siyasi tədbirlərin görülməsi nəzərdə tutulur. Bu, enerjidən istifadə nəticəsində formalaşan karbon emissiyalarının 2018-ci ilin səviyyələri ilə müqayisədə 2050-ci ilədək təxminən 70 faiz azalmasını təmin edəcək. Sürət ssenarisi 2100-cü ilədək qlobal temperatur artımının sənaye inqilabından əvvəlki səviyyələrdən 2°C aşağı həddə məhdudlaşdırılmasına uyğun ssenarilər ilə tam üst-üstə düşür.

Xalis sıfır (Net zero) dedikdə Sürət ssenarisi üzrə siyasi tədbirlərin istehlakçının davranışında dairəvi və müştərək iqtisadi nümunələrin daha geniş şəkildə tətbiq edilməsi və az karbonlu enerji mənbələrinə keçid kimi ictimaiyyətin üstünlük verdiyi məsələlərdə əhəmiyyətli dəyişikliklərlə gücləndirilməsi nəzərdə tutulur. Bununla 2050-ci ilədək karbon emissiyaları 95 faizdən çox azalacaq. Xalis sıfır ssenarisi temperatur artımının 1,5°C ilə məhdudlaşdırılmasına uyğun silsilə ssenarilər ilə tam üst-üstə düşür.

Adi işgüzar fəaliyyət (Business-as-usual) dedikdə hökumətin siyasətlərinin, texnologiyaların və ictimaiyyətin üstünlük verdiyi məsələlərin son dövrlərdə müşahidə olunan qayda və sürətlə inkişafa davam etməsi nəzərdə tutulur. Bu ssenaridə enerjinin istifadəsi nəticəsində formalaşan karbon tullantıları 2020-ci ilin ortalarında maksimum həddə çatır, lakin 2050-ci ildə emissiyalar 2018-ci ilin səviyyələri ilə müqayisədə 10 faizdən az aşağı olmaqla tullantıların həcmində əhəmiyyətli azalma olmur.

Sürət və Xalis sıfır ssenarilərinin hər ikisində karbon qiymətlərində əhəmiyyətli artım nəzərdə tutulur.

BP-nin baş iqtisadçısı Spenser Deyl demişdir: "Enerji Proqnozunun vəzifəsi enerji sisteminin zaman keçdikcə necə dəyişə biləcəyini qabaqcadan müəyyənləşdirmək və ya proqnozlaşdırmaq deyil. Biz gələcəyi proqnozlaşdıra bilmərik. Odur ki, bu ilin proqnozunda müzakirə edilən bütün ssenarilər yanlış olacaq. Daha doğrusu, proqnozda bu müxtəlif ssenarilər enerji sistemi az karbonlu bir dünyaya keçdikcə üzləşdiyimiz bir sıra qeyri-müəyyənlikləri daha yaxşı başa düşməyə kömək üçün istifadə edilir. Bu qeyri-müəyyənliyi daha yaxşı başa düşməyimiz üzləşə biləcəyimiz müxtəlif nəticələrə qarşı möhkəm və dayanıqlı strategiyanın hazırlanması üçün mühüm bir töhfədir".

Proqnozun əsas mövzularından biri artan enerji tələbatıdır. Hər üç ssenaridə keçid iqtisadiyyatına malik ölkələrdə rifah və yaşayış standartlarının yaxşılaşması nəticəsində qlobal enerji tələbatı artır. Enerji səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlər sürətləndikcə Sürət və Xalis sıfır ssenarilərində proqnozun ikinci yarısında əsas enerji tələbatı sabit dayanır. Adi işgüzar fəaliyyət ssenarisində tələbat proqnoz boyu artmağa davam edir və 2050-ci ilədək təxminən 25 faiz yüksəlir.

Proqnozda əsaslı şəkildə yenidən təşkil edilmiş qlobal enerji sistemləri mövzusu da özünə yer alıb. Belə ki, hər üç ssenaridə qlobal enerji sistemində karbohidrogenlərin payı azaldıqca və dünya ölkələrinin elektrik enerjisindən istifadəsi artıqca, bərpa oluna bilən enerji mənbələrində müvafiq artım müşahidə edildiyindən az karbonlu enerji sisteminə keçid daha müxtəlif enerji balansı ilə nəticələnir. Dəyişikliyin miqyası ssenarilər boyu əhəmiyyətli dərəcədə fərqlənir. Başlıca enerji resurslarında karbohidrogenlərin payı 2018-ci ildə təxminən 85 faizdən 2050-ci ilədək 65-20 faizədək düşür və bərpa oluna bilən enerji mənbələri 20-60 faizə çatır.

Proqnozda neftə tələbatın azalması mövzusu da işıqlandırılıb. Bütün ssenarilərdə neftə tələbatın növbəti 30 il ərzində azalacağı nəzərdə tutulur. Adi işgüzar fəaliyyət ssenarisində 2050-ci ilədək 10 faiz, Sürət ssenarisində təqribən 55 faiz, Xalis sıfır ssenarisində isə 80 faiz. Adi işgüzar fəaliyyət ssenarisində tələbat 2020-ci illərin əvvəllərində sabitləşir, Sürət və Xalis sıfır ssenarilərinin hər ikisində isə neft tələbatı COVID-19 pandemiyasının səbəb olduğu tənəzzüldən sonra heç bir halda tam bərpa olunmur. Neft tələbatının azalması yol nəqliyyatının səmərəliliyinin artması və elektrikləşdirilməsindən irəli gəlir. Hər üç ssenaridə nəqliyyat sektorunda neft məhsullarının istifadəsi 2020-ci illərin ortalarından sonuna doğru ən yüksək səviyyəyə çatır. Nəqliyyat sektorundakı tələbatın təmin edilməsində neftin payı 2018-ci ildəki 90 faizdən Adi işgüzar fəaliyyət ssenarisində təqribən 80 faizə, Sürət ssenarisində 40 faizə, Xalis sıfır ssenarisində isə sadəcə 20 faizə düşür.

"Daha dayanıqlı qaz" mövzusunda bildirilir ki, qazın perspektivlərinə ümumi tələbat və qlobal təchizatdan istifadə imkanlarının artmasına şərait yaradır. Qlobal tələbat ssenarilər boyu əhəmiyyətli dərəcədə fərqlənir. Sürət ssenarisində tələbat 2030-cu illərin ortalarında, Xalis sıfır ssenarisində isə 2020-ci illərin ortalarında ən yüksək həddə çatır. Qeyd edilən hər iki ssenaridə 2050-ci ilədək 2018-ci ilə əsasən oxşar, üçüncü ssenaridə isə müvafiq qaydada, aşağıdır. Adi işgüzar fəaliyyət ssenarisində qaz tələbatı növbəti 30 il ərzində artaraq üçüncü variantda 2050-ci ilədək daha da yüksəlir.

Təbii qaz az karbonlu enerji sisteminə sürətli keçid zamanı iki əhəmiyyətli rolu yerinə yetirmək potensialına malikdir: kömürü əvəz etmək üçün bərpa oluna bilən enerji mənbələrinin və digər qeyri-yanar faydalı qazıntıların kifayət qədər inkişaf edə bilmədiyi və sıfır (sıfıra yaxın) enerji mənbəyi kimi karbonun tutulması, istifadəsi və saxlanılması texnologiyaları (CCUS) ilə birləşdirilə bilmədiyi sürətlə böyüyən, inkişaf edən iqtisadiyyata malik ölkələrdə kömürdən uzaqlaşmağa dəstək verir. Sürət və Xalis sıfır ssenarilərində CCUS texnologiyaları ilə kombinə olunmuş qaz 2050-ci ilədək əsas enerjinin 8-10 faizini təşkil edir.

Külək və günəş enerjiləri bərpaolunan enerji mənbələri sektorundakı sürətli artımın önündədir: bərpaolunan enerji mənbələri bütün ssenarilərdə növbəti 30 il ərzində ən sürətlə inkişaf edən enerji mənbələridir. Bərpaolunan enerji mənbələrinin arasında əsas enerji mənbələrinin payı 2018-ci ildə təxminən 5 faizdən Xalis sıfır ssenarisində 2050-ci ildə 60 faizə, Sürət ssenarisində 45 faizə, BAU ssenarisində isə 20 faiz artır. İşlənmə xərclərinin davamlı azalması ilə şərtlənən bu artımda külək və günəş enerjiləri üstünlük təşkil edir. İşlənmə xəcləri Sürət ssenarisində 2050-ci ildə külək və günəş enerjisi üçün təxminən 30 faiz və 65 faiz, Xalis sıfır ssenarisində 35 faiz və 70 faiz azalır. Artım bərpa oluna bilən enerji gücünün genişlənməsində əhəmiyyətli sürətlənmənin olmasını tələb edir. Sürət və Xalis sıfır ssenarilərində proqnozun birinci yarısında külək və enerji mənbələrinin gücündə orta illik artım 2000-ci ildən bəri təqribən 60 QVt orta illik göstərici ilə müqayisədə müvafiq qaydada 350 QVt və 550 QVt təşkil edir.

Dünyanın elektrikləşdirilməsi davam edir: enerji sistemində karbondan imtina istifadə olunan yekun enerji həcmlərinin elektrikləşməsinin artmasına gətirib çıxarır. 2050-ci ilədək ümumi yekun istehlakda elektrik enerjisinin payı Açıq işgüzar fəaliyyət ssenarisində 2018-ci ildə 20 faizdən bir qədər yüksək göstəricidən 34 faizə, Sürət ssenarisində 45 faizə və Xalis sıfır ssenarisində isə 50 faizdən yuxarı qalxır. Qlobal enerji istehsalının artımında bərpaolunan enerji mənbələri üstünlük təşkil edir.

Hidrogen və bioenerji artımı gözlənilir. Enerji sistemində karbon tədricən azaldıqca, hidrogen və bioenerjinin əhəmiyyəti artır. Sürət və Xalis sıfır ssenarilərində proqnozun ikinci yarısında xüsusilə elektrikləşməsi çətin olan və ya baha başa gələn fəaliyyətlərdə hidrogendən istifadə çoxalır.

Proqnozda dünyanın davamlı olmayan yol ilə hərəkət etmək seçimi qarşısında olması da qeyd edilib. Ssenarilər göstərir ki, karbon tullantılarda sürətli və davamlı azalmaya nail olmaq üçün karbonun qiymətlərində əhəmiyyətli artımın nəticəsində bir sıra siyasi tədbirlərin görülməsinin tələbə çevriləcəyi ehtimal olunur. İctimaiyyətin davranışlarında və üstünlük verdiyi məsələlərdə dəyişikliklərin əsasında bu siyasətlərin əlavə gücləndirilməsinə ehtiyac yarana bilər.

Xatırladaq ki, proqnoz qlobal enerji bazarlarının gələcəyinin nəzərdən keçirilməsi üçün çoxsaylı mənbələrdən yalnız biridir və BP özünün uzunmüddətli strategiyasını tərtib edərkən geniş sayda digər təhlilləri və informasiyanı da nəzərdən keçirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hadisələri Azərbaycandan işıqlandırarkən məni ən çox təəccübləndirən insanların qətlə yetirilməsinə və dağıntılara baxmayaraq, əhali arasında müharibəyə davamlı dəstəyin olması idi.

AZƏRTAC xəbər verir ki, bu fikir ABŞ-ın "VICE News" kanalının jurnalisti Hind Hassanın "Instagram" səhifəsindəki paylaşımında yer alıb.

Jurnalist insanların hətta öz övladlarını dəfn etdikləri zaman belə hərbi əməliyyatların dayandırılmasını istəmədiklərinin şahidi olduqlarını yazır. O qeyd edir ki, insanlar 27 ildir aparılan diplomatik danışıqların nəticəsiz qaldığını, Ermənistanın işğalı altında olan Dağlıq Qarabağdan və onu əhatə edən rayonlardan didərgin düşmüş 700 mindən çox azərbaycanlının öz ata-baba yurdlarına geri qayıtmalı olduqlarını bildirirlər.

Jurnalist Ermənistanın Gəncəyə raket hücumu zamanı həlak olmuş 10 aylıq Narının atası Timur Xaliqovun körpəsinin paltarını əlində saxladığı fotonu paylaşıb.

Həmçinin o, Gəncə ilə yanaşı, Tərtər şəhərinə də raket zərbələri nəticəsində dağılmış evlərin, qətlə yetirilmiş insanların yaxınlarının şəkillərini paylaşıb.



Misirin "Almasralyoum", "Alwasela", "Aldiplomasy", "Nİle1" və "Garbnews" informasiya portalları Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün "Twitter" hesabında şanlı ordumuzun daha 7 kəndi işğaldan azad etməsi ilə bağlı paylaşımına dair informasiyalar yayıb.

AZƏRTAC-a istinadla yayılan xəbərlərdə vurğulanıb ki, Azərbaycanın dövlət başçısı müzəffər Azərbaycan Ordusunun Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etdiyini bəyan edib.

İnformasiya portallarında yayılan xəbərlərdə qeyd edilib ki, beynəlxalq təşkilatların müraciətləri və humanitar atəşkəs razılaşmalarına rəğmən, Ermənistan silahlı qüvvələri şəhər və kəndlərə, dinc əhaliyə və mülki obyektlərə raket hücumlarını davam etdirir.



Gürcüstanın nüfuzlu report.ge və 24news.ge informasiya portalları Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dünyanın aparıcı KİV-inə müsahibələrindən materiallar yaymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin müsahibələrinə istinadən yayılan materiallarda deyilir: "Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını, demək olar ki, 30 il idi gözləyirdik. Bildiyiniz kimi, bütün bu müddət ərzində Azərbaycan danışıqlar prosesinə ciddi şəkildə sadiq olub. Lakin əfsuslar olsun ki, bu, hər hansı əhəmiyyətli nəticə vermədi. Bundan əlavə, son bir neçə ildə Ermənistan rəhbərliyi öz bəyanatları və əməlləri, o cümlədən hərbi təxribatları ilə bizi hər zaman təhrik edirdi. Sonuncusu sentyabrın 27-də baş verdi. Biz cavab verməli olduq və bizim cavabımız Ermənistan üçün çox həssas idi. Biz qələbədən danışarkən qarşımıza belə bir hədəf qoymamışdıq. Biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik".

Digər bir məlumatda Azərbaycan Prezidentinin erməni mifini necə ifşa etdiyi əksini tapıb: "Ermənilər Gəncə və Bərdə şəhərlərində terror hadisəsi törətməklə xalqı qorxutmağa çalışırdılar, lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər".

Daha bir məlumat isə Ali Baş Komandanın özünün "Tvitter" səhifəsində etdiyi paylaşımla əlaqədardır.

Mətbuat dövlət başçısına istinadən müzəffər ordumuzun daha bir neçə yaşayış məskənini düşmən işğalından azad etməsi barədə oxuculara məlumat çatdırır.

Həmin materiallar oxuculara Azərbaycan, rus, ingilis və gürcü dillərində çatdırılır.




Özbəkistan portalları Azərbaycan Prezidenti İlham Əliyevin İtaliyanın "La Repubblica" qəzetinə müsahibəsi və müharibə mövzusu ilə bağlı digər məqalələr verib.

"daryo.uz" portalı yazır ki, dövlət başçısı İlham Əliyev müsahibədə 30 ilə yaxın davam edən danışıqların heç bir nəticə verməməsi, Ermənistanın son təxribatları, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində aparılan müharibə, torpaqlarımızın böyük bir hissəsinin işğalçılardan azad edilməsi və digər məsələlər haqqında məlumat verib.

Dövlət başçısı deyib: "Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu onu göstərir ki, o, müharibənin dayanmasını istəmir".

"orol24.uz" portalı bildirir ki, "Human Rights Watch" təşkilatı Ermənistanı qadağan olunmuş kasset bombalarından istifadə etməkdə günahlandırıb. Yazıda bildirilir ki, Bərdə şəhərinə atılan "Smerç" kasset bombası nəticəsində 21 adam həlak olub, 70-dən artıq insan yaralanıb, şəhərdə xeyli dağıntı var.




Ukraynanın "UA-Perşiy" Milli İctimai Televiziya Kanalı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tərtər şəhərinə raket hücumu barədə xüsusi reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, telekanalın çəkiliş qrupu reportajda xüsusilə Ermənistan tərəfindən Tərtərdə Azərbaycanın dinc sakinlərinə qarşı fosforlu mərmilərdən istifadə edildiyini vurğulayıb. Tərtərdə partlamayan fosforlu mərmilərin Azərbaycan tərəfindən zərərsizləşdirildiyi diqqətə çatdırılıb.

Telekanalın jurnalisti vurğulayıb ki, Ermənistan bununla beynəlxalq konvensiyalarda qadağan olunmuş silahlardan istifadə edib.

Reportajda müharibə ilə əlaqədar Tərtər rayonundakı vəziyyətdən də söz açılıb.




"Voltairenet" portalında "Nikol Paşinyan müxalifəti neytrallaşdırır" sərlövhəli yazı dərc olunub.

AZƏRTAC xəbər verir ki, yazıda 2018-ci ilin mayında Corc Soros fondunun dəstəyi ilə təşkil olunan dövlət çevrilişi nəticəsində hakimiyyətə gələn Ermənistanın baş naziri Nikol Paşinyanın müharibədən istifadə edərək müxalifəti neytrallaşdırdığı bildirilir.

Qeyd olunur ki, o, bu məqsədlə Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru (2018-2019) və müxalifətin lideri general Artur Vanetsyanın cəbhədə həbs olunması əmrini verib.

Vurğulanır ki, Corc Sorosun tərəfdarları onu xaricə casusluq etməkdə günahlandırırlar.



Özbəkistanın "fikr.uz" portalı "Azərbaycanın işğal edilmiş ərazilərində Ermənistanın "VoMa" adlı terror təşkilatı yaradılması ilə bağlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın Baş Prokurorluğunun Dövlət Təhlükəsizliyi Xidmətinin materiallarına əsasən işğal olunmuş ərazilərdə "VoMa" adlı terror təşkilatı yaratmaları ilə əlaqədar Ermənistan vətəndaşı Vladimir Vartanov və digərləri haqqında cinayət işi açdığı bildirilib.

Yazıda qeyd olunur ki, terror təşkilatı 2014-cü ildə Azərbaycanda və işğal edilmiş ərazilərdə terror aktları törədilməsi məqsədilə yaradılıb. Təşkilata Ermənistandan kənarda yaşayan erməni mənşəli şəxslər, həmçinin ASALA, PKK və digər terror təşkilatlarının nümayəndələri cəlb olunub və o, rəsmən "VoMa" batalyonu adlandırılıb.

Müəyyən edilib ki, terror təşkilatının üzvləri Ermənistan ordusunun silah-sursatından istifadə edərək Azərbaycanın cəbhə xəttinə yaxın şəhər və rayonlarında dinc əhaliyə qarşı terror aktları törədib.



Misirin geniş oxucu kütləsinə malik olan "Gomhuriaonline" informasiya portalı ordumuzun torpaqları işğaldan azad etməsi üzrə əməliyyatın gedişi haqqında Azərbaycan Müdafiə Nazirliyinin son məlumatlarını yayıb.

AZƏRTAC xəbər verir ki, portalın xəbərində cəbhənin Xocavənd istiqamətindəki döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının mövqelərindəki yeraltı sığınacaqların atəşə tutulması nəticəsində xeyli sayda şəxsi heyətin, o cümlədən motoatıcı alayın komandiri polkovnik Qor İşxanyanın məhv edilməsi, Ağdərə istiqamətində yerləşən Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının müdafiə zolağında düşmənin bir neçə tankının sıradan çıxarılması barədə məlumatlar yer alıb.

Portalın xəbərində həmçinin cəbhənin cənub sahəsində Azərbaycan Ordusunun guya üç tankının vurulması barədə Ermənistan tərəfinin yaydığı məlumatın tamamilə yalan olması barədə Müdafiə Nazirliyinin bəyanatı yayılıb.




Almaniyanın "Tekk.tv" portalında "Fransanın faşist qrupunun lideri Ermənistan üçün müharibə aparmağa and içir" adlı məqalə dərc olunub.

Məqalədə vurğulanır ki, Fransanın neonasist sağçı qrupunun (ZVP) lideri Mark de Kakkere-Valmenir azərbaycanlılara qarşı vuruşmaq üçün Dağlıq Qarabağdakı erməni əsgərlərinə qoşulub. Həmin şəxs hərbi formada əlində silahla sosial mediada şəkil paylaşıb. Onun müharibədə iştirakı PKK terrorçu təşkilatının və sağçı ekstremist Avropa qruplaşmalarının nümayəndələrinin də Ermənistan tərəfində vuruşmağa başladıqlarını deməyə əsas verir. Azərbaycanın silahlı qüvvələri tərəfindən əsir götürülmüş A.Mikaelyan adlı erməni əsgəri Dağlıq Qarabağda erməni əsgərlərinin sırasında PKK terrorçularının da vuruşduqlarını etiraf edib.



Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Avropa Komissiyasının videoformatda keçirilən 130-cu nazirlər toplantısında çıxış edib.

AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, Mövlud Çavuşoğlu Avropa İnsan Haqları Məhkəməsinin (AİHM) siyasi məqsədlər üçün istifadə edilməsinin yolverilməzliyini bildirib. Nazir deyib: "Azərbaycanın ərazi bütövlüyü üçün hər birinizi "amma, əgər" demədən səsinizi çıxarmağa çağırıram. İkili standartlar olmamalıdır. Gürcüstan və Ukraynanın ərazi bütövlüyü və suverenliyini necə müdafiə ediriksə, Azərbaycanın da haqlarını eyni qaydada qorumalıyıq. Azərbaycan, sadəcə olaraq, beynəlxalq səviyyədə tanınmış ərazilərinə nəzarəti bərpa etmək istəyir".

Azərbaycanın fəaliyyətinin BMT Təhlükəsizlik Şurası, ATƏT və Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) qərar və qətnamələrinə, xüsusilə də AŞ PA-nın 2005-ci ildə qəbul etdiyi 1416 nömrəli qətnaməyə uyğun olduğunu diqqətə çatdıran türkiyəli nazir deyib ki, Ermənistan işğala son qoymalı, mülki azərbaycanlı əhalini hədəfə aldığına və atəşkəs razılaşmasını pozaraq hücumlar etdiyinə görə məsuliyyət daşımalıdır.

Türkiyənin terrorizmin bütün təzahürlərinə və zorakılığa qarşı olduğunu ifadə edən Mövlud Çavuşoğlu deyib: "Terrorizmdən ən çox əziyyət çəkən ölkə olaraq Türkiyə Fransada və Avstriyada günahsız insanların ölümünə səbəb olan terror aktlarını qınayır. Eyni zamanda, aralarında müəllimlərin də olduğu minlərlə mülki vətəndaşımızı qətlə yetirən PKK terroruna qarşı da eyni həmrəyliyi gözləyirik".



Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir. Biz bir millət, iki dövlətik. Haqlı mübarizəsində Azərbaycana dəstək vermək mənəvi borcumuzdur. Haqq və ədalət Azərbaycan Ordusunun şanlı mübarizəsinə əlavə güc verir. İnşallah, şanlı Azərbaycan Ordusu Qarabağı, işğal altındakı torpaqları ən qısa zamanda tam şəkildə yağıdan azad edəcək. Bu, hər birimizin intizarla gözlədiyi hadisədir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ankara Musiqi və İncəsənət Universitetinin rektoru, professor Erol Parlak ifadə edib.

Rəhbərlik etdiyi ali təhsil ocağının hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdıran rektor deyib: "Tarixdə baş verənlər nəsillər üçün ibrətdir. Türkiyənin hər yerində Azərbaycana böyük mənəvi dəstək göstərilir. Biz də dünənimizə, bugünümüzə və gələcəyimizə işıq saçan bu prosesə özünəməxsus şəkildə töhfə verdik. Azərbaycan və Türkiyənin dövlət bayraqlarını yağlı boya ilə kətan üzərinə çəkib birləşdirməklə birliyimizi tərənnüm edən canlı bir formul ortaya qoyduq".

Xatırladaq ki, diplomatların, beynəlxalq təşkilatların rəhbərlərinin, görkəmli ziyalıların iştirakı ilə Ankara Musiqi və İncəsənət Universitetində oktyabrın 3-də Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini qınamaq, eləcə də müzəffər ordumuza dəstək məqsədilə bədii proqram təşkil olunub.



Bütün qəlbimizlə Azərbaycanın yanındayıq. Azərbaycanın haqlı mübarizəsinə siyasi, mənəvi dəstək vermək borcumuzdur. Ötən günlərdə bütün dünya gördü ki, rəşadətli Azərbaycan Ordusu böyük gücə qadirdir. Azərbaycanın ərazi bütövlüyünün bərpası və yurd-yuvasından didərgin düşən azərbaycanlıların öz evlərinə dönməsi arzumuz, istəyimiz və tələbimizdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sabiq rəhbəri, Ankara Universitetinin rektoru, professor Necdət Ünüvar ifadə edib.

Şanlı Azərbaycan Ordusunun ən qısa zamanda Qarabağı və işğal altındakı digər əraziləri düşməndən azad edəcəyinə əminliyini ifadə edən rektor Necdət Ünüvar deyib: "Bir millət, iki dövlət olmağımız düşüncəmizdə və əməlimizdə reallığı göstərən gerçəklikdir. Qarabağ məsələsində hər zaman Azərbaycanla həmrəy olmuşuq. Ən yaxın zamanda qələbə xəbərləri gözləyirik. Şanlı Azərbaycan Ordusu bu sevinci bizlərə yaşatmaq üçün əzmkar döyüş yolu keçir".



Azərbaycanın Yaponiyadakı səfirliyində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana qarşı son təcavüzü mövzusunda Yaponiya ictimaiyyətinin məlumatlandırılması məqsədilə növbəti tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Yaponiyada yüksək nüfuza malik olan "The International Friendship Exchange Council" (FEC) təşkilatı üçün təşkil olunan tədbirdə bu təşkilatın prezidenti Ken Matsuzava və digər rəhbər üzvləri iştirak ediblər. Qeyd edək ki, FEC təşkilatının rəhbər heyətinə Yaponiyanın ictimai-siyasi dairələrinin, kütləvi informasiya vasitələrinin nümayəndələri və sabiq diplomatlar daxildirlər.

Tədbirdə çıxış edən səfir Gürsel İsmayılzadə Azərbaycan, onun tarixi, coğrafi mövqeyi, müstəqilliyinin bərpasından sonra əldə edilən uğurlar barədə ətraflı məlumat verib. 1918-1920-ci illərdə müsəlman dünyasında ilk parlament respublikası modeli əsasında qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) çoxpartiyalı demokratik dövlət olduğunu vurğulayıb. 1991-ci ildə dövlət müstəqilliyini bərpa edən ölkəmizin qarşılaşdığı çətinliklərdən bəhs edib. Müasir Azərbaycan Respublikasının bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətçiliyin inkişafı yolunda inamla addımladığını, ölkədə davamlı siyasi-iqtisadi islahatların həyata keçirildiyini vurğulayıb. Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmizin son illərdə qazandığı böyük uğurlar barədə ətraflı məlumat verib, o cümlədən iqtisadiyyat, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən və gələcəkdə nəzərdə tutulan müxtəlif layihələr barədə ətraflı danışıb.

1918-1920-ci illərdə mövcud olmuş AXC-nin xəritəsini nümayiş etdirən səfir, keçmiş Sovet İttifaqının hakimiyyəti tərəfindən ölkəmizin tarixi torpaqları olmuş Zəngəzurun və digər ərazilərin Ermənistana verildiyini bildirib. Qeyd edib ki, 1920-ci ildə yaradılan Ermənistan Respublikasının əhalisinin 500 minini azərbaycanlılar təşkil etsə də, Sovet İttifaqı dövründə onlar tədricən buradan ya köçürülüb, ya da qovulublar. 1988-ci ildə başlayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə danışan diplomat 1991-1994-cü illərdə davam edən döyüşlər, Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri haqqında geniş məlumat verib. Bu xüsusda ermənilərin törətdiyi Xocalı soyqırımından danışıb.

Ermənistanın Azərbaycana qarşı cari il sentyabrın 27-də başlanan son təxribatı haqqında geniş məlumat verən səfir bildirib ki, həmin tarixdə Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan Ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlardan atəşə tutub. Vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin mülki insanların sıx şəkildə yaşadığı yerləri intensiv şəkildə atəşə tutması nəticəsində mülki əhali və hərbi qulluqçular həlak olub və yaralanıb, çoxsaylı evlərə və mülki obyektlərə ciddi ziyan dəyib.

G.İsmayılzadə qeyd edib ki, Ermənistan terrorçu qüvvələrinin məhz mülki əhalinin sıx yaşadığı yerlərə məqsədyönlü atəşləri nəticəsində bugünədək 91 nəfər azərbaycanlı mülki şəxs qətlə yetirilib, iki yüzdən artıq insan yaralanıb, minlərlə yaşayış binası və mülki obyektlər dağıdılıb.

Səfir bildirib ki, Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncə, sənaye şəhəri olan Mingəçevir, habelə Azərbaycanın digər rayonlarında əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri və mühüm əhəmiyyətli infrastrukturun Ermənistan ərazisindən məqsədyönlü şəkildə raket hücumlarına tutulması hərbi əməliyyatlar zonasını genişləndirmək və münaqişəyə üçüncü ölkələri cəlb etmək məqsədi güdən təxribatdır. Oktyabrın 27-28-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə rayonuna "Smerç" yaylım atəşli reaktiv sistemdən atılan raketlər nəticəsində 25 nəfər mülki şəxs, o cümlədən azyaşlı uşaq həyatını itirib və aralarında uşaqlar və qadınlar olmaqla 70-dən çox insan ciddi xəsarət alıb.

ATƏT-in Minsk qrupunun həmsədrlərinin iki ölkə arasında münaqişənin həlli istiqamətində fəaliyyəti haqqında məlumat verən səfir BMT-nin Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 4 qətnaməni də xatırladıb. Qeyd edib ki, ATƏT-in Minsk qrupu 28 illik fəaliyyəti nəticəsində münaqişənin həlli istiqamətində heç bir nəzərəçarpacaq addım atmayıb. Qətnamələr Azərbaycanın işğal olunmuş ərazilərindən erməni işğalçı qüvvələrin dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etsə də, 27 il ərzində bu qətnamələrin tələbləri yerinə yetirilməyib.

G.İsmayılzadə vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan ordusunun dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına dair tələbləri yerinə yetirmədiyinə görə dünya dövlətləri, o cümlədən Yaponiya tərəfindən təzyiqin göstərilməməsi nəticəsində özünü cəzasız hiss edən Ermənistan yeni təxribatlar törədir.

Çıxışının sonunda Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinə toxunan səfir qeyd edib ki, ölkələrimiz arasındakı münasibətlər ümumi maraqlar, qarşılıqlı anlaşma və hörmət prinsiplərinə əsaslanır. İki ölkə arasındakı dostluq münasibətləri və iqtisadi əməkdaşlıq davamlı inkişaf edir. Ölkələrimiz enerji sektoru da daxil olmaqla, digər sahələrdə sıx əməkdaşlıq edir. Azərbaycan və Yaponiya arasında qarşılıqlı maraq kəsb edən müxtəlif sahələri əhatə edən sıx əlaqələr mövcuddur.

Tədbirdə çıxış edən FEC təşkilatının prezidenti Ken Matsuzava münaqişə barədə ətraflı məlumata görə minnətdarlığını bildirib. Döyüşlər zamanı həlak olmuş mülki əhali və hərbçilərin ailələrinə başsağlığının çatdırılmasını xahiş edən təşkilatın rəhbəri yaralanmış insanların tezliklə sağalmasını arzuladığını söyləyib.

Azərbaycan-Yaponiya ikitərəfli münasibətlərinin inkişafına səfir G.İsmayılzadənin xüsusi töhfələr verdiyini vurğulayan K.Matsuzava onun bundan sonra da iki ölkə arasında əməkdaşlığın genişləndirilməsi üçün çalışacağına əmin olduğunu bildirib.

Azərbaycan və Yaponiya arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini qeyd edən FEC prezidenti əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən turizm, kənd təsərrüfatı, tibb, nəqliyyat sahələrində genişləndirilməsi üçün ölkələrimizin böyük potensiala malik olduğunu bildirib.




Meksikanın nüfuzlu "El Economista" və "Pulse News Mexico" qəzetlərində Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistanın sentyabrın 27-dən etibarən törətdiyi müharibə cinayətləri barədə məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, ölkəmizin Meksikadakı səfiri Məmməd Talıbovun bu mətbu orqanlara müsahibələri əsasında hazırlanmış yazılarda Dağlıq Qarabağın, bəzi KİV-də qeyd olunduğu kimi, mübahisəli ərazi deyil, Azərbaycanın beynəlxalq qaydada tanınmış və ətraf 7 rayonla birlikdə 30 ilə yaxındır Ermənistan tərəfindən işğal edilmiş ərazisi olduğu diqqətə çatdırılır. Bildirilir ki, bu ərazilərdən 1 milyona yaxın azərbaycanlı qovularaq məcburi köçkünə çevrilib.

Yazılarda BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi qətnamələrin işğal altındakı ərazilərin dərhal və qeyd-şərtsiz azad olunmasını tələb etdiyi, lakin bu günədək Ermənistanın bu sənədlərə məhəl qoymadığı vurğulanır. Münaqişənin həlli üzrə Minsk qrupu çərçivəsində aparılan danışıqlarda da Ermənistanın davamlı şəkildə qeyri-konstruktiv mövqe göstərməsi səbəbindən heç bir nəticə əldə edilmədiyi bildirilir.

"Ermənistanın hərbi-siyasi rəhbərliyinin, xüsusilə də baş nazir Paşinyanın son iki il ərzindəki daha aqressiv yanaşması, Dağlıq Qarabağ və ətraf rayonların Ermənistana aid olduğuna dair bəyanatları, habelə işğal altındakı əraziləri birdəfəlik ilhaq etmək, hətta mümkün olarsa, yeni ərazilər zəbt etmək məqsədinin açıq-aydın ifadə olunduğu açıqlamaları səbəbindən danışıqlar prosesinin tamamilə pozulub", - deyə məqalələrdə vurğulanır. Həmçinin sentyabrın 27-dən başlayan döyüşlər zamanı Ermənistanın təkcə Azərbaycan Ordusunun hərbi mövqelərini deyil, həm də mülki azərbaycanlı əhalini hədəfə aldığı bildirilir.

Eyni zamanda, yazılarda qeyd olunur ki, Azərbaycan silahlı qüvvələri mülki vətəndaşların təhlükəsizliyini təmin etmək və işğalda olan ərazilərimizi azad etmək məqsədilə əks-hücum əməliyyatları aparır, bunu birmənalı şəkildə öz suveren ərazilərimiz çərçivəsində həyata keçirir.

Ermənistanın münaqişəyə etnik və dini don geyindirmək cəhdləri göstərdiyi, habelə Türkiyənin münaqişədə hərbi iştirakı ilə bağlı yaydığı xəbərlərin saxta olduğu deyilir.

Bildirilir ki, regionda davamlı sülh və təhlükəsizliyə başlıca təhdid Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində mövcudluğudur.

Həmçinin çoxmillətli ölkə olan Azərbaycanın Dağlıq Qarabağda yaşayan mülki ermənilərlə heç bir problem yaşamadığı, hazırda paytaxt Bakıda 30 minə qədər erməninin yaşadığı, Ermənistan ordusunun işğal olunmuş əraziləri tərk etməsindən sonra hər iki xalqın nümayəndələrinin birgə yaşaya biləcəyi oxucuların diqqətinə çatdırılır.




Moldovanın "Tribuna", NOİ.MD, AVA.MD, İPN.MD və "Timbul" informasiya portalları Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanovun Ermənistanın işğal etdiyi ərazilərimizdə mədəni-dini abidələrin dağıdılmasına dair rumın və rus dillərində məqaləsini yayıblar.

AZƏRTAC xəbər verir ki, "Azərbaycanın Qarabağdakı məscidlərində 30 ildir donuzlar saxlanılır" sərlövhəli məqalədə səfir işğal altındakı ərazilərimizdə olan 67 məsciddən 63-nün tam dağıdıldığını, 4-nün isə qismən məhv edildiyini vurğulayıb.

Q.Osmanov qeyd edib ki, yalnız beynəlxalq təşkilatların təzyiqi nəticəsində Ağdamdakı Cümə məscidinin, Aşağı və Yuxarı Gövhərağa məscidlərinin, Şuşadakı Saatlı məscidinin divarları qorunub saxlanılıb. Buna baxmayaraq, bu gün ermənilərin ədəbsizliyinin və azərbaycanlılara nifrətinin təcəssümü olaraq onların içərisində donuz və mal-qara saxlanılır.

"Eyni zamanda, işğal olunmuş ərazilərdəki çay, göl, kənd və şəhər adları erməniləşdirilib. Erməni vandalizminin əli ilə Şuşada və digər rayonlarda Pənahəli xan tərəfindən tikdirilmiş qala və istehkamlar dağıdılıb, Natəvanın evi qəzalı vəziyyətə düşüb. İşğalçılar abidələri erməni memarlığının nümunələri kimi təqdim etmək məqsədilə xarici görünüşünü dəyişdirib, qədim dini tikilili dağıdıb. Onlar Ağdərə, Laçın və Kəlbəcər rayonlarında alban tikililərinə qarşı da eyni vəhşilikləri ediblər. Erməni vandalları tərəfindən Azərbaycanın müasir milli heykəltəraşlığının bəhrələndiyi Laçın və Kəlbəcər rayonlarında bir çox qədim heykəllər, daş qoç fiqurlar və atlar məhv edilib", - deyə Q.Osmanov məqaləsində yazıb.

Səfir qeyd edib ki, Ermənistan tərəfindən mədəni-dini abidələrimizin məhv edilməsi "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası, "Arxeoloji irsin qorunması haqqında" 1992-ci il Avropa Konvensiyası və "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında" 1972-ci il UNESCO Konvensiyasının tələblərinə birbaşa ziddir.

"Ermənistanın Azərbaycan xalqının mədəni irsini məhv etməyə və saxtalaşdırmağa yönəlmiş fəaliyyəti bütün bəşəri mədəniyyətə təcavüzdür. Nəhayət erməni vandalları bu hərəkətlərinə görə cavab verməli, cəzalandırılmalı və dünya ictimaiyyəti bu faktı diqqətdən kənarda qoymamalıdır", - deyə səfir əlavə edib.

# Bu ilin doqquz ayında 3 ton 806 kiloqram narkotik vasitə və psixotrop maddə dövriyyədən çıxarılıb

Bu ilin doqquz ayında aidiyyəti orqanlar tərəfindən (ötən ilin müvafiq dövrü ilə müqayisə etməklə) narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı aparılmış mübarizə tədbirlərinin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunda təhlil olunaraq ümumiləşdirilib.

İşçi Qrupundan AZƏRTAC-a bildiriblər ki, bu ilin doqquz ayında narkotiklərlə mübarizə sahəsində 4195 (535 və ya 12,8 faiz) fakt aşkarlanıb. Onlardan 1507-si (436) narkotik vasitələrin qanunsuz satışı, 2309-u (19) narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 317-si (56) qanunsuz olaraq narkotik xassəli bitkiləriin kultivasiya edilməsi, 62-si (24) isə digər cinayətlərlə bağlı olub. Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən müsadirə olunan 3 ton 806 kiloqram 356,5 qram (1 ton 831,7 kiloqram) narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 297 kiloqram 293,6 qramını (1 ton 483,4 kiloqram) heroin (60,4 faiz), 848 kiloqram 997,8 qramını (163,8 kiloqram) marixuana (22,3 faiz), 267 kiloqram 258,7 qramını ( 19,7 kiloqram) tiryək (7 faiz), 90 kiloqram 377,2 qramını (68,9 kiloqram) həşiş (2,4 faiz), 394 qramını (3,5 kiloqram) kokain (0,01 faiz) narkotik vasitələr, 302 kiloqram 035,2 qramını (99,3 kiloqram) psixotrop maddələr və digərləri (7,9 faiz) təşkil edib.

Həmçinin hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər və Kənd Təsərrüfatı nazirlikləri, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 2513 (111 hektar) hektar sahədən çəkisi 152 ton 791 kiloqram 035,6 qram (25 ton 946 kiloqram 106 qram) olan 414 min 644 ədəd (166 min 680) yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyənləşdirilərək müvafiq qaydaya uyğun olaraq məhv edilib.

Ötən doqquz ay ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərə görə cinayət məsuliyyətinə 3105 (487) nəfər cəlb edilib. Onlardan 16-18 yaşadək 4 nəfər, 18-25 yaşadək 251 nəfər, 26-29 yaşadək 526 nəfər, 30 yaş və ondan yuxarı isə 2308 nəfər təşkil edib. Məsuliyyətə cəlb olunanlardan 16-sı əvvəllər xüsusi qeydiyyatda olan, 891-i əvvəllər cinayət törətmişlər, 2135-i işləməyən, 3045-i kişilər, 60-ı qadınlar, 61-i isə xarici ölkə vətəndaşı olub.

Məsuliyyətə cəlb edilmiş 61 xarici ölkə vətəndaşından 34-ü İran İslam Respublikası, 10-u Gürcüstan, 13-ü Rusiya, 2-si Qazaxıstan, 1-i Pakistan və 1-i Ukrayna vətəndaşı olub. Onlardan çəkisi 767 kiloqram 292 qram müxtəlif növ narkotik vasitə, 18 kiloqram 394,2 qram psixotrop maddə, 165 qram güclü təsir edən maddə, 98 kiloqram 028,7 qram (635 ədəd) çətənə bitkisi götürülüb.

Hesabat dövründə hüquq-mühafizə orqanları tərəfindən narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 198 fakt aşkarlanıb, faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 197,9 kiloqram müxtəlif növ narkotik vasitə, 6 kiloqram 501,4 qram psixotrop maddə, 2 kiloqram 651 qram prekursor çıxarılıb. Ümumilikdə aşkar edilmiş cinayətlərin 305-i qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 1 ton 252,4 qram narkotik vasitələr müsadirə edilib. Qeydə alınmış cinayətlərin 1252-si əvvəllər cinayət törətmiş şəxslər tərəfindən törədilib və onlardan çəkisi 435,1 kiloqram müxtəlif növ narkotik vasitələr götürülüb.

Təhlil göstərir ki, ötən ilin doqquz ayı ilə müqayisədə cari ilin müvafiq dövründə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkarlanan faktların sayı 536, qanunsuz satışı ilə bağlı faktların sayı 437, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 56, qrup şəklində törədilmiş cinayətlərin sayı 251 fakt, ümumilikdə aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 1 ton 831 kiloqram 734,4 qram, yabanı halda müəyyənləşdirilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 25 ton 946 kiloqram 106 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 487 nəfər artıb. Bununla yanaşı, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı 12, azyaşlıların sayı 4, qadınların sayı 9 nəfər azalıb. Orta məktəb şagirdləri və kollec tələbəsi məsuliyyətə cəlb edilməyib. Qeyd olunanlarla yanaşı, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitə olan heroinin çəkisi 1 ton 483,4 kiloqram, marixuananın çəkisi 163,8 kiloqram, həşişin çəkisi 68,9 kiloqram, tiryəkin çəkisi 19,7 kiloqram, psixotrop maddələr və digərlərinin çəkisi 99,3 kiloqram artıb, kokainin çəkisi 3,6 kiloqram azalıb.

Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin 2019-cu il dekabrın 31-nə olan məlumatına əsasən, mərkəzdə qeydiyyatda 32921 nəfər narkotik istifadəçisi vardır ki, onlardan 27574 nəfəri dispanser, 5347 nəfəri profilaktik qeydiyyatda olanlardır. Qeydiyyatda olanlardan 641 nəfəri qadın, 249 nəfəri toksikoman, 22871 nəfəri (512 nəfər qadın) inyeksion narkotik istifadəçiləridir.

Hesabat dövründə Publik Hüquqi Şəxsin sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinədən 24499 nəfər keçirilib. Onlardan 4283 nəfər narkotik vasitələrin istifadəsinə görə müayinə olunub, 2570 nəfər istifadəçi aşkarlanıb və müvafiq qeydiyyata götürülüb.

Ötən doqquz ayda Publik Hüquqi Şəxsin metadonla əvəzedici terapiya proqramı üzrə fəaliyyət göstərən üç məntəqədə proqram çərçivəsində Respublika QİÇS-lə Mübarizə Mərkəzində 370, Respublika Narkoloji Mərkəzində 174, Sumqayıt şəhər Narkoloji Dispanserində 84 olmaqla 628 nəfər xəstə müalicə alır. Bu dövrdə 2701 nəfər Publik Hüquqi Şəxsin Ambulator məcburi narkoloji tibbi yoxlamadan keçib. Onlardan 1816 nəfərə narkomaniyadan məcburi müalicə təyin edilib. Səhiyyə Nazirliyi QİÇS-lə Mübarizə Mərkəzinin məlumatına əsasən, bu ilin 9 ayında İİV-ə 397 nəfər yoluxub, onlardan 390-ı Azərbaycan Respublikası vətəndaşıdır.

Ümumilikdə 1988-ci ildən İİV-infeksiyası aşkar olunmuş 8526 nəfərdən (6112 kişi, 2434 qadın) 3344 nəfəri inyeksion narkotik istifadəçisi olublar ki, onların da 2620 nəfəri (78,8 faiz) dispanser qeydiyyatına götürülüb. Qeydiyyatda olanların 8237 nəfəri Azərbaycan Respublikası (5904 nəfər kişi, 2333 qadın ), 289-u (208 kişi, 81 qadın) əcnəbi vətəndaşlardır.

Bu il sentyabrın 31-dək ümumilikdə qeydiyyatda olanların 6255 nəfəri Qazanılmış İmmun Çatışmazlığı Sindromunun (QİÇS) daşıyıcısıdır. Onlardan 2230 nəfəri inyeksion narkotik istifadiçiləridir. Bu ilin ötən dövründə anti retro terapiyaya cəlb olunan 409 pasiyentdən 60 nəfəri inyeksion narkotik istifadəçisidir. 1988-ci ildən etibarən İİV-infeksiyasından dünyasını dəyişmiş vətəndaşların ümumilikdə sayı 1108 nəfər olub.

Xüsusi olaraq qeyd olunmalıdır ki, ölkədə İİV-ə narkomanların yeni yoluxma sayında azalma müşahidə olunur. 2020-ci ilin doqquz ayında aşkarlanmış 390 nəfər İİV-ə yoluxmuş Azərbaycan vətəndaşının 54 (13,9 faizi) nəfəri inyeksion narkotik istifadəçisi olub.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən cari ilin 9 ayında müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində məqsədyönlü işlər görülüb, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində fəaliyyət göstərən qurumların koordinasiyası təşkil edilib, birgə əməkdaşlıq fəaliyyəti nəticəsində ictimai maarifləndirmə tədbirləri həyata keçirilib.

Dövlət Proqramının 4.1.23-cü bəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən illik hesabat hazırlanıb. 26 iyun - Narkotik vasitələrin sui-istifadəsi və qanunsuz dövriyyəsi ilə Beynəlxalq Mübarizə Günü ilə əlaqədar Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən aşağıdakı tədbirlər həyata keçirilib:

Dövlət Komissiyasına üzv olan qurumların məsul əməkdaşlarının, Bakı şəhəri və respublikanın şəhər, rayon komissiyalarının sədrlərinin ümumilikdə 61 nümayəndənin iştirakı ilə "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı aparılan mübarizə və bu sahədə qarşıda duran vəzifələr" mövzusunda onlayn konfrans keçirilib. Narkomanlığın ziyanı ilə bağlı əhalini məlumatlandırmaq üçün zəruri bildiriş (DK İşçi Qrup: Ən doğru seçim-narkotiklər haqqında həqiqəti öyrənək və heç bir halda ondan istifadə etməyək! **www.nmdk.gov.az**, DİN 012/590-21-10, RNM 012/455-07-61) ölkə üzrə fəaliyyət göstərən "Bakcell", "Azerfon" mobil rabitə operatorları tərəfindən mərhələli qaydada SMS vasitəsilə abunəçilərə (təqribən 4 milyon) göndərilib, "Azercell" mobil operatoru tərəfindən də göndərilməsi nəzərdə tutulub. Azərbaycan Televiziyasının "Çıxışa doğru" verilişində Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən hazırlanmış "Çalış ki, narkotikə hədəf olmayasan" adlı sosial rolikin yayımlanması təmin edilib. "Narkomanlığa birlikdə yox deyək" şüarı ilə iki formada Bakı Nəqliyyat Agentliyinin elektron informasiya terminallarında mövcud olan monitorlarda nümayiş olunub. Narkotiklərdən istifadə nəticəsində mərhələli qaydada baş verən dəyişiklikləri və xəbərdaredici şüarları əks etdirən maarifləndirici videoçarx Bakı şəhərinin bir sıra küçə və prospektlərində mövcud olan elektron reklam lövhələrində və "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin 220-dən artıq avtobusunda olan monitorlarda nümayiş olunub. Bu istiqamətdə həyata keçirilən bütün tədbirlər kütləvi informasiya vasitələrində o cümlədən Dövlət Komissiyasının rəsmi **www.nmdk.gov.az** internet səhifəsində və sosial şəbəkələrdə geniş işıqlandırılıb. Dövlət Proqramı"nın 4.1.10-cu bəndinin icrası ilə əlaqədar narkotik vasitələrin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti nazirlik, komitə və təşkilatlarla, o cümlədən ayrı-ayrı vətəndaşlarla operativ qaydada əlaqələndirilməni təmin etmək məqsədilə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunda "802" qaynar xətt rabitə əlaqəsi bu ilin avqustundan etibarən fəaliyyətə başlayıb və "802" telefon xidmətinin fəaliyyətini ictimaiyyət arasında geniş təbliğ etmək məqsədilə sosial çarx hazırlanıb. Dövlət Proqramının 4.1.22-ci bəndinin icrası ilə əlaqədar Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının internet saytının mobil versiyasının hazırlanması təmin edilib. Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə vətəndaşların aktiv fəaliyyət göstərməsi (məlumat, ərizə, şikayət və təklif) üçün nmdk.gov.az saytında onlayn müraciət bölümü yaradılıb.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.4.38-ci bəndinə müvafiq olaraq, ailədaxili münasibətlər kontekstində valideyn nəzarətsizliyinin narkotik vasitələrdən istifadədə rolu mövzusunda "Ailəmizə və övladlarımıza dəyər verək", "Narkotik sərhədsiz fəlakətdir" və animasiya formatında "İçindəki günəşi qoru, narkotikə yox de" adlarında iki ədəd yeni maarifləndirici videoçarx hazırlanıb. Qeyd olunan videoçarxların mövcud şərait nəzərə alınmaqla, gələcəkdə kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə işıqlandırılması nəzərdə tutulur.

Dövlət Proqramının 4.4.35-ci bəndinin icrası ilə əlaqədar, sağlam həyat tərzinin təbliği və narkomanlığın zərəri ilə bağlı sosial maarifləndirmə işinin daha da genişləndirilməsi məqsədi ilə Dövlət Komissiyasının İşçi Qrupu tərəfindən üzərində xüsusi şüarlar əks olunan yeni forma və dizaynda sosial lövhələr hazırlanıb.

İnformasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə dair şəhər və rayonlar üzrə ayrı-ayrılıqda əldə olunan statistik məlumatlar sisteminin modernləşdirilməsi üçün müvafiq elektron xəritələrin hazırlanması istiqamətində işlər davam etdirilir.

# "Ayrılarmı könül candan"



Ömürdən keçən illər hər kəsin həyatının çalarlarını ruha hopduraraq əsrlərə daşıyır. Bu baxımdan tarix ötüb keçən illərin sinxron yaddaşıdır. Qarşılaşdığımız, gördüyümüz və eşitdiklərimiz həyat məktəbidir. Bu gün bizim ən böyük amalımız belə simlər üzərində köklənib. Vətən müharibəsi başlayandan hamı müsəlləh əsgərdir. Hərə öz əməli ilə vətənə gərək olmağa, cəbhəyə, Ali Baş Komandana yardım etməyə çalışır.

Vətənin ağır günündə hamının bir zindana vurması lazımdır. Sentyabrın son günlərindən başlayan savaşda qubalılar da yaxından iştirak edirlər. Ali Baş Komandanın vətən çağırışından sonra yüzlərlə gəncimiz cəbhəyə gedərək düşməndən intiqam almağa yollanıb. Onların içində Ahıska türkləri də var.

Tarixin qanlı keçmişini xatırlasaq, orada ahıskalıların başına gətirilən müsibətlərin şahidi olarıq. Məlumat üçün bildirək ki, Ahıska türkləri 1944-cü ilə qədər Gürcüstanın Mesxeti bölgəsində yaşayıblar. Hələ 1918-ci ildə həmin bölgədə ərazi dəyişikliyi edilmiş və Ahıska türkləri Türkiyədən alınaraq Gürcüstanın ərazisinə qatılmışdır. İşgüzar ahıskalılar qısa zamanda gürcülərlə qaynayıb-qarışmışlar. Onu da qeyd edək ki, həmin ərazinin yaxınlığında yüzlərlə erməni ailəsi də yaşayırdı. Buna baxmayaraq, elə kəndlər var idi ki, bölgədəki ahıskalılar sayca digərlərindən üç-dörd dəfə çox idilər. Bu isə erməniləri narahat edirdi.

İstər Gürcüstanda yaşayanda, istərsə də Orta Asiyaya köçürüləndən sonra ermənilər türklərə qarşı olan alçaq niyyətlərindən əl çəkmədilər. Nəticədə Ahıska türklərinin həyatında ikinci bir faciə törədildi. Bu faciə ermənilərin əli ilə 1989-cu ildə Özbəkistanın Fərqanə şəhərində baş verdi. İki qardaş xalq arasında baş verən iğtişaşlar nəticəsində yüzlərlə insan qətlə yetirildi. Biz canı canımızdan olan Azərbaycana üz tutduq. Az bir zamanda azərbaycanlılara elə qaynayıb qarışdıq ki, bizi ayırmaq mümkün deyildi.

Bu gün ümumi düşmənimiz olan erməni işğalçılarına qarşı Vətən savaşında ahıskalılar da var. Süfrəsi başında əyləşdiyimiz vətənin qələbə payına bizim gənclərimiz də öz adlarını şərəflə yazırlar. O gün olsun ki, bütün ərazilərimiz işğaldan azad edilsin və bayrağımız Qarabağın hər yerində dalğalansın!

Biz yaşlı nəsil qələbədən sonra azad olunan torpaqlarda işləməyə hazırıq. Döyüşən oğullarımızı biz əvəz edərik. Təki qələbə bizimlə olsun. Hamı - ahıskalı, tat, ləzgi, qrız dəxli yoxdur, hamımız vahidik və bizim qürrələndiyimiz bir Azərbaycan var! Bir də "Qarabağ Azərbaycandır!" deyən dilimiz. Allah Ali Baş Komandanımızı, Ordumuzu qorusun!

***Səlimjan RUZMANOV.***
***Quba***









# Separatçılar rəsmən Qarabağı tərk etdilər

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, daim sosial şəbəkələrdə fəal olan separatçıların liderini son günlərdə görən olmayıb. Onun adından sosial şəbəkələrdə məlumatlar yayılsa da, görüntüsü yoxdur. İstisna edilmir ki, separatçı ordunun rəhbəri kimi A.Arutyunyan da Azərbaycan Ordusu tərəfindən məhv edilib.

## Paşinyanın ümidi indi cinayətkarlaradır

Ermənistanın Azərbaycanla müharibə aparmaq üçün potensialı tamamilə tükənib. Bir müddət əvvəl cəbhəyə göndərməyə adam tapmayan N.Paşinyan qocaları, qadınları və uşaqları döyüşə cəlb etməyə başlamışdı. Bunun da bir faydasının olmadığını görən baş nazir son ümidini cinayətkarlara bağlayıb. Belə ki, Ermənistanda yenidən bir qrup məhkum cəbhəyə göndərilmək üçün həbsdən azad edilib. Ermənistanın baş prokurorluğundan verilən məlumata görə, bundan əvvəl həbsdə olan 16 nəfər də döyüşə göndərilib.

Hazırda həbsdə olan digər məhbuslardan ibarət dəstənin yaradılması nəzərdən keçirilir. Ölkənin ədliyyə naziri Rüstəm Badasyan Ermənistanda məhbuslardan ibarət könüllü dəstələrin Dağlıq Qarabağa döyüşlərə göndərilməsi məsələsinin nəzərdən keçirildiyini təsdiqləyib. O bildirib ki, məhbusların cəbhəyə yollanması üçün onların barəsində verilən həbs qərarlarını dəyişmək lazımdır.

Vaxtilə cinayət törətmiş həmin məhbusların Qarabağ uğrunda döyüşməyəcəkləri isə gün kimi aydındır. Onlar ilk fürsətdəcə hazırda xaos səbəbindən cinayətkarlığın baş alıb getdiyi Ermənistana qaçacaqlar.







## Yeni doğulan körpələr girov saxlanılır

Azərbaycan Ordusuna qarşı döyüşlərdə məğlub olan Ermənistanda fərarilik halları getdikcə artır. Ölkədə cəbhəyə getməkdən yayınanlar sərt şəkildə cəzalandırılırlar, hətta onların qohumları girov saxlanılırlar.

Hüquqşünas Robert Hayrapetyan sosial şəbəkədəki hesabında yazıb ki, yeni doğulmuş körpələrə yalnız ataları könüllü olaraq cəbhəyə getdikdə və anaları xəstəxanalarda girov saxlanıldıqda şəhadətnamə verilir: "Hər dəqiqə vətənpərvərlikdən danışanlar zəif insanlarımıza qarşı ikiüzlülükdən başqa bir şey etmirlər. Uşaq doğulduqdan bir gün sonra doğum haqqında şəhadətnamənin yalnız uşağın atasının cəbhəyə könüllü getməsi barədə təsdiq sənədinin təqdim edilməsi şərti ilə veriləcəyini necə etmək olar? Uşaqları və analarını girov götürürsünüz, yoxsa onlarla danışıqlar masasında oturmağa qərar vermisiniz? Sizdə beyin var?"

Bu arada Dağlıq Qarabağdan mülki ermənilərin qaçışı daha da sürətlənib. "Qraparak" qəzeti yazır ki, ermənilər Xankəndi şəhərini tərk etməkdə davam edir. Xüsusən son günlər əhali intensiv şəkildə şəhərdən çıxıb və sakinlərin azalması ilə küçələr boş qalıb. Xankəndinin "mer"i David Sarkisyan qeyd edib ki, sentyabrın 27-də Dağlıq Qarabağda hərbi əməliyyatlar başlayana qədər şəhərdə 56 min sakin yaşayıb: "İndi isə bu rəqəm 17 min təşkil edir. Sakinlərin əksəriyyəti Ermənistana köçüb".

## Ermənistanın müharibə itkiləri milyardlarla dollar təşkil edir

Rusiyanın "rusbankrot.ru" nəşri yazıb ki, müharibə silah tədarükçüklərinə nəhəng gəlir gətirsə də, döyüş iştirakçılarını iflasla üz-üzə qoyur. Ermənistanla Azərbaycan arasında münaqişə də bu baxımdan istisna deyil. Dağlıq Qarabağda bir aydan çoxdur ki, davam edən döyüş əməliyyatları kreditlər içində çapalayan Ermənistan iqtisadiyyatını daha da ağır vəziyyətə salıb. Məqalədə qeyd olunur ki, bu müddət ərzində Ermənistan 250-dən çox tank, hava hücumundan müdafiə sistemləri, yüzlərlə yük maşını, artilleriya vahidi itirib.

Komanda məntəqələrinin və silah anbarlarının məhv edilməsi də ölkə iqtisadiyyatına əhəmiyyətli zərbə vurub. Mütəxəssislərin hesablamalarına görə, Ermənistanın müharibə itkiləri bir neçə milyard dollar təşkil edir. Məqalədə bildirilir ki, indi Yerevan qarşısında ciddi sual dayanır: kreditlər necə qaytarılacaq? Çünki yeni borcların alınması, ya da milli valyutanı dəyərsizləşdirmək bahasına yeni pullar çap etmək heç nəyi həll etməyəcək: "Artıq bu ilin iyulunda Ermənistanın dövlət borcu rekord həddə - 8 milyard dollar həddinə çatmışdı. "Fitch" reytinq agentliyi bu ilin sonunadək ölkə iqtisadiyyatının defoltla üzləşəcəyini proqnozlaşdırırdı. Bununla belə Yerevan xaricdən borc almaq ümidini də itirib, çünki ölkədə müharibə gedir, bundan başqa, koronavirus pandemiyası davam edir, ölkə iqtisadiyyatı hələ də tətbiq olunmuş məhdudiyyətlərdən özünə gələ bilməyib".

Bu arada Dağlıq Qarabağdan Ermənistana külli miqdarda silah-sursat daşınması ilə bağlı ölkə mediası çoxlu faktlar aşkarlayıb. "4rd.am" saytı yazır ki, Ermənistanın Vayk şəhərində polis şöbəsinə daxil olan operativ məlumatlar əsasında Qarabağdan qayıdan avtomobillərə baxış zamanı silahlar, dəbilqələr, güllə keçirməyən jiletlər, hərbi bıçaqlar, xeyli sayda güllə və digər hərbi avadanlıqlar götürülüb.

Ermənistanın Sünik və Sisian polis bölmələrinin əməkdaşları tərəfindən Qarabağdan qayıdan "UAZ" markalı avtomobilə baxış keçirilərkən maşında gizlədilmiş "Kalaşnikov" avtomatları və xeyli sayda güllə müəyyən edilib. Qeyd olunur ki, bütün bunlar yaxın müddətdə Ermənistanda silahlı qiyam təhlükəsinin olduğuna işarədir.

Hazırda Ermənistanda bütün sahələrdə ciddi və dərin xaos hökm sürür. Azərbaycan tərəfindən hərbi məğlubiyyətə uğradılan işğalçı dövlət tarixinin ən ağır və əzablı günlərini yaşayır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Koronavirusla mübarizədə də həmrəy olmalıyıq

*Əvvəli 1-ci səh.*

İsveçrədə koronavirusa gündəlik yoluxma sayı ilk dəfə olaraq 10 mini keçib. Ötən 24 saatda ölkədə 10073 nəfər koronavirusa yoluxub və 73 nəfər ölüb.

Portuqaliyada da pandemiyanın ikinci dalğası müşahidə olunur. Bu mərhələ hər gün yeni yoluxanların və xəstəxanaya yerləşdirilənlərin sayına görə birincidən daha kəskindir. Noyabrın 4-dən etibarən Portuqaliya əhalisinin 70 faizi, yəni ölkənin 10 milyon sakinindən təqribən 7 milyonu koronavirusun yayılmasına nəzarət məqsədilə öz vətəndaşlıq borcunu yerinə yetirərək "evdə qal" rejiminə riayət edir.

Rusiyada gün ərzində koronavirusa yoluxanların sayı ilk dəfə 19 mini keçib. 389 nəfər isə virusun qurbanı olub. Ən çox yoluxma halı Moskvada qeydə alınıb - 5826 nəfər. Ötən sutka ərzində İranda 8452 nəfər koronavirusa yoluxub, 419 nəfər isə həyatını itirib. Türkiyədə 2391 yeni yoluxma halı qeydə alınıb, 77 nəfər dünyasını dəyişib. Gürcüstanda 2401 yoluxma halı qeydə alınıb, 20 nəfər virusun qurbanı olub.

Ermənistan isə əhali sayına görə yoluxma baxımında dünyanın liderlərindən biridir. 2 milyondan da az əhalisi olan ölkədə ötən gün ərzində COVID-19 infeksiyasına 2413 yoluxma faktı aşkarlanıb, 24 nəfər ölüb.

## Yoluxma hallarında nəzərəçarpan artım narahatlıq doğurur

Digər ölkələrlə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və ölüm halları azdır. Bu isə ölkəmizin qlobal pandemiyanın öhdəsindən bacarıqla gəldiyini aydın göstərir. Məhz dövlət tərəfindən vaxtında atılan mühüm addımlar, məhdudlaşdırıcı tədbirlər, karantin rejiminin tətbiqi ölkədə koronavirusa kütləvi yoluxma hallarının qarşısını alıb. Lakin son həftələr infeksiyaya gündəlik yoluxma hallarında nəzərəçarpan artım narahatlıq doğurmağa başlayıb.

Bir müddət əvvəl mütəxəssislər ilin soyuq fəsillərində bütün tənəffüs yolları infeksiyalarının, o cümlədən yeni növ koronavirusun artacağı ilə bağlı xəbərdarlıq etmişdilər. Həmin infeksiyaların artım səbəbi soyuq havanın tənəffüs yollarının müdafiə qabiliyyətini zəiflətməsi nəticəsində infeksiyalara qarşı həssaslığın yaranmasıdır. Lakin bununla yanaşı, bizdən asılı olan səbəblər də var. Ölkədə Vətən müharibəsi başlayandan bəri infeksiyadan qorunma qaydaları ikinci plana keçib. Hər kəsin diqqəti, fikri ön cəbhəyə, Azərbaycanın haqq savaşına yönəldiyinə görə koronavirus anlayışı aktuallığını itirib. Xüsusən cəbhədə uğurlu əməliyyatların olması, vətəndaşlarımızın bu məsələyə münasibəti, demək olar ki, koronavirusla mübarizəni bir qədər unutdurub. Bəzi vətəndaşlarda arxayınlığın və laqeydliyin yaranması, xüsusi karantin rejiminə, gigiyena qaydalarına riayət olunmaması, maskadan istifadənin azalması, məsafə saxlanmaması çətinliklə əldə olunmuş müsbət dinamikanın yenidən itirilməsinin və xəstəliyin sürətlə yayılmasının əsas səbəbidir. Məhz bu faktorlar Azərbaycanda COVID-19 infeksiyasına yoluxma hallarının kəskin artmasında, sanitar-epidemioloji vəziyyətin pisləşməsində əsas rol oynayır.

## Karantin qaydalarına kollektiv əməl etməliyik

Baş infeksionist Təyyar Eyvazov bildirib ki, insanlar arasında təmaslar xeyli artıb və bu zaman karantin tədbirlərinə etinasızlıq yoluxma sayının çoxalmasına səbəb olur: "Ölkəmizdə hərbi vəziyyətin elan olunması və bu vəziyyətin doğurduğu bəzi məqamlar da nəzərə alınmalıdır. Hələlik yoluxma sayında mənfi dinamika izlənilir və bunun davam edəcəyini düşünürəm".

İnfeksionist əlavə edib ki, bu gün ölkə çox böyük sınaq qarşısındadır və belə bir zamanda məsuliyyət hissi iki-üç qat artmalıdır: "Hərbçilərimizin yoluxma riskinin azaldılması üçün ilk növbədə bütün ərazilərdə qeyd olunan karantin qaydalarına kollektiv əməl etməliyik. Xüsusən döyüş bölgələrində hərbçilərlə təmasları minimuma endirməliyik. Bu gün səfərbərliyə alınmış vətəndaşlarımız orduya göndərilməzdən əvvəl mütləq qaydada yoxlanılır. Lakin kimsə özündə narahatlıq hiss edərsə, bunu gizlətməməli və mütləq həkimə müraciət etməlidir. Eyni zamanda döyüşçülərimizlə təması olan mülki şəxslərin ailə üzvlərindən hansısa xəstələnibsə, bunu nəzərə alıb ünsiyyətdə olduqlarını yoxlamaq lazımdır".

Həkimin sözlərinə görə, koronavirusun əsas əlamətləri bədən hərarətinin yüksəlməsi, quru və ya çox az miqdar bəlğəmin ifrazı ilə öskürək, yorğunluq hissi, təngnəfəslik, döş qəfəsində darlıq hissi, həmçinin boğazda ağrı, iybilmə və dadbilmənin azalması və digərlərindən ibarətdir. Bu əlamətlər digər respirator virus infeksiyaları zamanı da rast gəlindiyindən yalnız həkim-mütəxəssisə müraciət etməklə və lazım gələrsə, xüsusi laborator testlər aparılmaqla xəstəliyi təsdiqləmək mümkündür. Burada əsas məqam ondan ibarətdir ki, insanlar bu əlamətləri adi soyuqlama kimi qəbul etməsinlər və özünü müalicə ilə məşğul olmasınlar.

## Səhiyyə sistemini koronaviruslu xəstələrlə yükləməməliyik

Hazırda ölkəmizdə xüsusi karantin rejimi və ordumuzun uğurlu hərbi əməliyyatları davam edir. Cəbhədən gələn şad xəbərləri, böyük qələbəni səbirsizliklə gözləyirik. Bu zaman COVID-lə mübarizə də nəzərdən qaçırılmamalıdır. Çünki səhiyyə sistemimiz ordumuzun, əsgərlərimizin xidmətində olmalı, koronavirusla yüklənməməlidir. Biz özümüzü, ətrafdakıları qorumaqla vətənpərvərlik hisslərini ortaya qoymuş olarıq. Ola bilər qorunmayan şəxs xəstəliyi yüngül keçirəcək. Həmin şəxs düşünməlidir ki, infeksiya mənbəyinə çevrilib bir neçə nəfəri yoluxdura, yoluxdurduğu şəxslər isə ağırlaşmış vəziyyətdə xəstəxanaya yerləşdirilə bilərlər. Bu isə xəstəxanaların yüklənməsinə, həkim, çarpayı çatışmazlığına, nəticədə yaralı əsgərlərin müalicəsində çətinliklərin yaranmasına səbəb ola bilər. Odur ki, gəlin həkimlərimizin iki cəbhəyə bölünməməsinə çalışaq.

Xüsusən bu dövrdə daha çox ehtiyatlı olub ciddi qorunmalıyıq. Nəzərə alaq ki, COVID-19-a yoluxma hallarının kütləviləşməsi hazırkı müharibə dövründə bütün cəmiyyətimiz, xüsusilə də döyüş meydanında düşmənlə ölüm-dirim savaşına çıxan hərbçilərimiz üçün ciddi təhlükədir. Qarabağ uğrunda gedən döyüşlər naminə birləşən xalqımız koronavirusla mübarizədə də birlik nümayiş etdirməlidir. Vətən müharibəsi ilə bağlı xalq olaraq göstərdiyimiz həmrəyliyi koronavirusla mübarizədə də göstərməliyik. Bu mübarizəyə isə özümüzü qorumaqla başlayaq. Heç kəs unutmasın ki, koronavirusla mübarizədə fəal olmaq, xüsusi karantin rejiminin qaydalarına riayət etmək həm də cəbhədə döyüşən əsgərlərimizin sağlamlığı üçün vacibdir. Hazırda sıravi vətəndaşların orduya verəcəyi ən böyük dəstək də elə budur - özlərini, dolayısı ilə də hərbçiləri xəstəlikdən qorumaq. Biz koronavirusla mübarizəyə ciddi yanaşmalı, qaydalara əməl etməli, diqqətli və məsuliyyətli olmalıyıq.

Hazırda hər iki məsələ - insanların sağlamlığı və torpaqlarımızın işğaldan azad edilməsi dövlətin təhlükəsizliyi üçün önəmli məsələlərdir. Biz qorunma tədbirlərinə əməl etməklə dövlətimizə də, ordumuza da dəstək vermiş oluruq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## "Azərişıq" ASC Xüsusi geyimlər və fərdi mühafizə vasitələrinin satın alınması məqsədilə

### *AÇIQ TENDER ELAN EDİR*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satrnalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə va texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirə bilərlər. Müsabiqədə iştirak etmək üçün müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar:

LOT-1 Xüsusi geyimlər və fərdi mühafizə vasitələrinin satın alınması.
İştirak haqqı - 1000 manat
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqələndirici şəxs - Orxan İbrahimov, telefon: 440-39-93 daxili (28-15))**
**orxan.s.ibrahimov@azerishiq.az**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- iddiaçımın tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə(Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti( Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;
  (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron portal vasitəsi ilə keçirilən tenderdə iştirak edə bilməz));
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı ( Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);
- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;
